**Yekun variant**

*Aprel 2022-ci il*

*600 saylı (düzəliş edilmiş) beynəlxalq audit standartı*

# 600 saylı (düzəliş edilmiş) BAS

# və

# 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlər

IAASB International Auditing and Assurance Standards Board

**IAASB haqqında**

Bu sənəd Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən hazırlanmış və təsdiq edilmişdir.

IAASB-nin məqsədi yüksək keyfiyyətli audit, təsdiqləmə və digər əlaqəli standartları müəyyən etməklə, habelə beynəlxalq və milli audit və təsdiqləmə standartlarının uyğunlaşmasını asanlaşdırmaqdır. Bununla da bütün dünyada bu fəaliyyətin keyfiyyətini və ardıcıllığını artırmaq, qlobal audit fəaliyyətinə və auditor peşəsinə ictimai inamı gücləndirmək və ictimai maraqlara xidmət etməkdir.

IAASB, IAASB-nin fəaliyyətinə nəzarət edən İctimai maraqlara nəzarət şurasının, habelə standartların və təlimatların hazırlanmasında ictimai maraqların nəzərə alınmasını təmin edən IAASB-nin konsultativ-məsləhətçi qrupunun iştirakı ilə ümumi standartların təyin edilməsi prosesi çərçivəsində bütün peşəkar mühasiblər tərəfindən istifadə üçün audit və təsdiqləmə standartlarını və təlimatlarını hazırlayır. Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) IAASB-nin fəaliyyəti üçün nəzərdə tutulan strukturlar və proseslərin təmin edilməsini dəstəkləyir.

Müəlliflik hüququ, əmtəə nişanı və icazələr ilə bağlı məlumat üçün bax: səhifə 102.

International Auditing and Assurance Standards Board

**MÜNDƏRİCAT**


| | Səhifə |
|---|---|
| 600 saylı (düzəliş edilmiş) BAS, Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)........................................................................... | 4 |
| Digər beynəlxalq standartlara edilən müvafiq və məntiqli düzəlişlər ……….......................... | 71 |

# 600 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BEYNƏLXALQ AUDİT STANDARTI

## *XÜSUSİ MÜLAHİZƏLƏR - QRUP MALİYYƏ HESABATLARININ AUDİTİ (O CÜMLƏDƏN BÖLMƏ AUDİTORLARININ İŞİ)*

(15 dekabr 2023-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır)

## MÜNDƏRİCAT


Paraqraf

**Giriş**

Bu BAS-ın əhatə dairəsi ........................................ 1–11

Qüvvəyə minmə tarixi ........................................ 12

**Məqsədlər** ........................................ **13**

**Anlayışlar** ........................................ **14–15**

**Tələblər**

Qrup auditində keyfiyyətin idarə edilməsi və təmin edilməsi üzrə rəhbərliyin məsuliyyətləri……........................................ ……….. **Error! Bookmark n**

Müştəri qəbulu və davamlılığı ........................................ **Error! Bookmark not d**

Qrup auditinin ümumi strategiyası və qrup auditinin planı ........................................ 22–29

Qrupun, onun mühitinin, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin və qrupun daxili nəzarət sisteminin öyrənilməsi ........................................ 30–32

Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi ........................................ 33–34

Əhəmiyyətlilik ........................................ 35–36

Qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri ........................................ 37–44

Bölmə auditorunun məlumat mübadiləsinin və onun yerinə yetiridiyi işin müvafiqliyinin qiymətləndirilməsi ........................................ 45–48

Sonrakı hadisələr........................................ 49–50

Əldə edilmiş audit sübutlarının yetərliliyinin və müvafiqliyinin qiymətləndirilməsi………….. 51–52

Auditor hesabatı ........................................ 53

Qrup rəhbərliyi və idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi ........................................ 54–58

Sənədləşdirilmə........................................ 59

**Praktik tətbiq və digər izahedici materiallar**

Bu BAS-ın əhatə dairəsi ........................................ A1–A18

Anlayışlar ........................................ A19–A28

Qrup auditində keyfiyyətin idarə edilməsi və təmin edilməsi üzrə rəhbərliyin məsuliyyətləri.......... A29–A31

Müştəri qəbulu və davamlılığı .......... A32–A46

Qrup auditinin ümumi strategiyası və qrup auditinin planı .......... A47–A87

Qrupun, onun mühitinin, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin və qrupun daxili nəzarət sisteminin öyrənilməsi .......... A88–A107

Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi .......... A108–A115

Əhəmiyyətlilik .......... A116–A123

Qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri .......... A124–A143

Bölmə auditorunun məlumat mübadiləsinin və onun yerinə yetiridiyi işin müvafiqliyinin qiymətləndirilməsi.......... A144–A149

Sonrakı hadisələr.......... A150

Əldə edilmiş audit sübutlarının yetərliliyinin və müvafiqliyinin qiymətləndirilməsi .......... A151–A156

Auditor hesabatı .......... A157–A158

Qrup rəhbərliyi və idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi.......... A159–A165

Sənədləşdirilmə.......... A166–A182

Əlavə 1: Qrup auditorunun rəyini əsaslandırmaq üçün qrup auditoru yetərli müvafiq audit sübutları əldə edə bilmədiyi hallarda müstəqil auditor hesabatının nümunəsi

Əlavə 2: Qrupun daxili nəzarət sisteminin öyrənilməsi

Əlavə 3: Qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini yarada biləcək hadisə və ya şərtlərin nümunələri


---

600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" beynəlxalq audit standartı (BAS) 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" BAS ilə birlikdə oxunmalıdır.

## Giriş

### Bu BAS-ın əhatə dairəsi

1. Beynəlxalq audit standartları (BAS) qrup maliyyə hesabatlarının auditinə (qrup auditi) tətbiq olunur. Bu BAS qrup auditinə şamil olunan xüsusi mülahizələrə, o cümlədən bölmə auditorları cəlb edildiyi hallara aiddir. Bu BAS-da qeyd edilən tələblər və təlimatlar digər müvafiq BAS-ların, xüsusən 220 saylı (düzəliş edilmiş) BAS-ın[1], 230 saylı BAS-ın[2], 300 saylı BAS-ın[3], 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ın[4] və 330 saylı BAS-ın[5] qrup auditinə tətbiq olunmasına istinad edir və ya onları əhatə edir. (İst: Para. A1–A2)

2. Qrup maliyyə hesabatlarına 14(k) paraqrafında təsvir olunduğu kimi konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatları daxil edilir. Bu BAS-da istifadə edilən "konsolidasiya prosesi" termini təkcə maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına deyil, həm də birləşdirilmiş maliyyə hesabatlarının təqdim edilməsinə və müəssisələrin və ya filiallar və ya bölmələr kimi struktur vahidlərinin məlumatlarının ümumiləşdirilməsinə şamil olunur. (İst: Paraq. A3–A5, A27)

3. 220 saylı (düzəliş edilmiş) BAS-da[6] izah edildiyi kimi, tapşırıq qrupuna başqa şirkətdən olan şəxslər daxil edildikdə qrup auditi olmayan maliyyə hesabatlarının auditində də şəraitə uyğunlaşdırılmış bu BAS məqsədəuyğun ola bilər. Məsələn, belə şəxs uzaqda yerləşən ortaq xidmət mərkəzində inventarizasiyanı və ya əsas vəsaitlərə baxış keçirilməsini müşahidə etməyə, yaxud audit prosedurlarını yerinə yetirməyə cəlb edildikdə, bu BAS məqsədəuyğun ola bilər.

*Qruplar və bölmələr*

4. Qrup müxtəlif yollarla təşkil edilə bilər. Məsələn, qrup hüquqi və ya digər şəxslər tərəfindən təşkil edilə bilər (məs., ana müəssisə, bir və ya bir neçə törəmə müəssisə, birgə müəssisələr, yaxud iştirak payı metodu ilə uçota alınan investisiyalar). Alternativ olaraq, qrup coğrafi mövqeyə, digər iqtisadi vahidlərə (o cümlədən filiallar və ya bölmələr), yaxud funksiyalara və ya təsərrüfat fəaliyyətlərinə uyğun olaraq təşkil edilə bilər. Bu BAS-da bu cür müxtəlif təşkilati formalar birlikdə "müəssisə və ya struktur vahidləri" adlandırılır. (İst: Paraq. A6)

5. Qrup auditoru qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri ilə bağlı qiymətləndirilmiş risklərə qarşı tədbir görmək üçün audit prosedurlarının planlaşdırılmasına və yerinə yetirilməsinə müvafiq yanaşmanı müəyyən edir. Bu məqsədlə qrup auditoru audit işinin yerinə yetiriləcəyi bölməni müəyyən edərkən peşəkar mühakimə yürüdür. Bu cür komponentləri müəyyən edərkən qrup auditoru qrup və onun mühiti haqqında öz anlayışına və audit prosedurlarını mərkəzləşdirilmiş şəkildə yerinə yetirmək imkanı, ortaq xidmət mərkəzlərinin mövcudluğu və ya ümumi məlumat sistemlərinin və daxili nəzarətin mövcudluğu kimi digər amillərə əsaslanır. (İst: Paraq. A7–A9)

*Bölmə auditorlarının işə cəlb edilməsi*

---

[1] 220 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" BAS

[2] 230 saylı "Auditin sənədləşdirilməsi" BAS

[3] 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS

[4] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) "Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi" BAS

[5] 330 saylı "Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri" BAS

[6] 220 saylı (düzəliş edilmiş) BAS, A1 paraqrafı

6. 220 saylı (düzəliş edilmiş) BAS-ın[7] tələblərinə uyğun olaraq, tapşırıq üzrə tərəfdaş əmin olmalıdır ki, tapşırığın yerinə yetirilməsi üçün yetərli və müvafiq resurslar vaxtında ayrılmışdır və ya tapşırıq qrupuna təqdim edilmişdir. Qrup auditində bu cür resurslara bölmə auditorları daxil ola bilər. Beləliklə, bu BAS-ın tələblərinə uyğun olaraq, qrup auditoru bölmə auditorlarının cəlb edilməsinin xüsusiyyətini, müddətini və həcmini müəyyən etməlidir.

7. Qrup auditoru bu BAS-ın tələblərinə riayət etmək məqsədilə məlumat vermək və ya audit işini yerinə yetirmək üçün bölmə auditorlarını işə cəlb edə bilər. Qrup auditoruna nisbətən bölmə auditorları bölmələr və onların mühitləri (o cümlədən yerli qanun və qaydalar, biznes praktikası, dil və mədəniyyət) ilə bağlı daha böyük təcrübəyə və daha dərin biliyə malik ola bilər. Müvafiq olaraq, bölmə auditorları qrup auditinin bütün mərhələlərinə cəlb edilə bilər və çox vaxt cəlb edilirlər. (İst: Paraq. A10–A11)

8. Audit riski funksiyası əhəmiyyətli təhrif risklərinin və aşkarlanmama riskinin müəyyən edilməsi təhlükəsidir.[8] Qrup auditində aşkarlamama riski bölmə auditorunun qrup maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola biləcək bölmənin maliyyə məlumatlarında təhrifi aşkar edə bilməməsi və qrup auditorunun bu təhrifi aşkar edə bilməməsi riskini əhatə edir. Müvafiq olaraq, bu BAS-a uyğun olaraq, qrup tapşırığı üzrə tərəfdaşın və ya qrup auditorunun, müvafiq hallarda, bölmə auditorlarının işində yetərli və müvafiq iştirak etməsi tələb olunur və qrup auditoru ilə bölmə auditorları arasında ikitərəfli məlumatvermənin vacibliyi vurğulanır. Bundan əlavə, bu BAS-da bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsinin xüsusiyyəti, müddəti və həcmini müəyyən edərkən və onların işini təhlil edərkən qrup auditorunun nəzərə aldığı məsələlər izah edilir. (İst: Paraq. A12–A13)

*Peşəkar inamsızlıq*

9. 200 saylı BAS-ın[9] tələblərinə uyğun olaraq, tapşırıq qrupu qrup auditinin planlaşdırılmasında və yerinə yetirilməsində peşəkar inamsızlıq tətbiq etməli və peşəkar mühakimə yürütməlidir. Müvafiq peşəkar inamsızlığın tətbiq edilməsi qrup auditi aparılarkən tapşırıq qrupunun hərəkətləri və məlumat mübadiləsi, o cümlədən peşəkar inamsızlıq tətbiq edən tapşırıq qrupunun hər bir üzvünün vacibliyini vurğulanması vasitəsilə nümayiş etdirilə bilər. Bu cür hərəkətlər və məlumat mübadiləsi peşəkar inamsızlığın lazımi şəkildə tətbiq edilməsinə mane ola biləcək amillərin təsirini azaldan müəyyən tədbirləri əhatə edə bilər. (İst: Paraq. A14–A18)

Uyğunlaşdırılma

10. Bu BAS ölçüsündən və mürəkkəbliyindən asılı olmayaraq bütün qrup auditləri üçün nəzərdə tutulub. Bununla belə, bu BAS-ın tələblərinin hər bir qrup auditinin xüsusiyyəti və şəraiti kontekstində tətbiq edilməsi nəzərdə tutulur. Məsələn, qrup auditi bütövlüklə qrup auditoru tərəfindən aparıldıqda, bu BAS-da qeyd edilən bəzi tələblər müvafiq deyil, çünki onlar bölmə auditorları cəlb edildiyi halda şamil olunur. Bu, qrup auditoru audit prosedurlarını mərkəzləşdirilmiş şəkildə yerinə yetirə bildikdə və ya bölmə auditorlarını cəlb etmədən bölmələrdə prosedurları yerinə yetirə bildiyi hallarda baş verə bilər. A119 və A120 paraqraflarında qeyd edilən təlimatlar da bu BAS-ın bu şəraitdə tətbiq edilməsində məqsədəuyğun ola bilər.

*Qrupun tapşırıq üzrə tərəfdaşının və qrup auditorunun məsuliyyətləri*

---

[7] 220 saylı (düzəliş edilmiş) BAS, 25-ci paraqraf

[8] 200 saylı “Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması” BAS, A34 paraqrafı

[9] 200 saylı BAS, 15-16-cı paraqraflar

11. Bu BAS-ın tələblərinə riayət etmə üçün son nəticədə məsuliyyəti və buna görə də cavabdehliyi qrupun tapşırıq üzrə tərəfdaşı daşıyır. “Qrupun tapşırıq üzrə tərəfdaşı ... görə məsuliyyət daşımalıdır” və ya “qrup auditoru… görə məsuliyyət daşımalıdır” termini müvafiq olaraq qrupun tapşırıq üzrə tərəfdaşına və ya qrup auditoruna prosedurların, tapşırıqların və ya tədbirlərin tərtib edilməsini və ya yerinə yetirilməsini bölmə auditorları da daxil olmaqla tapşırıq qrupunun müvafiq bacarıqları və ya uyğun təcrübələri olan digər üzvlərinə tapşırmağa icazə verildikdə şamil olunan tələblər üçün istifadə olunur. Digər tələblər üçün bu BAS-da açıq şəkildə nəzərdə tutulur ki, tələb və ya məsuliyyət müvafiq hallarda qrup tapşırığı üzrə tərəfdaş və ya qrup auditoru tərəfindən yerinə yetirilsin və qrup tapşırığı üzrə tərəfdaş və ya qrup auditoru şirkətdən və ya tapşırıq qrupunun digər üzvlərindən məlumat əldə edə bilər. (İst: Paraq. A29)

## Qüvvəyə minmə tarixi

12. Bu BAS 15 dekabr 2023-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə qrup maliyyə hesabatlarının auditi üçün etibarlıdır.

## Məqsədlər

13. Auditorun məqsədləri aşağıdakılardır:

(a) qrupun audit tapşırığının qəbulu və davamlılığı ilə əlaqədar olaraq, qrupun maliyyə hesabatları üzrə rəy formalaşdırmaq məqsədilə əsas təmin etmək üçün yetərli müvafiq audit sübutlarının əldə edilməsinin ağlabatan şəkildə ehtimal edilə biləcəyini müəyyən etmək;

(b) qrup maliyyə hesabatlarının dələduzluq və ya səhv nəticəsində əhəmiyyətli təhrif risklərini müəyyən etmək və qiymətləndirmək, habelə qiymətləndirilmiş risklərə qarşı müvafiq cavab tədbirləri görmək üçün əlavə audit prosedurlarını planlaşdırmaq və yerinə yetirmək;

(c) qrup auditi aparılarkən bölmə auditorlarının işində yetərli və müvafiq şəkildə iştirak etmək, o cümlədən işlərinin həcmi və müddəti haqqında aydın şəkildə məlumat vermək və bu işin nəticələrini qiymətləndirmək; habelə

(d) qrup maliyyə hesabatları üzrə rəyin formalaşdırılması üçün əsas kimi tətbiq edilmiş audit prosedurlarından, o cümlədən bölmə auditorları tərəfindən yerinə yetirilmiş işlərlə bağlı yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini qiymətləndirmək.

## Anlayışlar

14. BAS-ların məqsədləri üçün istifadə olunan terminlər aşağıdakı mənaları ifadə edir:

(a) Təhriflərin aqreqasiya riski (Aggregation risk) – aradan qaldırılmamış və aşkar edilməmiş təhriflər məcmusunun bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətlilikdən artıq olması ehtimalı. (İst: Paraq. A19)

(b) Bölmə (Component) – qrup auditində audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsi məqsədilə qrup auditoru tərəfindən müəyyən edilmən müəssisə, struktur vahidi, funksiya və ya təsərrüfat fəaliyyəti, yaxud onların bəzi kombinasiyası. (İst: Paraq. A20)

(c) Bölmə auditoru (Component auditor) – qrup auditinin məqsədləri üçün bölməyə aid audit işini yerinə yetirən auditor. Bölmə auditoru qrup auditi üçün tapşırıq qrupunun[10] bir hissəsini təşkil edir. (İst: Paraq. A21–A23)

[10] 220 saylı (düzəliş edilmiş) BAS, 12(d) paraqrafı

(d) Bölmə rəhbərliyi (Component management) – bölməyə görə məsuliyyət daşıyan rəhbərlik. (İst: Paraq. A24)

(e) Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik (Component performance materiality) – bölməyə aid audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsi məqsədilə təhriflərin birləşmə riskini məqbul aşağı səviyyəyə endirmək üçün qrup auditoru tərəfindən müəyyən edilmiş məbləğ.

(f) Qrup (Group) – elə hesabat verən müəssisədir ki, qrup maliyyə hesabatları onun üçün hazırlanır.

(g) Qrup auditi (Group audit) – qrup maliyyə hesabatlarının auditi.

(h) Qrup auditoru (Group auditor) – qrupun tapşırıq üzrə tərəfdaşı və bölmə auditorları olmayan tapşırıq qrupunun üzvləri. Qrup auditoru aşağıdakılara görə məsuliyyət daşıyır:

 (i) qrup auditinin ümumi strategiyasının və qrupun audit planının müəyyən edilməsi;

 (ii) bölmə auditorlarına rəhbərlik və nəzarət etmə və onların işinin təhlil edilməsi;

 (iii) qrup maliyyə hesabatları üzrə rəyin formalaşdırılması üçün əsas kimi əldə edilmiş audit sübutlarından çıxarılan nəticələrin qiymətləndirilməsi.

(i) Qrup auditorunun rəyi (Group audit opinion) – qrup maliyyə hesabatları üzrə auditor rəyi.

(j) Qrupun tapşırıq üzrə tərəfdaşı (Group engagement partner) – qrup auditinə görə məsuliyyət daşıyan tapşırıq üzrə tərəfdaş[11]. (İst: Paraq. A25)

(k) Qrup maliyyə hesabatları (Group financial statements) – konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatlarını əhatə edən maliyyə hesabatları. Bu BAS-ın məqsədləri üçün konsolidasiya prosesinə aşağıdakılar daxildir: (İst: Paraq. A26–A28)

 (i) konsolidasiya, mütənasib konsolidasiya və ya iştirak payı ilə uçot metodu;

 (ii) ana müəssisəsi olmasa da, ümumi nəzarət altında olan və ya ümumi rəhbərliyi olan müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarının birləşdirilmiş maliyyə hesabatlarında təqdim edilməsi; yaxud

 (iii) filiallar və ya bölmələr kimi müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarının bir yerə cəmlənməsi.

(l) Qrup rəhbərliyi (Group management) – qrup maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyan rəhbərlik.

(m) Qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik (Group performance materiality) – qrup auditoru tərəfindən müəyyən edildiyi kimi, bütövlükdə qrup maliyyə hesabatlarına aid prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik[12].

15. Bu BAS-da istinad edilən “maliyyə hesabatlarının tətbiq olunan çərçivələri” qrup maliyyə hesabatlarına şamil olunan maliyyə hesabatlarının çərçivələri mənasını ifadə edir.

---

[11] 220 saylı (düzəliş edilmiş) BAS, 12(a) paraqrafı

[12] 320 saylı “Auditin planlaşdırılmasında və həyata keçirilməsində əhəmiyyətlilik” BAS, 9 və 11-ci paraqraflar

## Tələblər

**Qrup auditində keyfiyyətin idarə edilməsi və təmin edilməsi üzrə rəhbərliyin məsuliyyətləri**

16. 220 saylı (düzəliş edilmiş) BAS-a[13] uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşdan qrupun audit tapşırığının idarə edilməsi və keyfiyyətə nail olunması üçün ümumi məsuliyyəti öz üzərinə götürməsi tələb olunur. Bunu edərkən, qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakı tələblərə cavab verməlidir: (İst: Paraq. A29–A30)

    (a) işçi qrupu üzvlərinin davranışına xüsusi diqqət yetirməklə, audit tapşırığı üçün mühitin yaradılmasına görə məsuliyyət daşımalıdır.

    (b) qrupun audit tapşırığına, o cümlədən bölmə auditorlarının işinə yetərli və müvafiq şəkildə cəlb olunmaq ki, qrupun audit tapşırığının xüsusiyyəti və şərtləri nəzərə alınmaqla qrupun tapşırıq üzrə tərəfdaşının yürüdülmüş əhəmiyyətli mühakimələrin və əldə edilmiş nəticələrin məqsədəuyğun olub-olmadığını müəyyən etmək üçün əsası olsun.

**Müştəri qəbulu və davamlılığı**

17. Qrupun audit tapşırığını qəbul etməzdən və ya davam etdirməzdən əvvəl qrupun tapşırıq üzrə tərəfdaşı qrup maliyyə hesabatları üzrə formalaşdırılan rəyi əsaslandırmaq üçün yetərli müvafiq audit sübutlarının əldə edilməsinin gözlənilə biləcəyinin ağlabatan olub-olmamasını müəyyən etməlidir. (İst: Paraq. A32–A35)

18. Qrupun audit tapşırığının qəbul edilməsindən və ya davam etdirilməsindən sonra qrupun tapşırıq üzrə tərəfdaşı yetərli müvafiq audit sübutlarının əldə edilə bilməyəcəyi qənaətinə gələrsə, qrupun tapşırıq üzrə tərəfdaşı bunun qrup auditinə mümkün təsirləri nəzərdən keçirməlidir. (İst: Paraq. A36)

*Tapşırığın şərtləri*

19. 210 saylı BAS-ın[14] tələblərinə uyğun olaraq, qrup auditoru qrup rəhbərliyindən tapşırıq qrupunu aşağıdakılarla təmin etmək üçün öz məsuliyyətini qəbul etməsi və başa düşməsi barədə razılığını almalıdır: (İst: Paraq. A37)

    (a) qrup rəhbərliyinə məlum olan mühasibat uçotu materialları, sənədləşdirilmə və digər məsələlər kimi qrup maliyyə hesabatlarının hazırlanmasına aid olan bütün məlumatlara çıxış;

    (b) qrup auditi məqsədilə tapşırıq qrupunun qrup rəhbərliyindən və ya bölmə rəhbərliyindən istəyə biləcəyi əlavə məlumatlar; habelə

    (c) tapşırıq qrupu audit sübutlarının onlardan əldə edilməsinin zəruri olduğunu müəyyən etdiyi qrup daxilindəki şəxslərə məhdudiyyətsiz çıxış.

*Qrup rəhbərliyinin nəzarətindən kənar məlumatlara və ya əməkdaşlara çıxış məhdudiyyətləri*

20. Qrupun tapşırıq üzrə tərəfdaşı, qrup rəhbərliyinin nəzarətindən kənar olan məhdudiyyətlərə görə qrup rəhbərliyinin tapşırıq qrupuna məlumatlara çıxış və ya qrup daxilindəki şəxslərə məhdudiyyətsiz çıxış təmin edə bilməyəcəyi qənaətinə gəldiyi halda, qrupun tapşırıq üzrə tərəfdaşı bunun qrup auditinə mümkün təsirlərini nəzərdən keçirməlidir. (İst: Paraq. A38–A46)

---

[13] 220 saylı (düzəliş edilmiş) BAS, 13-cü paraqraf

[14] 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS, 6(b) və 8(b) paraqrafları

*Qrup rəhbərliyi tərəfindən məlumatlara və ya əməkdaşlara çıxışa qoyulan məhdudiyyətlər*

21. Qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakı qənaətə gəldiyi halda: (İst: Paraq. A43–A46)

    (a) qrup rəhbərliyi tərəfindən qoyulmuş məhdudiyyətlər səbəbindən qrup auditorunun yetərli müvafiq audit sübutları əldə etməsi mümkün olmayacaq; habelə

    (b) bu məhdudiyyətin mümkün təsiri nəticəsində qrup maliyyə hesabatları üzrə rəy verməkdən imtina ediləcək,

    qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakılardan birini etməlidir:

    (i) ilkin tapşırıq olduğu halda, tapşırığı qəbul etməməlidir və ya təkrar tapşırıq olduğu halda, qüvvədə olan qanun və ya qaydalara əsasən tapşırığa xitam vermək mümkün olduqda, tapşırığa xitam verməlidir; yaxud

    (ii) qanun və ya qaydalarla auditorun tapşırıqdan imtina etməsi qadağan edildikdə və ya tapşırığa xitam vermək başqa cür mümkün olmadıqda, qrup maliyyə hesabatlarının auditini mümkün olduğu qədər yerinə yetirib, qrup maliyyə hesabatları üzrə rəy verməkdən imtina etməlidir.

**Qrup auditinin ümumi strategiyası və qrup auditinin planı**

22. 300 saylı BAS-ın[15] tələblərinə uyğun olaraq, qrup auditoru qrup auditinin ümumi strategiyasını və qrup auditinin planını müəyyən etməli və zəruri hallarda yenilənməlidir. Bu zaman qrup auditoru aşağıdakıları müəyyən etməlidir: (İst: Paraq. A47–A50)

    (a) audit işinin aparılacağı bölmələr; habelə (İst: Paraq. A51)

    (b) qrupun audit tapşırığını yerinə yetirilməsi üçün zəruri resurslar, o cümlədən bölmə auditorlarının cəlb olunacağının xüsusiyyəti, müddəti və həcmi. (İst: Paraq. A52–A56)

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

23. Qrup auditinin ümumi strategiyasını və qrup auditinin planını müəyyən edərkən, qrupun tapşırıq üzrə tərəfdaşı qrup auditorunun bölmə auditorunun işinə yetərli və müvafiq şəkildə cəlb oluna biləcəyini qiymətləndirməlidir. (İst: Paraq. A57)

24. 23-cü bənddə qeyd edilən qiymətləndirmə çərçivəsində, qrup auditoru bölmə auditorundan bölmə auditorunun qrup auditoru ilə əməkdaşlıq edəcəyini, o cümlədən bölmə auditorunun qrup auditorunun tələb etdiyi işi yerinə yetirib-yetirməyəcəyini təsdiq etməyi tələb etməlidir. (İst: Paraq. A58)

Müstəqilliklə bağlı olanlar da daxil olmaqla, müvafiq etik normalar

25. 220 saylı (düzəliş edilmiş) BAS-a[16] uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakılara görə məsuliyyət daşımalıdır: (İst: Paraq. A59–A60, A87)

    (a) qrupun audit tapşırığının xüsusiyyəti və şəraiti nəzərə alınmaqla, bölmə auditorlarının qüvvədə olan müvafiq etik normalar barədə məlumatlandırılması; habelə

---

[15] 300 saylı BAS, 7-10A paraqrafları

[16] 220 saylı (düzəliş edilmiş) BAS, 17-ci paraqraf

(b) bölmə auditorlarının qrupun audit tapşırığına şamil olunan müvafiq etik normalar, o cümlədən müstəqilliyə aid olanlar barədə anlayışın olub-olmamasının və onlara riayət edib-etməyəcəyini təsdiqləmək.

Tapşırığın yerinə yetirilməsi üçün zəruri resurslar

26. 220 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşı[17] aşağıdakıları etməlidir: (İst: Paraq. A61–A68)

(a) bölmə auditorlarının bölmədə təyin edilmiş audit prosedurlarını yerinə yetirmək üçün yetərli vaxt da daxil olmaqla, müvafiq səriştə və bacarıqlara malik olduğunu müəyyən etmək; habelə

(b) bölmə auditoru ilə bağlı monitorinq və remediasiya prosesinin və ya kənar yoxlamaların nəticələri barədə məlumatlar qrup auditorunun şirkəti tərəfindən təqdim edildiyi və ya qrupun tapşırıq üzrə tərəfdaşına başqa şəkildə çatdırıldığı halda, bu məlumatların 26(a) paraqrafında qeyd edildiyi kimi qrup auditoru tərəfindən müəyyən edilməsi üçün uyğunluğunu müəyyən etmək.

27. Qrup auditoru aşağıdakı hallarda bölmə auditorunu cəlb etmədən bölmədə yerinə yetiriləcək işə aid yetərli müvafiq audit sübutları əldə etməlidir:

(a) bölmə auditoru qrupun audit tapşırığına şamil olunmayan müvafiq etik normalara, o cümlədən müstəqilliklə bağlı olanlara riayət etmir;[18] yaxud (İst: Paraq. A69–A70)

(b) qrupun tapşırıq üzrə tərəfdaşının 23-26-cı paraqraflarla məsələlərlə bağlı ciddi narahatlığı var. (İst: Paraq. A71)

Tapşırığın yerinə yetirilməsi

28. 220 saylı (düzəliş edilmiş) BAS-a[19] uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakıları nəzərə almaqla, bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsinin xüsusiyyəti, müddəti və həcminə, həmçinin onların işinin təhlil edilməsinə görə məsuliyyət daşımalıdır: (İst: Paraq. A72–A77)

(a) qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin daha yüksək olduğu kimi qiymətləndirilmiş sahələr və ya 315 saylı (2019-cu ildə düzəliş edilmişdir) BAS-a uyğun olaraq müəyyən edilmiş əhəmiyyətli risklər; habelə

(b) Qrup maliyyə hesabatlarının auditində əhəmiyyətli mühakimənin yürüdülməsini tələb edən sahələr.

Bölmə auditorları ilə məlumat mübadiləsi

29. Qrup auditoru ilə bölmə auditorları arasında onların müvafiq məsuliyyətləri və qrup auditorunun gözləntiləri, o cümlədən qrup auditoru ilə bölmə auditorları arasında məlumat mübadiləsinin qrup auditi ərzində müvafiq vaxtlarda həyata keçirilməsinə dair gözləntilər barədə məlumat mübadiləsi olmalıdır. (İst: Paraq. A78–A87)

---

[17] 220 saylı (düzəliş edilmiş) BAS, 25-26-cı paraqraflar

[18] 200 saylı BAS, 14-cü paraqraf

[19] 220 saylı (düzəliş edilmiş) BAS, 29-cu paraqraf

**Qrupun, onun mühitinin, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin və qrupun daxili nəzarət sisteminin öyrənilməsi**

30. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[20] uyğun olaraq qrup auditoru aşağıdakılar barədə anlayışın əldə edilməsinə görə məsuliyyət daşımalıdır: (İst: Paraq. A88–A92)

(a) Qrup və onun mühiti, o cümlədən: (İst: Paraq. A93–A95)

(i) Qrupun təşkilati strukturu və biznes modeli, o cümlədən:

a. qrupun əməliyyatları və ya fəaliyyətinin aparıldığı məkanlar;

b. qrupun əməliyyatlarının və ya fəaliyyətinin xüsusiyyəti və onların qrup daxilində oxşarlıq dərəcəsi; habelə

c. informasiya texnologiyalarından (İT) istifadənin qrupun biznes modelinə inteqrasiya dərəcəsi;

(ii) Qrupun tərkibindəki müəssisələrə və struktur vahidlərə təsir edən tənzimləyici amillər; habelə

(iii) Müəssisələrin və ya struktur vahidlərin maliyyə nəticələrini qiymətləndirmək üçün istifadə edilən daxili və xarici tədbirlər;

(b) maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və qrup daxilində uçot siyasəti və təcrübələrinin ardıcıllığı; habelə

(c) Qrupun daxili nəzarət sistemi, o cümlədən:

(i) nəzarət vasitələrinin vahidliyinin xüsusiyyəti və dərəcəsi; (İst: Paraq. A96–A99, A102)

(ii) maliyyə hesabatlılığına aid fəaliyyəti qrup tərəfindən mərkəzləşdirilirmi və mərkəzləşdirildiyi halda, qrup tərəfidən bunun necə edilməsi; (İst: Paraq. A100–A102)

(iii) qrup tərəfindən istifadə edilən konsolidasiya prosesi, o cümlədən, əgər varsa, subkonsolidasiyalar və konsolidasiya düzəlişləri; habelə

(iv) qrup rəhbərliyi qrup maliyyə hesabatlarının hazırlanmasını dəstəkləyən əhəmiyyətli məsələlər və maliyyə hesabatlılığı üzrə əlaqəli öhdəliklər barədə məlumat sistemində və qrupun daxili nəzarət sisteminin digər bölmələrində müəssisələrin və ya struktur vahidlərinin rəhbərliyinə necə məlumat verir. (İst: Paraq. A103–A105)

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

31. Qrup auditoru bölmə auditorlarına aşağıdakılar haqqında vaxtında məlumat verməlidir: (İst: Paraq. A106)

(a) qrup auditorunun qrup auditi məqsədləri üçün bölmə auditoru tərəfindən işlənib hazırlanma və ya risklərin qiymətləndirilməsi prosedurlarının yerinə yetirilməsinə aid olduğunu müəyyən etdiyi məsələlər;

(b) 550 saylı BAS-a[21] uyğun olaraq, qrup rəhbərliyi tərəfindən müəyyən edilmiş və bölmə auditorunun işinə aid olan əlaqəli tərəflərin münasibətləri və ya əməliyyatları, habelə qrup auditoruna məlum olan hər hansı digər əlaqəli tərəflər; habelə (İst: Paraq. A107)

---

[20] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 19–27-ci paraqraflar

[21] 550 saylı "Əlaqəli tərəflər" BAS, 17-ci paraqraf

(c) 570 saylı (düzəliş edilmiş) BAS-a[22] uyğun olaraq, qrup rəhbərliyi və ya qrup auditoru tərəfindən müəyyən edilmiş və bölmə auditorunun işinə aidiyyəti olan, qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər.

32. Qrup auditoru bölmə auditorlarından ona aşağıdakılar haqqında vaxtında məlumat vermələrini tələb etməlidir:

(a) qrup maliyyə hesabatlarında dələduzluq və ya səhv nəticəsində əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün müvafiq olduğu bölmə auditoru tərəfindən müəyyən edilən bölmənin maliyyə məlumatlarına aid məsələlər;

(b) qrup rəhbərliyi və ya qrup auditoru tərəfindən əvvəllər müəyyən edilməmiş əlaqəli tərəflərlə münasibətlər; habelə (İst: Paraq. A107)

(c) bölmə auditoru tərəfindən müəyyən edilmiş və qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hər hansı hadisə və ya şəraitlər.

**Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi**

33. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[23] uyğun olaraq, 30-cu maddədə əldə edilmiş anlayışa əsasən, qrup auditoru qrupun maliyyə hesabatlarında, o cümlədən konsolidasiya prosesi ilə bağlı əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsinə görə məsuliyyət daşımalıdır. (İst: Paraq. A108–A113)

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

34. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[24] uyğun olaraq, qrup auditoru qiymətləndirməlidir ki, qrup auditoru və bölmə auditorları tərəfindən yerinə yetirilən risklərin qiymətləndirilməsi prosedurlarından əldə edilmiş audit sübutları qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsini və qiymətləndirilməsini müvafiq şəkildə əsaslandırırmı. (İst: Paraq. A114–A115)

**Əhəmiyyətlilik**

35. 320 saylı BAS-ın[25] və 450 saylı BAS-ın[26] tələblərinə uyğun olaraq, qrup maliyyə hesabatlarında əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar bölmələr üzrə bölündükdə, audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsi məqsədilə qrup auditoru aşağıdakıları müəyyən etməlidir:

(a) Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik. Təhriflərin aqreqasiya riskini azaltmaq üçün bu məbləğ qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilikdən daha az olmalıdır. (İst: Paraq. A116–A120)

(b) Bölmənin maliyyə məlumatlarında müəyyən edilmiş təhriflər hansı son həddən yuxarı olduqda qrup auditoruna məlumat verilməlidir. Bu son hədd qrup maliyyə hesabatları üçün

---

22 570 saylı (düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS

23 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 28–34-cü paraqraflar

24 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 35-ci paraqraf

25 320 saylı BAS, 11-ci paraqraf

26 450 saylı "Audit zamanı müəyyən edilmiş təhriflərin qiymətləndirilməsi" BAS, 5-ci paraqraf

açıq-aydın əhəmiyyətsiz hesab edilən məbləğdən artıq olmamalıdır. (İst: Paraq. A121)

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

36. Qrup auditoru 35-ci paraqrafa uyğun olaraq müəyyən edilmiş məbləğlər barədə bölmə auditoruna məlumat verməlidir. (İst: Paraq: A122–A123)

**Qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri**

37. 330 saylı BAS-ın[27] tələblərinə uyğun olaraq, qrup auditoru yerinə yetiriləcək əlavə audit prosedurlarının xüsusiyyəti, müddəti və həcmi, o cümlədən əlavə audit prosedurlarının hansı bölmələrdə keçiriləcəyinin müəyyən edilməsi və həmin bölmələrdə yerinə yetiriləcək işin xarakteri, vaxtı və həcminin müəyyən edilməsi də daxil olmaqla, həyata keçiriləcək işin xüsusiyyəti, müddəti və həcminə görə məsuliyyət daşımalıdır. (İst: Paraq. A124–A139)

*Konsolidasiya prosesi*

38. Qrup auditoru konsolidasiya prosesindən irəli gələn qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri ilə bağlı qiymətləndirilmiş risklərə qarşı cavab tədbirləri görmək üçün əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsinə görə məsuliyyət daşımalıdır. Bu, aşağıdakıları əhatə edir: (İst: Paraq. A140)

    (a) maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələblərinə uyğun olaraq və müvafiq hallarda, subkonsolidasiyalar üzrə əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi üçün bütün müəssisələrin və struktur vahidlərinin qrup maliyyə hesabatlarına daxil edilib-edilmədiyinin qiymətləndirilməsi;

    (b) konsolidasiya düzəlişlərinin və yenidən təsnifləşdirmələrinin müvafiqliyinin, tamlığının və düzgünlüyünün qiymətləndirilməsi; (İst: Paraq. A141)

    (c) konsolidasiya prosesində rəhbərliyin yürütdüyü mühakimələrin rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətlərinə dəlalət edib-etməməsinin qiymətləndirilməsi; habelə

    (d) konsolidasiya prosesindən irəli gələn dələduzluqla bağlı qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirlərinin görülməsi.

39. Müəssisə və ya struktur vahidinin maliyyə məlumatları qrup maliyyə hesabatlarına şamil olunanla eyni uçot siyasətlərinə uyğun hazırlanmadığı halda, qrup auditoru maliyyə məlumatlarına qrup maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi məqsədilə müvafiq qaydada düzəliş edilib-edilmədiyini qiymətləndirməlidir.

40. Qrup maliyyə hesabatlarına maliyyə hesabatları dövrünün sonu qrupunkundan fərqli olan müəssisə və ya struktur vahidinin maliyyə məlumatları daxil edildiyi halda, qrup auditoru həmin maliyyə məlumatlarına maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq müvafiq düzəlişlərin edilib-edilmədiyinin qiymətləndirilməsinə görə məsuliyyət daşımalıdır.

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

41. Qrup auditoru əlavə audit prosedurlarının işlənib hazırlanmasına və ya yerinə yetirilməsinə bölmə auditorlarını cəlb etdikdə, qrup auditoru qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri ilə bağlı qiymətləndirilmiş risklərə qarşı cavab tədbirlərinin işlənib hazırlanması üçün qrup auditoru və ya

---

[27] 330 saylı BAS, 6–7-ci paraqraflar

bölmə auditoru tərəfindən müvafiq olduğu müəyyən edildiyi məsələlər haqqında bölmə auditoru ilə məlumat mübadiləsi aparmalıdır.

42. Qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin daha yüksək olduğu kimi qiymətləndirilmiş sahələr və ya 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq müəyyən edilmiş əhəmiyyətli risklər üçün bölmə auditoru yerinə yetiriləcək əlavə audit prosedurları müəyyən edir və qrup auditoru həmin əlavə audit prosedurlarının işlənib hazırlanmasının və yerinə yetirilməsinin müvafiqliyini qiymətləndirməlidir. (İst: Paraq. A142)

43. Bölmə auditorları konsolidasiya prosesinə, o cümlədən subkonsolidasiyalarda dair əlavə audit prosedurlarını yerinə yetirdikdə, qrup auditoru bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsinin və onların işinin təhlil edilməsinin xüsusiyyətini və həcmini müəyyən etməlidir. (İst: Paraq. A143)

44. Qrup auditoru bölmə auditorunun məlumat mübadiləsində (bax: 45(a) paraqrafı) müəyyən edilmiş maliyyə məlumatlarının qrup maliyyə hesabatlarına daxil edilmiş maliyyə məlumatları olub-olmadığını müəyyən etməlidir.

**Bölmə auditorunun məlumat mübadiləsinin və onun yerinə yetirdiyi işin müvafiqliyinin qiymətləndirilməsi**

45. Qrup auditoru bölmə auditorundan tələb etməlidir ki, qrup auditorunun qrup auditi ilə bağlı gəldiyi nəticəyə aid olan məsələlər barədə məlumat versin. Bu cür məlumatvermə aşağıdakıları əhatə etməlidir: (İst: Paraq. A144)

(a) bölmə auditorundan onlara dair audit prosedurlarını yerinə yetirməsi tələb olunduğu maliyyə məlumatlarının müəyyən edilməsi;

(b) qrup auditorunun tələb etdiyi işin bölmə auditoru tərəfindən yerinə yetirib-yetirilməməsi;

(c) bölmə auditorunun qrupun audit tapşırığına şamil olunan müvafiq etik normalara, o cümlədən müstəqilliklə bağlı olanlara riayət edib-etməməsi;

(d) qanunlara və ya qaydalara riayət edilməmə halları barədə məlumatlar;

(e) bölmə auditoru tərəfindən müəyyən edilmiş və 36-cı paraqrafa uyğun olaraq qrup auditoru tərəfindən məlumat verilmiş bölmənin maliyyə məlumatlarında aradan qaldırılan və aradan qaldırılmayan son həddən yuxarı olan təhriflər; (İst: Paraq. A145)

(f) rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri;

(g) yerinə yetirilən audit prosedurları ilə əlaqədar daxili nəzarət sistemində müəyyən edilmiş hər hansı çatışmazlıqların təsviri;

(h) bölmə rəhbərliyinin, bölmədə qrupun daxili nəzarət sistemində vacib funksiyaları yerinə yetirən işçilərin və ya sözügedən saxtakarlıq nəticəsində bölmənin maliyyə məlumatları əhəmiyyətli dərəcədə təhrif edildiyi hallarda digər şəxslərin iştirak etdikləri faktiki və ya ehtimal edilən saxtakarlıq;

(i) bölmə auditoru tərəfindən bölmə rəhbərliyinin və ya bölmənin idarəetməyə məsul şəxslərinin diqqətinə çatdırılmış və ya çatdırılmalı olan digər əhəmiyyətli məsələlər;

(j) qrup auditinə aidiyyəti ola bilən və ya bölmə auditorunun fikrincə qrup auditorunun diqqətini cəlb etmək üçün müvafiq olan hər hansı digər məsələlər, o cümlədən bölmə rəhbərliyindən bölmə auditorunun tələb etdiyi yazılı təqdimatlarda qeyd olunan istisnalar; habelə

(k) bölmə auditorunun ümumi nəticələri və qənaətləri. (İst: Paraq. A146)

46. Qrup auditoru aşağıdakıları yerinə yetirməlidir:

    (a) bölmə auditoru ilə məlumat mübadiləsindən irəli gələn, o cümlədən 45-ci paraqrafda qeyd edilən mühüm məsələləri, bölmə auditoru, bölmə rəhbərliyi və ya müvafiq hallarda qrup rəhbərliyi ilə müzakirə etmək; habelə

    (b) bölmə auditoru ilə məlumat mübadiləsinin qrup auditorunun məqsədləri üçün uyğun olub-olmadığını qiymətləndirmək. Bu cür məlumat mübadiləsi qrup auditorunun məqsədləri üçün uyğun olmadığı halda, qrup auditoru onun qrup auditə təsirlərini nəzərdən keçirməlidir. (İst: Paraq. A147)

47. Qrup auditoru bölmə auditorunun əlavə audit sənədləşdirilməsinin təhlil edilməsinin zəruri olub-olmadığını və təhlilin həcmini müəyyən etməlidir. Qrup auditoru bu qərarı verərkən aşağıdakıları nəzərə almalıdır: (İst: Paraq. A148–A149)

    (a) bölmə auditorunun yerinə yetirdiyi işin xüsusiyyəti, müddəti və həcmi;

    (b) 26(a) paraqrafına uyğun olaraq müəyyən edilmiş bölmə auditorunun səriştəsi və bacarıqları; habelə

    (c) bölmə auditoruna rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsi.

48. Əgər qrup auditoru, bölmə auditorunun işinin qrup auditorunun məqsədləri üçün münasib olmadığı qənaətinə gələrsə, bu zaman qrup auditoru hansı əlavə audit prosedurlarının yerinə yetirilməli olduğunu və onların bölmə auditoru, yoxsa qrup auditoru tərəfindən yerinə yetirilməli olduğunu müəyyən etməlidir.

**Sonrakı hadisələr**

49. 560 saylı BAS-ın[28] tələblərinə uyğun olaraq, qrup auditoru qrup maliyyə hesabatlarında düzəlişlərin edilməsini və ya məlumatların açıqlanmasını tələb edə biləcək hadisələri müəyyən etmək üçün nəzərdə tutulmuş prosedurların yerinə yetirilməsi, o cümlədən müvafiq hallarda, bölmə auditorlarından bu cür prosedurları yerinə yetirmələrini tələb etməyə görə məsuliyyət daşımalıdır. (İst: Paraq. A150)

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

50. Qrup auditoru, bölmə auditorlarından tələb etməlidir ki, qrup maliyyə hesabatlarında düzəlişlərin edilməsini və ya məlumatların açıqlanmasını tələb edə biləcək sonrakı hadisələrdən xəbərdar olduqları halda qrup auditoruna xəbər versinlər. (İst: Paraq. A150)

**Əldə edilmiş audit sübutlarının yetərliliyinin və müvafiqliyinin qiymətləndirilməsi**

51. 330 saylı BAS-ın [29] tələblərinə uyğun olaraq, qrup auditoru yerinə yetirilən audit prosedurlarından, o cümlədən bölmə auditorlarının yerinə yetirdiyi işlərdən qrup auditorlarının rəyini əsaslandırmaq üçün yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini qiymətləndirməlidir. (İst: Paraq. A151–A155)

52. Qrupun tapşırıq üzrə tərəfdaşı hər hansı aradan qaldırılmayan təhriflərin (qrup auditoru tərəfindən müəyyən edilmiş və ya bölmə auditorları tərəfindən bildirilmiş) və yetərli müvafiq audit sübutlarının əldə edilməsi mümkün olmadığı halların qrup auditorunun rəyinə təsirini qiymətləndirməlidir. (İst:

[28] 560 saylı "Sonrakı hadisələr" BAS, 6–7-ci paraqraflar

[29] 330 saylı BAS, 26-cı paraqraf

Paraq. A156)

## Auditor hesabatı

53. Qrup maliyyə hesabatları üzrə auditor hesabatında, qanun və ya qaydalarla belə istinadın daxil edilməsi tələb edilmədiyi halda, bölmə auditoruna istinad edilməməlidir. Əgər belə bir istinad qanun və ya qaydalarla tələb olunarsa, auditor hesabatında qeyd edilməlidir ki, bu istinad qrupun tapşırıq üzrə tərəfdaşının və ya qrupun tapşırıq üzrə tərəfdaşı işlədiyi şirkətin qrup auditorunun rəyinə görə məsuliyyətini azaltmır. (İst: Paraq. A157–A158)

## Qrup rəhbərliyi və idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi

*Qrup rəhbərliyi ilə məlumat mübadiləsi*

54. Qrup auditoru auditin planlaşdırılmış həcmi və müddəti, o cümlədən qrupun bölmələrində görüləcək işlərin icmalı barədə qrup rəhbərliyinə məlumat verməlidir. (İst: Paraq. A159)

55. Qrup auditoru tərəfindən dələduzluq faktları müəyyən edildiyi və ya belə faktlar barədə ona bölmə auditoru tərəfindən məlumat çatdırıldığı halda (bax: 45(h) paraqrafı), yaxud məlumatlardan dələduzluğun mümkünlüyü bilindiyi halda, bu zaman dələduzluq hallarının qarşısının alınması və aşkarlanması üçün əsas məsuliyyət daşıyan şəxsləri məsuliyyətlərinə aid olan məsələlər barədə məlumatlandırmaq məqsədilə qrup auditoru bu barədə vaxtında qrupun müvafiq səviyyəli rəhbərliyinə məlumat verməlidir. (İst: Paraq. A160)

56. Bölmə auditorundan qanun, qayda və ya digər əsaslara görə qrupun bir hissəsini təşkil edən müəssisə və ya struktur vahidlərinin maliyyə hesabatları üzrə auditor rəyi bildirməsi tələb oluna bilər. Bu halda, qrup auditoru qrup rəhbərliyindən tələb edə bilər ki, qrup auditoruna məlum olan və müəssisə və ya struktur vahidinin maliyyə hesabatları üçün əhəmiyyət kəsb edə bilən, lakin müəssisə və ya struktur vahidinin rəhbərliyinə məlum olmayan hər hansı məsələni müəssisə və ya struktur vahidinin rəhbərliyinə bildirsin. Əgər qrup rəhbərliyi bu məsələni müəssisə və ya struktur vahidinin rəhbərliyinə bildirməkdən imtina edərsə, bu zaman qrup auditoru bu məsələni qrupun idarəetməyə məsul şəxsləri ilə müzakirə etməlidir. Əgər məsələ hələ də həll edilməmiş qalarsa, qrup auditoru hüquqi və peşəkar məxfilik tələbləri nəzərə alınmaqla, məsələ həll edilməyənə qədər müəssisənin və ya struktur vahidinin maliyyə hesabatları üzrə auditor hesabatını təqdim etməməyi bölmə auditoruna tövsiyə edib-etməməyi nəzərdən keçirməlidir. (İst: Paraq. A161–A162)

*Qrupun idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi*

57. 260 saylı (düzəliş edilmiş) BAS-da[30] və digər BAS-larda nəzərdə tutulmuş məsələlərdən əlavə, qrup auditoru qrupun idarəetməyə məsul şəxslərinə aşağıdakı məsələləri bildirməlidir: (İst: Paraq. A163)

    (a) qrupun tərkibindəki bölmələrində yerinə yetiriləcək işlərin icmalı və bölmə auditorları tərəfindən yerinə yetiriləcək işdə qrup auditorunun planlaşdırılmış iştirakının xüsusiyyəti; (İst: Paraq. A164)

    (b) bölmə auditorunun işinin qrup auditoru tərəfindən təhlil edilməsi nəticəsində həmin bölmə auditorunun işinin keyfiyyətinə dair şübhə yarandığı hallar və bu şübhə ilə bağlı qrup auditoru tərəfindən görülən tədbirlər;

    (c) qrup auditinin əhatə dairəsinə dair hər hansı məhdudiyyətlər, məsələn, əməkdaşlara və ya

---

[30] 260 saylı (düzəliş edilmiş) "İdarəetməyə məsul şəxslərlə əlaqə" BAS

məlumatlara çıxış məhdudiyyətləri ilə bağlı əhəmiyyətli məsələlər;

(d) dələduzluq halları maliyyə hesabatlarında əhəmiyyətli təhriflərlə nəticələndikdə, qrup rəhbərliyi, bölmə rəhbərliyi, qrupun daxili nəzarət sistemində vacib funksiyaları yerinə yetirən işçilərin və ya digər şəxslərin iştirakı ilə faktiki və ya ehtimal edilən dələduzluq halları.

*Daxili nəzarətdə aşkar edilmiş çatışmazlıqlar barədə məlumat mübadiləsi*

58. 265 saylı BAS-ın[31] tələblərinə uyğun olaraq, qrup auditoru qrupun daxili nəzarət sistemində aşkar edilmiş hər hansı çatışmazlıqların qrupun idarəetməyə məsul şəxslərinə və ya qrup rəhbərliyinə bildirilməsinin tələb edilib-edilmədiyini müəyyən etməlidir. Bu qərarı verərkən qrup auditoru bölmə auditorları tərəfindən müəyyən edilmiş və 45(g) paraqrafına uyğun olaraq qrup auditoruna bildirilmiş daxili nəzarətdə olan çatışmazlıqları nəzərdən keçirməlidir. (İst: Paraq. A165)

## Sənədləşdirilmə

59. 230 saylı BAS-ın[32] tələblərinə uyğun olaraq, qrupun audit tapşırığı üçün audit sənədləşdirilməsi bu auditlə əvvəllər heç bir əlaqəsi olmayan təcrübəli auditorun yerinə yetirilən audit prosedurlarının xüsusiyyəti, müddəti və həcmi, əldə edilmiş sübutlar və qrup auditi aparılarkən ortaya çıxan əhəmiyyətli məsələlərlə bağlı əldə edilmiş nəticələr barədə anlayış əldə edə bilməsi üçün yetərli olmalıdır. 230 saylı BAS-ın[33] tələblərinə uyğun olaraq, qrup auditoru audit sənədləşdirilməsinə aşağıdakıları daxil etməlidir: (İst: Paraq. A166–A169, A179–A182)

(a) Tapşırığı qəbul etmək və ya davam etdirmək barədə qərar verməzdən əvvəl nəzərdən keçirilmiş və ya qəbul və ya tapşırığı qəbul etdikdən və davam etdirdikdən sonra ortaya çıxan qrup daxilində əməkdaşlara və ya məlumatlara çıxış məhdudiyyətləri ilə bağlı əhəmiyyətli məsələlər və bu cür məsələlərin necə həll edildiyi.

(b) Qrup auditinin planlaşdırılması və yerinə yetirilməsi məqsədilə qrup auditoru tərəfindən bölmələrin müəyyən edilməsi üçün əsas. (İst: Paraq. A170)

(c) Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik səviyyəsinin müəyyən edilməsi üçün əsas və qrup auditoruna məlumat vermək üçün bölmənin maliyyə məlumatlarındakı təhriflərin son həddi.

(d) bölmə auditorlarının bölmələrdə müəyyən edilmiş audit prosedurlarını yerinə yetirmək üçün yetərli vaxt da daxil olmaqla, müvafiq səriştə və bacarıqlara malik olduğunu qrup auditorunun müəyyən etməsi üçün əsas. (İst: Paraq. A171)

(e) 30(c) paraqrafına uyğun olaraq qrupun daxili nəzarət sistemi barədə anlayışın əldə edilməsinin əsas elementləri;

(f) Qrup auditoru tərəfindən bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsinin, habelə onların işinin təhlil edilməsinin, o cümlədən, müvafiq hallarda, 47-ci paraqrafa uyğun olaraq, bölmə auditorunun əlavə audit sənədləşdirilməsinin qrup auditoru tərəfindən təhlilinin xüsusiyyəti, müddəti və həcmi. (İst: Paraq. A172–A178)

(g) Bölmə auditorları ilə məlumat mübadiləsinə aid olan məsələlər, o cümlədən:

---

[31] 265 saylı "Daxili nəzarətlə bağlı çatışmazlıqların idarəetməyə məsul şəxslərə və rəhbərliyə bildirilməsi" BAS

[32] 230 saylı BAS, 8-ci paraqraf

[33] 230 saylı BAS, 1–3-cü, 9–11-ci paraqraflar, A6–A7 paraqraflalrı və Əlavə

(i) Əgər varsa, 32-ci paraqrafa uyğun olaraq məlumat verilmiş dələduzluq, əlaqəli tərəflər və ya müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə bağlı məsələlər.

(ii) Qrup auditorunun 45-ci paraqrafa uyğun olaraq qrup auditi ilə bağlı rəyinə aid olan məsələlər, o cümlədən bölmə auditorları, bölmə rəhbərliyi və ya qrup rəhbərliyi ilə müzakirə edilən mühüm məsələlərin qrup auditoru tərəfindən necə həll edilməsi.

(h) Qrup maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə biləcək məsələlər haqqında bölmə auditorlarının nəticələrinin və ya qənaətlərinin qrup auditoru tərəfindən dəyərləndirilməsi və onlarla bağlı görülən cavab tədbirləri.

* * *

## Praktiki tətbiq və digər izahedici materiallar

**Bu BAS-ın əhatə dairəsi** (İst: Paraq. 1–2)

A1. Bu BAS həmçinin, 220 saylı (düzəliş edilmiş) BAS-da qeyd edilən tələblərin və təlimatların, o cümlədən bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsi və onların işlərinin təhlil edilməsi üçün olanların tətbiq edilməsinə qrupun tapşırıq üzrə tərəfdaşı və ya qrup auditoru üçün xüsusi mülahizələr əhatə edilir.

A2. 1 saylı BKİS[34] tapşırığın keyfiyyətinin təhlil edilməsi tələb olunan tapşırıqları əhatə edir. 2 saylı BKİS[35] tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin edilməsi və uyğunluğunu, habelə qrup auditi üçün də daxil olmaqla, tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi və sənədləşdirilməsi ilə bağlı tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin məsuliyyətlərini əhatə edir.

A3. Müəssisə və ya qrupun struktur vahidi həmçinin əhatə etdiyi müəssisə və ya struktur vahidlərinin (yəni, alt qrup) maliyyə məlumatlarını daxil edən öz qrupun maliyyə hesabatlarını hazırlaya bilər. Bu BAS qanun və qaydaların tələblərinə riayət etmək üçün və ya digər səbəblərə görə aparılan bu cür alt qrupların qrup maliyyə hesabatlarının auditinə şamil olunur.

A4. Tək hüquqi şəxs birdən çox struktur vahidləri ilə təşkil oluna bilər, məsələn, bir neçə filialı olan bank kimi bir neçə yerdə fəaliyyət göstərən şirkət. Bu cür struktur vahidləri ayrı-ayrı yerlər, ayrıca rəhbərlik və ya ayrıca informasiya sistemləri (o cümlədən ayrıca baş kitab) kimi xüsusiyyətlərə malik olduqda və maliyyə məlumatları tək hüquqi şəxsin maliyyə hesabatlarının hazırlanması zamanı cəmləndikdə, belə maliyyə hesabatları qrup maliyyə hesabatlarının anlayışına cavab verir, çünki onlar konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatlarını ehtiva edir.

A5. Bəzi hallarda, tək hüquqi şəxs qanun və ya qaydaların tələblərinə uyğun hesabatvermə və ya digər idarəetmə məqsədləri üçün birdən çox məhsul və ya xidmət xətti üzrə maliyyə məlumatlarını toplamaq üçün öz məlumat sistemini konfiqurasiya edə bilər. Bu şəraitdə müəssisənin maliyyə hesabatları qrup maliyyə hesabatları deyil, çünki konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatları cəmlənmir. Bundan əlavə, qanun və ya qaydaların tələblərinə uyğun hesabatvermə və ya digər idarəetmə məqsədləri üçün ayrıca məlumatların (məsələn, köməkçi kitabda) toplanması bu BAS-ın məqsədləri üçün ayrıca

[34] 1 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditini və təhlilini, yaxud digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" Beynəlxalq keyfiyyətin idarə edilməsi standartı (BKİS)

[35] 2 saylı "Tapşırığın keyfiyyətinin təhlili" BKİS

müəssisələr və ya struktur vahidləri (məsələn, bölmələr) yaratmır.

*Qruplar və bölmələr* (İst: Paraq. 4–5)

A6. Qrupun məlumat sistemi, o cümlədən onun maliyyə hesabatlılığı prosesi qrupun təşkilati strukturu ilə uyğunlaşdırıla və ya uyğunlaşdırılmaya bilər. Məsələn, qrup hüquqi strukturuna görə təşkil oluna bilər, lakin onun informasiya sistemi funksiya, proses, məhsul və ya xidmət (yaxud məhsul və ya xidmət qrupları üzrə), yaxud idarəetmə və ya hesabatvermə məqsədləri üçün coğrafi mövqe üzrə təşkil oluna bilər.

A7. Qrupun təşkilati strukturu və informasiya sistemi haqqında əldə edilmiş anlayış əsasında qrup auditoru müəyyən edə bilər ki, müəyyən müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatları audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsi məqsədilə birlikdə nəzərdən keçirilə bilər. Məsələn, bir qrupda eyni coğrafi mövqedə, eyni rəhbərlik altında fəaliyyət göstərən və ümumi daxili nəzarət sistemindən, o cümlədən informasiya sistemindən istifadə edən oxşar biznes xüsusiyyətlərinə malik üç hüquqi şəxs ola bilər. Bu şəraitdə qrup auditoru bu üç hüquqi şəxsi bir bölmə kimi nəzərə almağa qərar verə bilər.

A8. Qrup həmçinin qrup daxilində birdən çox müəssisə və ya struktur vahidinə şamil olunan fəaliyyət və ya prosesləri, məsələn, ortaq xidmət mərkəzindən istifadə etməklə mərkəzləşdirə bilər. Bu cür mərkəzləşdirilmiş fəaliyyətlər qrup maliyyə hesabatlılığı prosesinə aid olduqda, qrup auditoru ortaq xidmət mərkəzinin bir bölmə olduğunu müəyyən edə bilər.

A9. Qrup auditoru tərəfindən bölmələrin müəyyən edilməsinə aid ola biləcək başqa bir mülahizə, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin açıqlama tələblərinə uyğun olaraq rəhbərliyin əməliyyat seqmentlərini necə müəyyən etməsidir.[36]

*Bölmə auditorlarının iş cəlb edilməsi* (İst: Paraq. 7–8)

A10. Bölmə auditorları qanun və qaydaların tələblərinə riayət etmək üçün və ya digər səbəblərə görə, xüsusən də bölmə hüquqi şəxs olduqda, bölmənin maliyyə hesabatlarının auditini apara bilər. Bölmə auditoru həm də bölmənin maliyyə hesabatlarının auditini apardıqda və ya tamamladıqda, qrup auditoru bu işin qrup auditinin məqsədlərinə uyğun olduğuna əmin olduqda, qrup auditoru bölmənin maliyyə hesabatları üzərində aparılan audit işindən istifadə edə bilər. Bundan əlavə, bölmə auditorları qrup auditorunun tələbatlarına cavab vermək üçün bölmənin maliyyə hesabatlarının auditi üzrə aparılan işi uyğunlaşdıra bilərlər. İstənilən halda, bu BAS-ın tələbləri, o cümlədən bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsi ilə bağlı tələblər tətbiq edilir.

A11. 220 saylı (düzəliş edilmiş) BAS-a[37] uyğun olaraq, tapşırıq üzrə tərəfdaşdan tələb olunur ki, rəhbərlik, nəzarət və təhlilə olan yanaşmanın audit tapşırığının xüsusiyyəti və şəraitlərinə uyğun olduğunu müəyyən etsin. A76 paraqrafında qrupun tapşırıq üzrə tərəfdaşının bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsinə görə məsuliyyəti öz üzərinə götürə biləcəyi müxtəlif üsullara dair nümunələr verilir və qrup auditoru bölmənin maliyyə hesabatlarının auditi çərçivəsində yerinə yetirilib tamamlanmış audit işindən istifadə etməyi planlaşdırdığı hallarda məqsədəuyğun ola bilər.

---

36 bax: məsələn, 8 saylı "Əməliyyat seqmentləri" Maliyyə hesabatlarının beynəlxalq standartları (IFRS)

37 220 saylı (düzəliş edilmiş) BAS, 30(b) paraqrafı

A12. 200 saylı BAS-da[38] izah olunduğu kimi, aşkarlamama riski audit riskini məqbul aşağı səviyyəyə endirmək üçün auditor tərəfindən müəyyən edilən auditor prosedurlarının xüsusiyyəti, müddəti və həcmi ilə əlaqəlidir. Aşkarlamama riski təkcə audit prosedurunun effektivliyindən deyil, həm də həmin prosedurun auditor tərəfindən tətbiq edilməsindən asılıdır. Beləliklə, aşkarlamama riskinə müvafiq planlaşdırma, tapşırıq üçün müvafiq resursların ayrılması, peşəkar inamsızlığın tətbiq edilməsi və yerinə yetirilən audit işinə nəzarət və təhlil edilməsi kimi məsələlər təsir edir.

A13. Aşkarlamama riski 14(a) və A19 paraqraflarında təsvir olunduğu kimi təhriflərin aqreqasiya riskindən daha geniş anlayışdır. Qrup auditində aradan qaldırılmayan və aşkar edilməyən təhriflər məcmusunun bütövlükdə qrup maliyyə hesabatları üçün əhəmiyyətlilikdən artıq olma ehtimalı daha yüksək ola bilər, çünki audit prosedurları qrup daxilində bölmələrin maliyyə məlumatları üzərində ayrılıqda yerinə yetirilə bilər. Müvafiq olaraq, təhriflərin aqreqasiya riskini məqbul olan aşağı səviyyəyə endirmək üçün bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik qrup auditoru tərəfindən təyin edilir.

*Peşəkar inamsızlıq* (İst: Paraq. 9)

A14. 220 saylı (düzəliş edilmiş) BAS-da[39] audit prosedurlarının tərtib edilməsi və yerinə yetirilməsi, habelə audit sübutlarının qiymətləndirilməsi zamanı auditorun düşünülməmiş qərəzli yanaşması də daxil olmaqla, tapşırıq səviyyəsində peşəkar inamsızlığın tətbiq edilməsinə mane ola biləcək amillərin nümunələri təqdim olunur. 220 saylı (düzəliş edilmiş) BAS-da həmçinin tapşırıq səviyyəsində peşəkar inamsızlığın tətbiq edilməsinə mane olan amilləri azaltmaq üçün tapşırıq qrupunun görə biləcəyi mümkün tədbirlər təqdim olunur.

A15. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS,[40] 540 (düzəliş edilmiş) BAS-da[41] və digər BAS-larda qeyd edilən tələblər və müvafiq praktik tətbiq materialları peşəkar inamsızlığın tətbiq edilməsindən bəhs edir və sənədləşdirilmənin auditorun peşəkar inamsızlığın tətbiq etməsinə dair sübutları təmin etməyə necə kömək edə biləcəyinə dair nümunələr ehtiva edir.

A16. Tapşırıq qrupunun bütün üzvlərindən qrup auditi aparılarkən peşəkar inamsızlıq tətbiq etmələri tələb olunur. Qrup auditoru tərəfindən tapşırıq qrupu üzvlərinə, o cümlədən bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsi tapşırıq qrupunun lazımi şəkildə peşəkar inamsızlıq tətbiq edib-etmədiyi barədə qrup auditoruna məlumat verə bilər.

A17. Qrup auditində peşəkar inamsızlığın tətbiq edilməsinə aşağıdakı kimi məsələlər təsir göstərə bilər:

- fərqli məkanlarda olan bölmə auditorları müxtəlif mədəniyyətlərin təsirlinə məruz qala bilərlər ki, bu da onların məruz qaldıqları qeyri-obyektivliyinin xüsusiyyətinə təsir göstərə bilər;
- bəzi qrupların mürəkkəb strukturlarında əhəmiyyətli təhrif risklərinə meylliliyin artmasına səbəb olan amillər təsir göstərməyə başlayır. Bundan əlavə, həddindən artıq mürəkkəb təşkilati struktur 240 saylı BAS-a[42] uyğun olaraq dələduzluq riski amilini təşkil edə bilər və buna görə də müəyyən müəssisələrin və ya struktur vahidlərinin biznes məqsədini və fəaliyyətini öyrənmək üçün əlavə vaxt və ya təcrübə tələb edilə bilər;

[38] 200 saylı BAS, A45 paraqrafı

[39] 220 saylı (düzəliş edilmiş) BAS, A34–A36 paraqrafları

[40] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, A238 paraqrafı

[41] 540 saylı (düzəliş edilmiş) “Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” BAS, A11 paraqrafı

[42] 240 saylı “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” BAS

- qrupdaxili əməliyyatların (məs., qrup daxilində bir neçə müəssisə və struktur bölməsinin və ya çoxsaylı əlaqəli tərəflərin iştirak etdikləri əməliyyatlar), pul vəsaitlərinin hərəkətinin və ya transfer qiymətləri üzrə razılaşmaların xüsusiyyəti və həcmi əlavə mürəkkəbliklərə səbəb ola bilər. Bəzi hallarda belə məsələlər dələduzluq riski amillərinin yaranmasına səbəb ola bilər;
- qrup auditi üçün qrup rəhbərliyi tərəfindən qısa hesabatvermə müddətləri müəyyən edildikdə, bu, tapşırılan işi tamamlayan zaman tapşırıq qrupunun üzvlərinə təzyiq göstərə bilər. Bu şəraitdə rəhbərliyin təsdiqləmələrini lazımi qaydada sorğulamaq, müvafiq mühakimələr yürütmək və ya yerinə yetirilən audit işini müvafiq qaydada təhlil etmək üçün tapşırıq qrupuna əlavə vaxt lazım ola bilər.

A18. Qrup auditoru tərəfindən peşəkar inamsızlığın tətbiq edilməsi qrup maliyyə hesabatları üçün əhəmiyyətli ola biləcək məsələlərlə bağlı bölmə auditorlarından, bölmə rəhbərliyindən və qrup rəhbərliyindən əldə edilən məlumatlarda uyğunsuzluqların olmasına qarşı diqqətli olmanı əhatə edir.

**Anlayışlar**

*Təhriflərin aqreqasiya riski* (İst: Paraq. 14(a))

A19. Təhriflərin aqreqasiya riski maliyyə hesabatlarının bütün auditlərində mövcuddur, lakin onu qrup auditində öyrənmək və onunla bağlı tədbir görmək xüsusilə vacibdir, çünki audit prosedurlarının bölmələr üzrə bölünmüş əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalara dair yerinə yetirilmə ehtimalı daha yüksəkdir. Ümumiyyətlə, audit prosedurlarının istər bölmə auditorları, istərsə də tapşırıq qrupunun digər üzvləri tərəfindən ayrılıqda yerinə yetirildiyi bölmələrin sayı artdıqca təhriflərin aqreqasiya riski də artır.

*Bölmə (*İst: Paraq. 14(b))

A20. Qrup auditoru audit işinin yerinə yetiriləcəyi bölmələri müəyyən edərkən peşəkar mühakimə yürüdür. A7 paraqrafında izah edilir ki, müəyyən müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatları audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsi məqsədilə birlikdə nəzərdən keçirilə bilər. Bununla belə, qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üzrə qrup auditorunun məsuliyyəti maliyyə məlumatları qrup maliyyə hesabatlarına daxil edilmiş bütün müəssisə və struktur vahidlərini əhatə edir.

*Bölmə auditoru* (İst: Paraq. 14(c))

A21. Bu BAS-da tapşırıq qrupuna edilən istinadlar qrup auditoru və bölmə auditorlarını ehtiva edir. Bölmə auditorları şəbəkə şirkətindən, şəbəkə şirkəti olmayan şirkətdən və ya qrup auditoru işlədiyi şirkətdən (məs., qrup auditoru işlədiyi şirkətdəki başqa ofis) ola bilər.

A22. Bəzi şəraitlərdə qrup auditoru əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaların mərkəzləşdirilmiş şəkildə test edə bilər, yaxud bölmə ilə bağlı audit prosedurlarını yerinə yetirə bilər. Bu şəraitdə qrup auditoru bölmə auditoru hesab edilmir.

A23. 24-cü paraqrafa uyğun olaraq qrup auditoru bölmə auditorundan tələb etməlidir ki, o, bölmə auditorunun qrup auditoru ilə əməkdaşlıq edəcəyini, o cümlədən bölmə auditorunun qrup auditorunun tələb etdiyi işi yerinə yetirib-yetirməyəcəyini təsdiq etsin. A58 paraqrafında bölmə auditorunun belə bir təsdiqi təmin edə bilmədiyi hallar üçün təlimat təqdim olunur.

*Bölmə rəhbərliyi* (İst: Paraq. 14(d))

A24. Bölmə rəhbərliyi dedikdə, qrupun bir hissəsi olan müəssisə və ya struktur vahidində maliyyə məlumatlarına və ya digər fəaliyyətə (məs., ortaq xidmət mərkəzində əməliyyatların işlənməsi) görə məsuliyyət daşıyan rəhbərlik nəzərdə tutulur. Qrup auditoru bölmə kimi birlikdə müəyyən müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarını nəzərdən keçirdikdə və ya ortaq xidmət mərkəzinin bölmə olduğunu müəyyən etdikdə (bax: A7–A8 paraqrafları), bölmə rəhbərliyi dedikdə, həmin bölmə ilə bağlı yerinə yetirilən audit prosedurlarının tətbiq olunduğu maliyyə məlumatlarının və ya əməliyyatların işlənməsinə görə məsuliyyət daşıyan rəhbərlik nəzərdə tutulur. Bəzi şəraitlərdə, ayrıca bölmə rəhbərliyi olmaya bilər və bölmənin maliyyə məlumatları və ya digər fəaliyyətlərinə görə məsuliyyəti birbaşa qrup rəhbərliyi daşıya bilər.

*Qrupun tapşırıq üzrə tərəfdaşı* (İst: Paraq. 14(j))

A25. Birgə auditorlar qrup auditini apardıqda, tapşırıq üzrə birgə tərəfdaşlar və onların tapşırıq qrupları BAS-ların məqsədləri üçün kollektiv şəkildə "qrupun tapşırıq üzrə tərəfdaş"ını və "tapşırıq qrupu"nu təşkil edirlər. Bununla belə, bu BAS birgə auditorlar arasındakı münasibətlərə və ya qrup auditinin məqsədləri üçün birgə auditorun birinin digər birgə auditorun işi ilə əlaqədar yerinə yetirdiyi işə aid deyil.

*Qrup maliyyə hesabatları* (İst: Paraq. 2, 14(k))

A26. Qrup maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsinə dair tələblər müvafiq maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində müəyyən edilə bilər ki, bu da qrup maliyyə hesabatlarına daxil ediləcək müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarının müəyyən edilməsinə təsir göstərə bilər. Məsələn, bəzi çərçivələr müəssisə (ana müəssisə) bir və ya bir neçə digər müəssisəyə (məs., törəmə müəssisələrə) özünə məxsus olan nəzarət paketi vasitəsilə və ya digər vasitələrlə nəzarət etdikdə, konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasını tələb edir. Bəzi hallarda, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri birləşdirilmiş maliyyə hesabatlarının təqdim edilməsi üçün ayrıca tələbləri ehtiva edir və ya buna başqa cür icazə verə bilər. Birləşdirilmiş maliyyə hesabatlarının təqdim edilməsinə icazə verilə bilən şəraitlərə misal olaraq ana müəssisəsi olmayan, lakin ümumi nəzarət altında olan və ya ümumi rəhbərliyi olan müəssisələri göstərmək olar.

A27. Bu BAS-da istifadə edilən "konsolidasiya prosesi" termininin maliyyə hesabatlarının çərçivələrində müəyyən edildiyi və ya təsvir edildiyi kimi "konsolidasiya" və ya "konsolidə edilmiş maliyyə hesabatları" ilə eyni məna daşıması nəzərdə tutulmur. Əksinə, "konsolidasiya prosesi" termini daha geniş mənada qrup maliyyə hesabatlarının hazırlanması üçün istifadə olunan prosesə aiddir.

A28. Konsolidasiya prosesinin təfərrüatlı aspektləri qrupun strukturundan və məlumat sistemindən, o cümlədən maliyyə hesabatlılığı prosesindən asılı olaraq müxtəlif qruplarda fərqlidir. Bununla belə, konsolidasiya prosesi qrupdaxili əməliyyatların və qalıqların, habelə müvafiq hallarda qrup maliyyə hesabatlarına daxil edilmiş müəssisələr və ya struktur vahidləri üçün müxtəlif hesabatvermə dövrlərinin tətbiq edilməsinin nəticələrinin aradan qaldırılması kimi mülahizələri əhatə edir.

**Qrup auditində keyfiyyətin idarə edilməsi və təmin edilməsi üzrə rəhbərliyin məsuliyyətləri**
(İst: Paraq. 11, 16)

A29. Qrup tapşırığı üzrə tərəfdaşın təkbaşına 220 saylı (düzəliş edilmiş) BAS-ın bütün tələblərinə riayət edilməni təmin etməsi, xüsusən tapşırıq qrupu bir neçə məkanda yerləşən çoxlu sayda bölmə

auditorunu əhatə etdikdə mümkün olmaya və ya praktiki baxımdan yerinə yetirilməyə bilər. Tapşırıq səviyyəsində keyfiyyəti idarə edərkən 220 saylı (düzəliş edilmiş) BAS-a[43] uyğun olaraq, tapşırıq üzrə tərəfdaşa icazə verilir ki, tapşırıq üzrə tərəfdaşa kömək etmək məqsədilə prosedurların, tapşırıqların və ya tədbirlərin işlənib hazırlanmasını və ya yerinə yetirilməsini tapşırıq qrupunun digər üzvlərinə tapşırsın. Müvafiq olaraq, qrupun tapşırıq üzrə tərəfdaşı prosedurlar, tapşırıqlar və ya tədbirləri tapşırıq qrupunun digər üzvlərinə tapşıra bilər və bu üzvlər prosedurları, tapşırıqları və ya tədbirləri başqalarına tapşıra bilər. Belə şəraitdə 220 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq, tapşırıq üzrə tərəfdaş audit tapşırığının idarə edilməsi və keyfiyyətə nail olunması üçün ümumi məsuliyyəti daşımağa davam etdirməlidir.

A30. Qrup auditoru ilə bölmə auditorları arasında məlumat mübadiləsini təmin etməklə və qrup auditorları tərəfindən həmin bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsini və onların işinin təhlil edilməsini dəstəkləməklə, şirkət tərəfindən müəyyən edilmiş və ya ümumi şəbəkə tələbləri və ya şəbəkə xidmətləri[44] olan siyasət və ya prosedurlar qrupun tapşırıq üzrə tərəfdaşını dəstəkləyə bilər.

A31. 220 saylı (düzəliş edilmiş) BAS-da[45] izah edilir ki, izah edir ki, keyfiyyətə sadiqlik nümayiş etdirən mədəniyyət tapşırığı yerinə yetirərkən gözlənilən davranışları nümayiş etdirən tapşırıq qrupunun üzvləri tərəfindən formalaşdırılır və gücləndirilir. 16(a) paraqrafda qeyd edilən tələbə riayət etmək məqsədilə qrupun tapşırıq üzrə tərəfdaşı birbaşa tapşırıq qrupunun digər üzvlərinə (o cümlədən bölmə auditorlarına) məlumat verə və şəxsi davranış və hərəkətləri ilə (məs., nümunə göstərməklə) bu məlumat mübadiləsini gücləndirə bilər.

**Müştəri qəbulu və davamlılığı**

*Yetərli və müvafiq audit sübutlarının əldə edilməsinin gözlənilə biləcəyinin ağlabatan olub-olmamasının müəyyən edilməsi* (İst: Paraq. 17–18)

A32. Yetərli müvafiq audit sübutlarının əldə edilməsinin gözlənilə biləcəyinin ağlabatan olub-olmadığını müəyyən edərkən, qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakı kimi məsələlər barədə anlayış əldə edə bilər:

- qrupun strukturu, o cümlədən hüquqi və təşkilati forması;
- qrup üçün əhəmiyyətli olan fəaliyyət növləri, o cümlədən fəaliyyət sahəsinin və həmin fəaliyyətin həyata keçirildiyi normativ hüquqi, iqtisadi və siyasi mühitlər;
- xidmət göstərən təşkilatlardan istifadə edilməsi;
- ortaq xidmət mərkəzlərindən istifadə edilməsi;
- konsolidasiya prosesi:
- qrup auditorunun aşağıdakı şərtlərə cavab verib-verməməsi:
    - qrupun idarəetməyə məsul şəxslərinə, qrup rəhbərliyinə, bölmənin idarəetməyə məsul şəxslərinə, bölmə rəhbərliyinə və bölmənin məlumatlarına, o cümlədən iştirak payı metodu ilə uçota alınan bölmələrə məhdudiyyətsiz çıxış imkanına malik olacaq; habelə

[43] 220 saylı (düzəliş edilmiş) BAS, 15-ci paraqraf

[44] 1 saylı BKİS, 48-52-ci paraqraflar

[45] 220 saylı (düzəliş edilmiş) BAS, A28 paraqrafı

  - müvafiq olduqda, bölmələrin maliyyə məlumatları ilə bağlı lazımi işləri yerinə yetirə biləcək;

- yetərli və müvafiq resursların ayrılıb-ayrılmaması və ya təmin ediləcəyi.

A33. Qrupun ilkin audit tapşırığı olduğu halda, qrup auditorunun A32 paraqrafında qeyd edilən məsələlərlə bağlı anlayışı aşağıdakılardan əldə edilə bilər:

- qrup rəhbərliyi tərəfindən verilən məlumatlar;
- qrup rəhbərliyi ilə məlumat mübadiləsi;
- qrupun idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi; habelə
- müvafiq hallarda, bölmə auditoru və ya əvvəlki auditor ilə məlumat mübadiləsi.

A34. Təkrarlanan tapşırıqda yetərli müvafiq audit sübutlarını əldə etmək qabiliyyətinə əhəmiyyətli dəyişikliklər təsir edə bilər, məsələn:

- qrupun strukturu (məs., satınalmalar, xaricolmalar, birgə müəssisələr, struktur dəyişiklikləri və ya qrupun maliyyə hesabatlılığı sisteminin təşkili ilə bağlı dəyişikliklər);
- qrup üçün əhəmiyyət kəsb edən bölmələrin fəaliyyəti;
- qrupun idarəetməyə məsul şəxslərinin, qrup rəhbərliyinin və ya audit prosedurlarının yerinə yetirilməsi nəzərdə tutulan bölmələrin əsas rəhbərliyinin tərkibi;
- qrup auditorunun qrup və ya bölmə rəhbərliyinin dürüstlüyü və səriştəliliyi barədə anlayışı;
- maliyyə hesabatlarının tətbiq olunan çərçivələri.

A35. Bölmələr qrup auditorunun yurisdiksiyasında yerləşmədikdə mədəniyyət və dil fərqləri və qanun və ya qaydaların müxtəlif olduğuna görə qrup auditində yetərli müvafiq audit sübutlarının əldə edilməsi ilə bağlı əlavə çətinliklər ola bilər. Məsələn, qanun və ya qaydalarla bölmə auditorunun öz yurisdiksiyasından kənara sənədlərin göndərilməsi məhdudlaşdırıla bilər, yaxud müharibə, vətəndaş iğtişaşları və ya epidemiyalar nəticəsində qrup auditorunun müvafiq bölmə auditorunun audit sənədlərinə çıxışı məhdudlaşdırıla bilər. A180 paraqrafında bu vəziyyətlər ilə bağlı görülə biləcək mümkün tədbirlər ehtiva edilmişdir.

A36. Qrupun tapşırıq üzrə tərəfdaşı qrupun audit tapşırığını qəbul etdikdən sonra məhdudiyyətlər qoyula bilər ki, bu da tapşırıq qrupunun yetərli müvafiq audit sübutları əldə etmək qabiliyyətinə təsir edə bilər. Bu cür məhdudiyyətlər aşağıdakılara təsir edənləri əhatə edə bilər:

- qrup auditorunun bölmənin məlumatlarına, bölmələrin rəhbərliyinə və ya idarəetməyə məsul şəxslərinə, yaxud bölmə auditorlarına (o cümlədən qrup auditorunun tələb etdiyi müvafiq audit sənədləşdirilməsinə) çıxışı (bax: 20 və 21-ci paraqraflar); yaxud
- bölmələrin maliyyə məlumatları ilə bağlı görüləcək iş.

A45–A46 paraqraflarında bu cür məhdudiyyətlərin qrup maliyyə hesabatları üzrə auditor hesabatına mümkün təsiri izah olunur.

*Audit tapşırıqlarının şərtlərinin razılaşdırılması* (İst: Paraq. 19)

A37. 210 saylı BAS-ın[46] tələblərinə uyğun olaraq, auditor audit tapşırığının şərtlərini rəhbərlik və ya müvafiq hallarda, idarəetməyə məsul şəxslər ilə razılaşdırmalıdır. Tapşırığın şərtlərində maliyyə hesabatlarını tətbiq olunan çərçivələri müəyyən edilir. Qrupun audit tapşırığının şərtlərinə daxil edilə biləcək əlavə məsələlərə aşağıdakılar daxildir:

- qrup auditoru ilə bölmə auditorları arasında məlumat mübadiləsi qanun və ya qaydalara uyğun olaraq mümkün qədər məhdudiyyətsiz olmalıdır;
- bölmə auditorları ilə bölmənin idarəetməyə məsul şəxsləri və ya bölmə rəhbərliyi arasında vacib məlumat mübadiləsi, o cümlədən daxili nəzarətdə əhəmiyyətli çatışmazlıqlar barədə məlumat mübadiləsi barədə qrup auditoruna məlumat verilməlidir;
- qrup auditinə aid ola biləcək maliyyə hesabatlılığına dair məsələlər ilə əlaqəli tənzimləyici orqanlar və müəssisələr və ya struktur vahidləri arasında məlumat mübadiləsi barədə qrup auditoruna məlumat verilməlidir; habelə
- qrup auditoruna bölmədə işi yerinə yetirməyə və ya bölmə auditorundan işi yerinə yetirməsini tələb etməyə icazə verilməlidir.

*Məlumatlara və ya əməkdaşlara çıxış məhdudiyyətləri* (İst: Paraq. 20–21)

A38. Məlumatlara və ya əməkdaşlara çıxış məhdudiyyəti qrup auditorunun yetərli müvafiq audit sübutları əldə etməsi tələbini ləğv etmir.

A39. Məlumatlara və ya əməkdaşlara çıxış bir çox səbəblərə görə məhdudlaşdırıla bilər, məsələn, komponentin rəhbərliyi, qanunlar və ya qaydalarla və ya digər şəraitlər, məsələn, müharibə, vətəndaş iğtişaşları və ya epidemiya səbəbindən məhdudiyyətlər qoyula bilər. A180 paraqrafında qrup auditorunun bölmə auditorunun audit sənədlərinə çıxış məhdudiyyətlərini necə aradan qaldıra biləcəyi təsvir edilir.

A40. Bəzi şəraitlərdə, qrup auditoru, məlumatlara və ya əməkdaşlara çıxış məhdudiyyətlərini aradan qaldıra bilər, məsələn:

- bölmə rəhbərliyinə və ya bölmənin idarəetməyə məsul şəxslərinə çıxış məhdudlaşdırıldığı halda, qrup auditoru qrup rəhbərliyindən və ya qrupun idarəetməyə məsul şəxslərindən məhdudiyyətin aradan qaldırılmasına köməklik göstərməyi tələb edə bilər və ya birbaşa qrup rəhbərliyindən və ya qrupun idarəetməyə məsul şəxslərindən məlumat tələb edə bilər;
- qrupun iştirak payı metodu ilə uçota alınan müəssisədə qeyri-nəzarət payı olduğu halda, qrup auditoru qrupun müəssisənin maliyyə məlumatlarına çıxışı ilə bağlı müddəaların (məs., birgə müəssisənin müqavilələrinin və ya digər investisiya müqavilələrinin şərtlərində) mövcud olub-olmadığını müəyyən edə bilər və qrup rəhbərliyindən bu hüquqların istifadə etməsini tələb edə bilər;
- qrupun iştirak payı metodu ilə uçota alınan müəssisədə qeyri-nəzarət payı olduğu və qrupun qeyri-nəzarət payı olan müəssisənin idarə heyətində olan və ya bu cür müəssisənin idarəetməyə məsul şəxslərinin üzvü olan nümayəndələri olduğu halda, qrup auditoru onlara tutduqları vəzifə sayəsində onlarda olduğu maliyyə və digər məlumatları təqdim edə bilməyəcəkləri ilə bağlı sorğu göndərə bilər.

[46] 210 saylı BAS, 9 və 10(d) paraqrafları

A41. Qrupun iştirak payı metodu ilə uçota alınan müəssisədə qeyri-nəzarət payı olduğu və qrup auditorunun müəssisədəki məlumatlara və ya şəxslərə çıxışı məhdudlaşdırıldığı halda, qrup auditoru müəssisənin maliyyə məlumatları ilə bağlı audit sübutları kimi istifadə olunacaq məlumat əldə edə bilər, məsələn:

- qrup rəhbərliyində olan maliyyə məlumatları, çünki qrup rəhbərliyi də qrup maliyyə hesabatlarını hazırlamaq üçün nəzarət olunmayan müəssisənin maliyyə məlumatlarını əldə etməlidir;
- audit olunmuş maliyyə hesabatları, ictimaiyyətə açıqlanmaq üçün nəzərdə tutulmuş sənədlər, yaxud nəzarət olunmayan müəssisənin pay alətlərinin qiymət kotirovkası kimi açıq mənbələrdən olan məlumatlar.

Xüsusən qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri ilə bağlı qiymətləndirilmiş risklər baxımından və əldə edilmiş audit sübutlarını təsdiq edən və ya başqa şəkildə tamamlayan digər məlumat mənbələri nəzərə alınaraq auditorun yetərli müvafiq audit sübutları əldə edə biləcəyinə dair peşəkar mühakimə yürüdülməlidir.[47]

A42. Qrupun iştirak payı metodu ilə uçota alınan müəssisədə qeyri-nəzarət payı olduğu və müəssisədəki məlumatlara və ya əməkdaşlara çıxış məhdudlaşdırıldığı halda, qrup auditoru bu cür məhdudiyyətlərin mühasibat uçotunun iştirak payı metodundan istifadə edilməsinin qrup rəhbərliyi məqsədəuyğunluğuna dair qrup rəhbərliyinin təsdiqləmələri ilə ziddiyyət təşkil edib-etmədiyini nəzərdən keçirə bilər.

A43. Qrup auditoru məlumatlara və ya əməkdaşlara çıxışın məhdudlaşdırılması səbəbindən yetərli müvafiq audit sübutları əldə edə bilmədikdə, qrup auditoru:

- qrup auditoruna müvafiq tədbirlər planını müəyyən etməkdə kömək etmək üçün məhdudiyyətləri barədə qrup auditorunun şirkətinə məlumat verə bilər. Məsələn, qrup auditorunun şirkəti məhdudiyyətlər barədə qrup rəhbərliyi ilə məlumat mübadiləsi apara bilər və qrup rəhbərliyini tənzimləyici orqanlarla əlaqə saxlamağa təklif edə bilər. Bu, məsələn, əsas ölkədə müharibə, vətəndaş iğtişaşları və ya epidemiya nəticəsində məhdudiyyətlər bir yurisdiksiyada və ya eyni şirkət tərəfindən aparılan çoxsaylı auditlərə təsir etdikdə məqsədəuyğun ola bilər.
- qanun və ya qaydalara əsasən məhdudiyyətlər haqqında tənzimləyici orqanlar, listinq orqanları və ya digər şəxslər ilə məlumat mübadiləsi aparmalıdır.

A44. Çıxışa qoyulan məhdudiyyətlərin qrup auditi üçün başqa nəticələri ola bilər. Məsələn, məhdudiyyətlər qrup rəhbərliyi tərəfindən qoyularsa, qrup auditoru qrup rəhbərliyinin qrup auditoruna ünvanladığı sorğulara verdiyi cavabların etibarlılığını və məhdudiyyətlərin qrup rəhbərliyinin dürüstlüyünü şübhə altına alıb-almadığını yenidən nəzərdən keçirməli ola bilər.

*Məlumatlara və ya əməkdaşlara çıxış məhdudiyyətlərinin qrup maliyyə hesabatları üzrə auditor hesabatına təsiri* (İst: Paraq. 20–21)

A45. 705 saylı (düzəliş edilmiş) BAS[48] qrup auditorunun yetərli müvafiq audit sübutları əldə edə bilmədiyi vəziyyətlərdə nə edəcəyi ilə bağlı tələbləri və təlimatları ehtiva edir. Əlavə 1-də qrup auditorunun

---

[47] 330 saylı BAS, 7(b) paraqrafı

[48] 705 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında fərqli rəylər” BAS

iştirak payı metodu ilə uçota alınan bölmə ilə bağlı yetərli müvafiq audit sübutları əldə edə bilməməsinə əsaslanan qrup auditorunun şərti rəyinin təqdim edilən auditor hesabatının nümunəsi verilir.

*Qanun və ya qaydalarda qrupun tapşırıq üzrə tərəfdaşına tapşırıqdan imtina etməyə və ya tapşırığa xitam verməyə qadağan edilməsi* (İst: Paraq. 20–21)

A46. Qanun və ya qaydalarda qrupun tapşırıq üzrə tərəfdaşına tapşırıqdan imtina etmək və ya tapşırığa xitam vermək qadağan edilə bilər. Məsələn, bəzi yurisdiksiyalarda auditor müəyyən müddətə təyin edilir və həmin müddət bitmədən tapşırığa xitam vermək ona qadağandır. Həmçinin, ictimai sektorda tapşırıqdan imtina etmək və ya tapşırığa xitam vermək seçimi mandatın xüsusiyyətinə və ya ictimai maraq mülahizələrinə görə auditor üçün mümkün olmaya bilər. Bu şəraitdə bu BAS-da qeyd edilən tələblər hələ də qrup auditinə şamil olunur, qrup auditorunun yetərli müvafiq audit sübutları əldə edə bilməməsinin nəticələri 705 saylı (düzəliş edilmiş) BAS-da nəzərdən keçirilir.

**Qrup auditinin ümumi strategiyası və qrup auditinin planı**

*Qrup auditinin planlaşdırılmasının və aparılmasının davamlılığı və təkrarlanması* (İst: Paraq. 22)

A47. 300 saylı BAS-da[49] izah olunduğu kimi, planlaşdırma auditin ayrıca mərhələsi deyil, çox vaxt əvvəlki auditin başa çatmasından qısa müddət sonra (və ya onunla əlaqədar) başlayan və cari audit tapşırığının tamamlanmasına qədər davam edən və təkrarlanan prosesdir. Məsələn, gözlənilməz hadisələr, şərtlərdəki dəyişikliklər, yaxud risklərin qiymətləndirilməsi və ya əlavə audit prosedurları nəticəsində əldə edilmiş audit sübutları sayəsində qrup auditorundan qiymətləndirilmiş risklərin yenidən nəzərdən keçirilməsi əsasında qrup auditinin ümumi strategiyasını və qrup auditinin planını, habelə nəticə etibarı ilə planlaşdırılmış sonrakı audit prosedurlarının xüsusiyyətini, müddətini və həcmini dəyişdirmək tələb oluna bilər. Qrup auditoru həmçinin müəyyən etdiyi audit işinin yerinə yetiriləcəyi bölmələrin tərkibini, həmçinin bölmə auditorlarının iştirakının xüsusiyyətini, müddətini və həcmini dəyişə bilər. 300 saylı BAS-ın[50] tələblərinə uyğun olaraq, auditor audit aparılarkən zəruri hallarda ümumi audit strategiyasını və audit planını yeniləməli və dəyişdirməlidir.

*Qrup auditinin ümumi strategiyasının və qrupun audit planının müəyyən edilməsi* (İst: Paraq. 22)

A48. Qrupun ilkin audit tapşırığında qrup auditoru qrup rəhbərliyindən, qrupun idarəetməyə məsul şəxslərindən və müvafiq hallarda, bölmə rəhbərliyi və ya əvvəlki auditor ilə məlumat mübadiləsi nəticəsində əldə etdiyi məlumatlar əsasında qrup və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi haqqında ilkin anlayış əldə edə bilər. Təkrarlanan qrupun audit tapşırığında qrup auditoru ilkin anlayışı əvvəlki dövrlərin auditləri vasitəsilə əldə edə bilər. Bu cür ilkin anlayış qrup auditoruna əhəmiyyətli ola biləcək əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar haqqında ilkin gözləntiləri formalaşdırmağa kömək edə bilər.

A49. Qrup auditoru həmçinin tapşırığın qəbulu və davam etdirilməsi prosesində əldə etdiyi məlumatlardan, məsələn, qrup auditini yerinə yetirmək üçün lazım olan resurslarla bağlı qrup auditinin ümumi strategiyasının və qrupun audit planının müəyyən edilməsində istifadə edə bilər.

---

[49] 300 saylı BAS, A2 paraqrafı

[50] 300 saylı BAS, 10-cu paraqraf

A50. Qrup auditinin ümumi strategiyasının və qrupun audit planının, habelə qrup maliyyə hesabatları səviyyəsində əhəmiyyətli ola biləcək əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar haqqında ilkin gözləntilərin müəyyən edilməsi prosesi qrup auditoruna aşağıdakı kimi məsələlərə dair ilkin qərarın verilməsində kömək edə bilər:

- audit işinin mərkəzləşdirilmiş şəkildə, bölmələrdə və ya onların birləşməsində yerinə yetirilib-yetirilməyəcəyi; habelə
- bölmələrin maliyyə məlumatları ilə bağlı yerinə yetiriləcək audit işinin xüsusiyyəti, müddəti və həcmi (məs., risklərin qiymətləndirilməsi prosedurlarını, əlavə audit prosedurlarını və ya onların birləşmələrini işləyib hazırlamaq və yerinə yetirmək).

*Audit işinin yerinə yetirilməsi nəzərdə tutulan bölmələr* (İst: Paraq. 22(a))

A51. Audit işinin yerinə yetirilməsi üçün bölmələri müəyyən edərkən peşəkar mühakimə yürüdülməlidir. Qrup auditorunun qərarına təsir edə biləcək məsələlərə aşağıdakılar daxildir, məsələn:

- bölməyə aid olan qrup maliyyə hesabatlarının təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərinə səbəb ola biləcək hadisələrin və ya şəraitlərin xüsusiyyəti, məsələn:
    - yeni yaradılmış və ya satın alınmış müəssisələr və ya struktur vahidləri;
    - əhəmiyyətli dəyişikliklərin baş verdiyi müəssisələr və ya struktur vahidləri;
    - əlaqəli tərəflərlə əhəmiyyətli əməliyyatlar;
    - adi fəaliyyətdən kənar əhəmiyyətli əməliyyatlar;
    - 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq qrup səviyyəsində yerinə yetirilən analitik prosedurlarla müəyyən edilmiş qeyri-adi dəyişikliklər[51];
- qrup maliyyə hesabatlarına nisbətən məkanlarda və ya struktur vahidlərində aktivlərin, öhdəliklərin və əməliyyatların ölçüsünü və xüsusiyyətini nəzərə almaqla, qrup maliyyə hesabatlarında əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaların bölmələr üzrə bölünməsi;
- müəyyən edilmiş bölmələrin maliyyə məlumatları ilə bağlı planlaşdırılan audit işinin yerinə yetirilməsi qrup maliyyə hesabatlarında əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün yetərli müvafiq audit sübutlarının əldə edilməsi ilə bağlı gözləntilərin olub-olmaması;
- əvvəlki dövrlər üzrə audit nəticəsində bölmədə aşkar edilmiş təhriflərin və ya nəzarətdə aşkar edilmiş çatışmazlıqların xüsusiyyəti və həcmi;
- qrup daxilində nəzarət vasitələrinin vahidliyinin xüsusiyyəti və dərəcəsi, habelə maliyyə hesabatları ilə əlaqəli fəaliyyətlərin qrup tərəfindən mərkəzləşdirilib-mərkəzləşdirilmədiyi və mərkəzləşdirildiyi halda, qrup tərəfindən bunun necə edilməsi.

*Resurslar* (İst: Paraq. 22(b))

A52. Qrup auditorunun qrup auditini həyata keçirmək üçün lazım olan resursları müəyyən etməsinə və bölmə auditorlarının iştirakının xüsusiyyəti, müddəti və həcminə təsir edən məsələlərə dair peşəkar

---

[51] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 14(b) paraqrafı

mühakimə yürüdülməlidir və buna misal olaraq aşağıdakılar aid edilə bilər:

- qrup, audit işinin yerinə yetirilməsi nəzərdə tutulduğu qrup daxilindəki bölmələr və işin mərkəzləşdirilmiş şəkildə, bölmələrdə və ya onların birləşməsində yerinə yetirilib-yetirilməməsi;
- tapşırıq qrupunun bilikləri və təcrübəsi. Məsələn, qrup auditoru ilə müqayisədə bölmə auditorları bölmələrin fəaliyyət göstərdiyi yerli sahələr, yerli qanunlar və ya qaydalar, biznes praktikası, dil və mədəniyyət ilə bağlı daha böyük təcrübəyə və daha dərin biliyə malik ola bilər. Bundan əlavə, mürəkkəb məsələlərdə auditorun ekspertlərinin cəlb edilməsi tələb oluna bilər;
- əhəmiyyətli təhriflərlə bağlı mümkün risklərə dair ilkin gözləntilər;
- xüsusi audit sahələrinə ayrılacaq resursların həcmi və ya yeri. Məsələn, bölmələrin bir neçə yerə ayrılması dərəcəsi konkret məkanlarda bölmə auditorlarının cəlb edilməsi ehtiyacına təsir edə bilər;
- çıxış imkanının təşkil edilməsi. Məsələn, qrup auditorunun müəyyən yurisdiksiyada bölməyə çıxışı məhdudlaşdırıldıqda, bölmə auditorlarının işə cəlb edilməsi tələb oluna bilər;
- bölmələrin fəaliyyətinin xüsusiyyəti, o cümlədən onların mürəkkəbliyi və ya əməliyyatların ixtisaslaşması;
- qrupun daxili nəzarət sistemi, o cümlədən mövcud informasiya sistemi və onun mərkəzləşmə dərəcəsi. Məsələn, daxili nəzarət sistemi mərkəzləşdirilmiş olmadıqda bölmə auditorlarının işə cəlb edilməsi ehtimalı daha yüksək ola bilər;
- bölmə auditoru ilə əvvəlki iş təcrübəsi.

A53. Bölmə auditorları auditin müxtəlif mərhələlərində iştirak edə bilər, məsələn, bölmə auditorları aşağıdakıları işləyib hazırlaya və ya yerinə yetirə bilər:

- risklərin qiymətləndirilməsi prosedurları; habelə
- qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri görmək üçün nəzərdə tutulmuş prosedurlar.

A54. Bölmə auditorlarının iştirakının xüsusiyyəti, müddəti və həcmi qrupun audit tapşırığının fakt və şərtlərindən asılıdır. Çox vaxt bölmə auditorları auditin bütün mərhələlərində iştirak edirlər, lakin qrup auditoru bölmə auditorlarını yalnız müəyyən mərhələdə cəlb etmək qərarına gələ bilər. Qrup auditoru bölmə auditorlarını risklərin qiymətləndirilməsi prosedurlarına cəlb etmək niyyətində olmadıqda belə, qrup auditoru bölmə auditorları ilə təsərrüfat fəaliyyətində və ya bölmənin daxili nəzarət sistemində qrupun maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinə təsir edə biləcək əhəmiyyətli dəyişikliklərin olub-olmamasını müzakirə edə bilər.

A55. 300 saylı BAS-a[52] uyğun olaraq, tapşırıq üzrə tərəfdaşdan və tapşırıq qrupunun digər əsas üzvlərindən auditin planlaşdırılmasında iştirak etməsi tələb olunur. Bölmə auditorları iştirak etdikdə, bölmə auditorlarının qrupundan bir və ya bir neçə şəxs tapşırıq qrupunun əsas üzvləri ola bilər və buna görə də qrup auditinin planlaşdırılmasında iştirak edə bilər. Bölmə auditorlarının auditin planlaşdırılmasında iştirakı onların təcrübəsindən və biliklərindən istifadəni nəzərdə tutur və beləliklə, planlaşdırma prosesinin effektivliyini və səmərəliliyini artırır. Auditin planlaşdırılmasına hansı bölmə auditorlarının cəlb ediləcəyini müəyyən etmək üçün qrupun tapşırıq üzrə tərəfdaşı

[52] 300 saylı BAS, 5-ci paraqraf

peşəkar mühakimə yürüdür. Buna risklərin qiymətləndirilməsində və ya əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsində bölmə auditorlarının iştirakının xüsusiyyəti, müddəti və həcmi təsir edə bilər.

A56. 1 saylı BKİS-də[53] qeyd edildiyi kimi, elə şərait ola bilər ki, tapşırığın yerinə yetirilməsi üçün təklif edilən xidmət haqqı tapşırığın xüsusiyyəti və şəraiti nəzərə alınmaqla yetərli olmasın və bu, şirkətin tapşırığı peşə standartlarına və qüvvədə olan qanun və ya qaydaların tələblərinə uyğun yerinə yetirmək qabiliyyətini azalda bilər. Xidmət haqlarının səviyyəsi, o cümlədən onların bölmə auditorları arasında bölüşdürülməsi və onların tələb olunan resurslara aidiyyəti qrupun audit tapşırıqları üçün xüsusi mülahizə ola bilər. Məsələn, qrup auditində şirkətin maliyyə və əməliyyat prioritetləri audit işinin yerinə yetirilməsi nəzərdə tutulan bölmələrin, eləcə də zəruri resursların müəyyən edilməsinə, o cümlədən bölmə auditorlarının iştirakına məhdudiyyətlər qoya bilər. Belə şəraitdə bu məhdudiyyətlər tapşırıq səviyyəsində keyfiyyətə nail olmaq üçün qrupun tapşırıq üzrə tərəfdaşının məsuliyyətini və ya auditor rəyini əsaslandırmaq üçün qrup auditoru tərəfindən yetərli müvafiq audit sübutlarını əldə etmək ilə bağlı tələbləri ləğv etmir.

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

Bölmə auditorunun işində yetərli və müvafiq iştirak (İst: Paraq. 23–24)

A57. Bölmə auditorunun işində qrup auditorunun yetərli və müvafiq iştirak edə biləcəyini qiymətləndirərkən, qrup auditoru bölmə auditorunun qrup auditoru ilə məlumat mübadiləsini, o cümlədən audit sənədlərinin qrup auditoru ilə paylaşılması ilə bağlı məlumat mübadiləsini məhdudlaşdıran hər hansı məhdudiyyətlərin olub-olmamasını öyrənə bilər. Qrup auditoru həmçinin fərqli yurisdiksiyada yerləşən bölmələrə aid audit sübutlarının başqa dildə olub-olmamasını və qrup auditoru tərəfindən istifadə üçün tərcümə edilməsinə ehtiyacın olub-olmamasını öyrənə bilər.

A58. Əgər bölmə auditoru qrup auditoru ilə əməkdaşlıq edə bilmirsə, qrup auditoru:

- bölmə auditorundan bunun əsaslandırılmasını tələb edə bilər;
- məsələni həll etmək üçün müvafiq tədbirlər görə, o cümlədən yerinə yetirilməsi tələb olunan işin xüsusiyyətini tənzimləyə bilər. Alternativ olaraq, 27-ci paraqrafa uyğun olaraq, qrup auditoru bölmə auditorunu cəlb etmədən bölmədə yerinə yetiriləcək işə aid yetərli müvafiq audit sübutları əldə etməli ola bilər.

Müstəqilliklə bağlı olanlar da daxil olmaqla, müvafiq etik normalar (İst: Paraq. 25)

A59. Qrupun audit tapşırığı məqsədilə bölmədə işi yerinə yetirərkən, bölmə auditoru qrupun audit tapşırığına şamil olunan etik normalara, o cümlədən müstəqilliklə bağlı olanlar tətbiq edilir. Bu cür normalar bölmə auditorunun yurisdiksiyasında qanun, qaydaların tələblərinə uyğun olaraq və ya digər səbəblərə görə qrupun tərkibində olan müəssisə və ya struktur vahidinin maliyyə hesabatlarının auditini apararkən bölmə auditoruna şamil olunan tələblərdən fərqli və ya onlara əlavə ola bilər.

A60. Bölmə auditorlarını müvafiq etik normalar barədə məlumatlandırarkən, qrup auditoru qrupun audit tapşırığına aid olan etik normaların müddəaları ilə bağlı bölmə auditorları üçün əlavə məlumatların və ya təlimin zəruri olub-olmamasını nəzərdən keçirə bilər.

---

[53] 1 saylı BKİS, A74 paraqrafı

Tapşırığın yerinə yetirilməsi üçün zəruri resurslar (İst: Paraq. 26)

A61. 220 saylı (düzəliş edilmiş) BAS-a[54] uyğun olaraq tapşırıq üzrə tərəfdaş tapşırığın yerinə yetirilməsi üçün yetərli və müvafiq resursların tapşırıq qrupuna vaxtında ayrılmağını və ya təqdim edildiyini müəyyən etməlidir. Bölmə auditorunun yerinə yetirəcəyi işlərlə bağlı yetərli və ya müvafiq resurslar təmin edilmədikdə, qrupun tapşırıq üzrə tərəfdaşı bu məsələni bölmə auditoru, qrup rəhbərliyi və ya qrup auditorunun şirkəti ilə müzakirə edə bilər və sonra bölmə auditorundan və ya qrup auditorunun şirkətindən yetərli və müvafiq resursları təmin etməyi tələb edə bilər.

Komponent auditorlarının səriştəsi və bacarıqları

A62. 220 saylı (düzəliş edilmiş) BAS-da[55] tapşırıq qrupunun səriştə və bacarıqlarını müəyyən edərkən tapşırıq üzrə tərəfdaşın nəzərə ala biləcəyi məsələlərlə bağlı təlimat verilir. Tapşırıq qrupuna bölmə auditorları daxil olduqda, bu qərar qrup auditində xüsusilə vacibdir. 220 saylı (düzəliş edilmiş) BAS-da[56] qeyd edilir ki, şirkətin siyasət və ya prosedurlarına uyğun olaraq, başqa şirkətin bölmə auditorunun audit tapşırığını yerinə yetirməsi üçün müvafiq səriştə və bacarıqlara malik olub-olmadığı barədə anlayış əldə edərkən, şirkət və ya tapşırıq üzrə tərəfdaşdan işçilərə tətbiq edilənlərdən fərqli tədbirlər görməsi tələb edilə bilər.

A63. Bölmə auditorlarının müvafiq səriştə və bacarıqlara malik olub-olmadığını müəyyən edərkən peşəkar mühakimə yürüdülməli və buna qrupun audit tapşırığının xüsusiyyəti və şəraitləri təsir göstərir. Bu qərar qrupun tapşırıq üzrə tərəfdaşı tərəfindən bölmə auditoruna rəhbərlik və nəzarət edilməsinin və onların işinin təhlilinin xüsusiyyəti, müddəti və həcminə təsir göstərir.

A64. Bölmə auditorlarının bölmədə təyin edilmiş audit prosedurlarını yerinə yetirmək üçün müvafiq səriştə və bacarıqlara malik olub-olmadığını müəyyən edərkən, qrupun tapşırıq üzrə tərəfdaşı aşağıdakı məsələləri nəzərdən keçirə bilər, məsələn:

- bölmə auditoru ilə əvvəlki iş təcrübəsi və ya onun barəsində məlumatlar;
- bölmə auditorunun xüsusi bacarıqları (məs., sahəyə aid biliklər).
- ümumi keyfiyyətin idarəetmə sisteminin qrup auditoruna və bölmə auditoruna şamil olunma dərəcəsi, məsələn, aşağıdakı şərtlərin qrup auditoruna və bölmə auditoruna şamil olunub-olmaması:
    - işi yerinə yetirmək üçün ümumi resurslardan istifadə edirlər (məs., audit metodologiyaları və ya İT proqramları);
    - tapşırığın yerinə yetirilməsinə təsir edən ümumi siyasət və ya prosedurları birgə istifadə edirlər (məs., işə rəhbərliyin, nəzarətin edilməsi və işin təhlil edilməsi və ya məsləhətləşmə);
    - ümumi monitorinq fəaliyyətləri onlara şamil olunur; yaxud
    - ümumi rəhbərlik və ya ümumi mədəniyyət mühiti də daxil olmaqla, digər ümumi cəhətlərə malikdirlər;
- aşağıdakıların uyğunluğu və ya oxşarlığı:

[54] 220 saylı (düzəliş edilmiş) BAS, 25-ci paraqraf

[55] 220 saylı (düzəliş edilmiş) BAS, A71 paraqrafı

[56] 220 saylı (düzəliş edilmiş) BAS, A24 paraqrafı

- qanun və ya qaydalar, yaxud hüquq sistemi;
- dil və mədəniyyət;
- təlim və təhsil;
- peşəkar nəzarət, nizam-intizam və kənar keyfiyyət təminatı; yaxud
- peşəkar təşkilatlar və peşə standartları;

- bölmə rəhbərliyi, idarəetməyə məsul şəxsləri və daxili auditorlar kimi digər əsas işçilərlə qarşılıqlı əlaqə vasitəsilə bölmə auditoru haqqında əldə edilən məlumatlar.

A65. Bölmə auditorunun səriştəsini və bacarığını müəyyən etmək üçün nəzərdə tutulan prosedurlara, aşağıdakılar daxil ola bilər, məsələn:

- qrup auditorunun şirkəti tərəfindən qrup auditoruna verilən məlumatın qiymətləndirilməsi, o cümlədən:
  - qrup auditoru və bölmə auditoru eyni şirkətdən olduğu hallarda, monitorinq və remediasiya ilə bağlı şirkətin davamlı məlumat mübadiləsi[57];
  - şəbəkə şirkətlərində şəbəkə tərəfindən həyata keçirilən monitorinq fəaliyyətlərinin nəticələri haqqında şəbəkədən əldə edilən məlumatlar[58];
  - bölmə auditorunun aid olduğu peşəkar qurumdan (qurumlardan), bölmə auditoruna lisenziya verən səlahiyyətli orqanlardan və ya digər üçüncü şəxslərdən əldə edilən məlumatlar;
- qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinin bölmə auditoru ilə müzakirə edilməsi;
- bölmə auditorundan 25-ci paraqrafda qeyd edilən məsələlər barədə anlayışlarının olmasını yazılı şəkildə təsdiqləməsinin tələb edilməsi;
- bölmə auditorunun səriştə və bacarıqlarının, qrupun tapşırıq üzrə tərəfdaşının şirkətində olan, birbaşa bölmə auditoru ilə işləmiş həmkarlar ilə müzakirə edilməsi;
- kənar yoxlamaların nəticələri üzrə dərc edilmiş hesabatların əldə edilməsi.

A66. Qrupun tapşırıq üzrə tərəfdaşının şirkəti və bölmə auditoru eyni şəbəkənin üzvləri ola bilər və şəbəkənin ümumi tələbləri onlara şamil oluna bilər və ya onlar ümumi şəbəkə xidmətlərindən istifadə edə bilərlər.[59] Qrupun audit tapşırığını dəstəkləmək məqsədilə işin yerinə yetirilməsi üçün bölmə auditorlarının müvafiq səriştə və bacarıqlara malik olub-olmadığını müəyyən edərkən, qrupun tapşırıq üzrə tərəfdaşı şəbəkənin bu cür tələblərindən, məsələn, peşəkar təlim və ya işə qəbul ilə bağlı tələblərdən, yaxud audit metodologiyalarından və müvafiq icra alətlərindən istifadə edilməsi ilə bağlı tələblərdən asılı ola bilər. 1 saylı BKİS-ə [60] uyğun olaraq, şirkət öz keyfiyyətin idarə edilməsi sisteminin işlənib hazırlanması, tətbiq edilməsi və işlədilməsinə görə məsuliyyət daşıyır və şirkətə şəbəkənin tələblərini və ya şəbəkənin xidmətlərini keyfiyyətin idarə edilməsi sistemində istifadəyə yararlı olması üçün uyğunlaşdırmağa və ya əlavə etməyə lazım ola bilər.

---

57 1 saylı BKİS, 47-ci paraqraf

58 1 saylı BKİS, 51(b) paraqrafı

59 1 saylı BKİS, A19, A175 paraqrafları

60 1 saylı BKİS, 48–49-cu paraqraflar

Auditorun ekspertinin işindən istifadə edilməsi

A67. 220 saylı (düzəliş edilmiş) BAS-a[61] uyğun olaraq, tapşırıq üzrə tərəfdaş əmin olmalıdır ki, tapşırıq qrupunun üzvləri və tapşırıq qrupuna daxil olmayan kənar auditorun ekspertlərinin hamısı birlikdə audit tapşırığını yerinə yetirmək üçün müvafiq səriştə və bacarıqlara, o cümlədən yetərli vaxta malikdirlər. Bölmə auditoru tərəfindən auditorun eksperti istifadə olunduğu halda, qrupun tapşırıq üzrə tərəfdaşına bölmə auditorundan məlumat əldə etmək lazım ola bilər. Məsələn, qrup auditoru bölmə auditoru ilə auditorun ekspertinin səriştə və bacarıqlarının bölmə auditoru tərəfindən qiymətləndirilməsini müzakirə edə bilər.

Avtomatlaşdırılmış alətlər və metod

A68. Tapşırıq qrupunun müvafiq səriştə və bacarıqlara malik olub-olmadığını müəyyən edərkən, qrupun tapşırıq üzrə tərəfdaşı avtomatlaşdırılmış alət və metodlardan istifadədə bölmə auditorunun ixtisaslaşması kimi məsələləri nəzərə ala bilər. Məsələn, 220 saylı (düzəliş edilmiş) BAS-da[62] təsvir edildiyi kimi, qrup auditoru audit prosedurlarını yerinə yetirərkən bölmə auditorlarından xüsusi avtomatlaşdırılmış alətlər və metodlardan istifadə etməyi tələb etdikdə, qrup auditoru bölmə auditorlarına belə avtomatlaşdırılmış alət və metodlardan istifadənin qrup auditorunun göstərişlərinə riayət edilməsi üçün lazım olduğunu bildirə bilər.

Qrup auditorunun bölmə auditorunun fəaliyyəti barədə anlayışının tətbiq edilməsi (İst: Paraq. 27)

A69. 220 saylı (düzəliş edilmiş) BAS-a[63] uyğun olaraq, tapşırıq üzrə tərəfdaş tapşırıq qrupunun digər üzvlərinin audit tapşırığının xüsusiyyəti və şəraiti nəzərə alınmaqla müvafiq etik normalardan, habelə şirkətin müvafiq siyasət və ya prosedurlarından xəbərdar olmasına görə məsuliyyət daşımalıdır. Bura müstəqilliklə bağlı olanlar da daxil olmaqla, müvafiq etik normaların pozulmasına səbəb ola biləcək halları əks etdirən şirkətin siyasət və ya prosedurları, habelə pozuntular barədə xəbərdar olduqda tapşırıq qrupunun üzvlərinin məsuliyyətləri daxildir. Şirkətin siyasət və ya prosedurlarında bölmə auditorları tərəfindən müstəqillik tələblərinin pozulması hallarını, habelə müvafiq etik normalara uyğun olaraq qrup auditorunun bu şəraitdə görə biləcəyi tədbirlər də əks etdirilə bilər. Bundan əlavə, müvafiq etik normalarda, yaxud qanun və ya qaydalarda müstəqillik tələblərinin pozulması aşkar edildiyi hallarda idarəetməyə məsul şəxslərə xüsusi məlumat mübadilələri də qeyd edilə bilər.[64]

A70. Bölmə auditoru qrupun audit tapşırığına şamil olunan müvafiq etik normaları, o cümlədən müstəqilliklə bağlı tələbləri pozduğu və bu pozuntu ilə bağlı müvafiq etik normaların müddəalarına uyğun olaraq qənaətbəxş şəkildə tədbir görülmədiyi halda, qrup auditoru həmin bölmə auditorunun işindən istifadə edə bilməz.

A71. Ciddi narahatlıqlar qrup auditorunun peşəkar mühakiməsinə əsasən aradan qaldırıla bilməyən narahatlıqlardır. Bölmə auditorunun işinə qrup auditorunu daha çox cəlb etməklə və ya audit prosedurlarını birbaşa bölmənin maliyyə məlumatları ilə bağlı yerinə yetirməklə, qrupun tapşırıq üzrə tərəfdaşı bölmə auditorunun peşəkar səriştəsi (məs., sahə üzrə xüsusi biliklərin olmaması) və

---

61 220 saylı (düzəliş edilmiş) BAS, 26-cı paraqraf

62 220 saylı (düzəliş edilmiş) BAS, A65 paraqrafı

63 220 saylı (düzəliş edilmiş) BAS, 17-ci paraqraf

64 260 saylı (düzəliş edilmiş) BAS, A31 paraqrafı

ya bölmə auditorunun auditorlara effektiv nəzarətin olmadığı mühitdə fəaliyyət göstərməsi ilə bağlı çox ciddi olmayan narahatlıqların öhdəsindən gələ bilər.

Tapşırığın yerinə yetirilməsi (İst: Paraq. 28)

A72. 220 saylı (düzəliş edilmiş) BAS-a[65] uyğun olaraq, tapşırıq üzrə tərəfdaş əmin olmalıdır ki, rəhbərliyin, nəzarətin və təhlilin xüsusiyyəti, müddəti və həcmi şirkətin siyasət və ya prosedurlarına, peşə standartlarına və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun olaraq planlaşdırılır və yerinə yetirilir, habelə audit tapşırığının xüsusiyyətinə və şəraitinə və tapşırıq qrupu üçün ayrılmış və ya təqdim edilmiş resurslar uyğundur. Qrup auditində, rəhbərlik, nəzarət və təhlilə yanaşma, adətən qrup auditorunun şirkətinin siyasət və ya prosedurlarına riayətetmə və qrupun audit tapşırığına xas olan cavab tədbirlərinin birləşməsini əhatə edir.

A73. Qrup auditində, xüsusən tapşırıq qrupuna bir neçə yerdə yerləşə bilən çoxlu sayda bölmə auditorları daxil olduqda, bölmə auditorlarına rəhbərlik və nəzarət etmənin və onların işinin təhlil edilməsinin xüsusiyyəti, müddəti və həcminə görə məsuliyyətinin yerinə yetirilməsində qrupun tapşırıq üzrə tərəfdaşına kömək etmək üçün qrupun tapşırıq üzrə tərəfdaşı prosedurların, tapşırıqların və ya tədbirlərin işlənib hazırlanmasını və ya yerinə yetirilməsini tapşırıq qrupunun digər üzvlərinə həvalə edə bilər. (həmçinin bax: 11-ci paraqraf).

A74. Bölmə auditorlarının şirkəti ilə qrup auditorunun şirkəti fərqli olduqda, həmin şirkətin siyasət və ya prosedurları fərqli ola bilər, yaxud tapşırıq qrupunun üzvlərinə rəhbərlik və nəzarət edilməsinin, habelə onların işinin təhlil edilməsinin xüsusiyyəti, müddəti və həcmi ilə bağlı müvafiq olaraq fərqli tədbirlər görülməli ola bilər. Xüsusən, şirkətin siyasət və ya prosedurlarına uyğun olaraq şirkətdən və ya qrupun tapşırıq üzrə tərəfdaşından şirkət və ya şəbəkə daxilində tapşırıq qrupunun üzvlərinə şamil olunanlardan fərqli tədbirlər görməsi (məs., bölmə auditorları ilə məlumat mübadiləsinin forması, məzmunu və müddəti ilə bağlı, o cümlədən bölmə auditorları üçün qrup auditorunun təlimatlarından istifadə edilməsi) tələb edilə bilər. 220 saylı (düzəliş edilmiş) BAS-da bu cür şəraitdə görülməsi lazım ola bilən tədbirlərin nümunələri təqdim olunur.[66]

A75. Bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsinin xüsusiyyəti, müddəti və həcmi, habelə onların işinin təhlil edilməsi tapşırığın xüsusiyyətinə, şəraitinə və məsələn, aşağıdakılara uyğunlaşdırıla bilər:

- qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri. Məsələn, qrup auditoru əhəmiyyətli risk ehtiva edən bölməni müəyyən etdiyi halda, bölmə auditoruna rəhbərliyin və nəzarətin həcminin artırılması və bölmə auditorunun audit sənədləşdirilməsinin daha ətraflı təhlil edilməsi məqsədəuyğun ola bilər;
- audit işini yerinə yetirən bölmə auditorlarının səriştəsi və bacarıqları. Məsələn, qrup auditoru daha əvvəl bölmə auditoru ilə işləmədiyi halda, qrup auditoru daha ətraflı təlimatlar verə, bölmə auditoru ilə müzakirələrin və ya digər qarşılıqlı əlaqələrin tezliyini artıra və ya iş yerinə yetirildikcə bölmə auditoruna nəzarət etmək üçün daha təcrübəli şəxsləri təyin edə bilər;
- tapşırıq qrupu üzvlərinin yerləşdiyi məkan, o cümlədən xidmət göstərmə mərkəzlərindən istifadə edildikdə də daxil olmaqla, tapşırıq qrupu üzvlərinin müxtəlif yerlərə səpələnmə dərəcəsi;

[65] 220 saylı (düzəliş edilmiş) BAS, 30-cu paraqraf

[66] 220 saylı (düzəliş edilmiş) BAS, A24–A25 paraqrafları

- bölmə auditorunun audit sənədləşdirilməsinə çıxış. Məsələn, qanun və ya qaydalarla bölmə auditorunun audit sənədlərinin bölmə auditorunun yurisdiksiyasından kənara köçürülməsinə yol verilmədikdə, qrup auditoru qanun və ya qaydalarla qadağan edilmədikdə, auditin sənədləşdirilməsini bölmə auditorunun olduğu məkanda və ya texnologiyadan istifadə etməklə məsafədən təhlil edə bilər. (həmçinin bax: A179–A180 paraqrafları).

A76. Qrupun tapşırıq üzrə tərəfdaşı bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsinə görə məsuliyyəti öz üzərinə götürməsinin müxtəlif yolları var, məsələn:

- qrup auditi aparılarkən bölmə auditorları ilə məlumat mübadiləsi, o cümlədən bu BAS-da qeyd edilən tələblərə uyğun məlumat mübadiləsi;
- müəyyən edilmiş və qiymətləndirilmiş riskləri, problemləri, nəticələri və qənaətləri müzakirə etmək üçün bölmə auditorları ilə görüşlər və ya telefon danışıqları;
- qanun və qaydalarla icazə verildiyi halda, bölmə auditorunun auditin sənədləşdirilməsinin şəxsən və ya məsafədən təhlil edilməsi;
- bölmə auditorları ilə bölmə rəhbərliyi arasında yekun və ya digər əsas görüşlərdə iştirak edilməsi.

A77. 220 saylı (düzəliş edilmiş) BAS-a[67] uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşı audit tapşırığı yerinə yetirilən zaman müvafiq vaxtlarda auditin sənədləşdirilməsini, o cümlədən qrup auditinə aid olan auditin sənədləşdirilməsini təhlil etməlidir:

- əhəmiyyətli məsələlər;
- əhəmiyyətli mühakimələr, o cümlədən audit tapşırığı yerinə yetirilən zaman müəyyən edilmiş çətin və ya mübahisəli məsələlərə və əldə edilmiş nəticələrə aid olanlar; habelə
- tapşırıq üzrə tərəfdaşın peşəkar mühakiməsinə əsasən, tapşırıq üzrə tərəfdaşın məsuliyyətlərinə aid olan digər məsələlər.

Qrupun tapşırıq üzrə tərəfdaşı tərəfindən bu cür auditin şənədləşdirilməsinin təhlil edilməsi çox vaxt qrup auditi aparılan zaman, o cümlədən müvafiq bölmə auditorunun auditin sənədləşdirilməsi təhlil edilən zaman baş verir (həmçinin bax: A148 paraqrafı).

Bölmə auditorları ilə məlumat mübadilələri (İst: Paraq. 29)

A78. Qrup auditoru ilə bölmə auditorları arasında onların müvafiq məsuliyyətləri haqqında aydın və vaxtında məlumat mübadiləsi, eləcə də bölmə auditorlarına yerinə yetiriləcək işin xüsusiyyəti, müddəti və həcmi, habelə qrup auditoruna bildirilməsi gözlənilən məsələlər barədə aydın göstərişlərin verilməsi effektiv ikitərəfli məlumatvermə üçün zəmin yaratmağa kömək edir. Qrup auditoru ilə bölmə auditorları arasında effektiv ikitərəfli məlumatvermə, həmçinin bölmə auditorları üçün gözləntilərin müəyyən edilməsinə kömək edir və qrup auditorunun onlara rəhbərlik və nəzarət etməsini, habelə onların işlərini təhlil etməsini asanlaşdırır. Bu cür məlumat mübadiləsi həm də qrupun tapşırıq üzrə tərəfdaşına imkan verir ki, qrup auditinin məqsədləri üçün yerinə yetirilən işə peşəkar şübhə ilə yanaşmağın lazım olduğunu bölmə auditorlarına təkidlə bildirsin.

A79. Effektiv ikitərəfli məlumat mübadiləsinin təmin edilməsinə kömək edə biləcək digər amillərə aşağıdakılar daxildir:

[67] 220 saylı (düzəliş edilmiş) BAS, 31-ci, A92–A93 paraqrafları

- bölmə auditoruna verilən göstərişlərin aydınlığı, xüsusən də bölmə auditoru başqa şirkətdən olduqda və qrup auditorunun şirkətinin siyasət və ya prosedurları ilə tanış olmaması mümkün olduqda;
- bölmə auditorunun bölmə haqqında bilik və anlayışına əsaslanaraq yerinə yetirilməsi tələb olunan audit işini müzakirə edə biləcəyi barədə qarşılıqlı anlayışın əldə edilməsi;
- məlumat mübadiləsi prosesindən irəli gələn müvafiq problemlərin və gözlənilən tədbirlər barədə qarşılıqlı anlayışın əldə edilməsi;
- məlumat mübadiləsinin forması. Məsələn, vaxtında diqqət yetirilməsini tələb edən məsələlərin e-poçt mübadiləsi ilə deyil, görüşdə müzakirə edilməsi daha uyğun ola bilər;
- qrup auditoru və bölmə auditorları arasından olan, müəyyən məsələlər üzrə məlumat mübadiləsinin idarə olunmasına cavabdeh olan şəxsin (şəxslərin) qarşılıqlı anlaşması;
- qrup auditoru tərəfindən bildirilmiş məsələlər üzrə bölmə auditorunun tədbir görməsi və əks əlaqənin təmin etməsi prosesi.

A80. Qrup auditoru ilə bölmə auditorları arasında məlumat mübadiləsi qrupun audit tapşırığının faktlarından və şəraitlərindən, o cümlədən qrup auditorlarının iştirakının xüsusiyyəti və həcmindən, habelə qrup auditorunun və ümumi keyfiyyətin idarə edilməsi sistemlərinin və ya ümumi şəbəkə tələblərinin və ya şəbəkə xidmətlərinin qrup auditoruna və bölmə auditorlarına nə dərəcədə şamil olunmasından asılıdır.

Məlumat mübadiləsinin formaları

A81. Qrup auditoru ilə bölmə auditorları arasında məlumat mübadiləsinin forması bölmə auditorlarından yerinə yetirmələri tələb olunan audit işinin xüsusiyyəti və məlumatvermə imkanlarının qrup auditi üçün istifadə edilən audit alətlərinə nə dərəcədə inteqrasiya olunduğu kimi amillərdən asılı olaraq dəyişə bilər.

A82. Məlumat mübadiləsinin formasına aşağıdakı kimi amillər də təsir göstərə bilər:

- məsələnin əhəmiyyəti, mürəkkəbliyi və ya aktuallığı;
- məsələ haqqında qrup rəhbərliyinə və qrupun idarəetməyə məsul şəxslərinə məlumat verilməsi və ya məlumat veriləcəyinin ehtimal olunduğu.

A83. Qrup auditoru ilə bölmə auditoru arasında məlumat mübadiləsi yazılı şəkildə olmaya bilər. Bununla belə, qrup auditoru müəyyən məsələlərə xüsusi diqqət yetirmək və ya qarşılıqlı anlaşma əldə etmək istədikdə, qrup auditorunun bölmə auditorları ilə şifahi məlumat mübadiləsi yerinə yetiriləcək işə dair təlimatlar toplusu kimi yazılı məlumat mübadiləsi ilə tamamlana bilər. Bundan əlavə, qrup auditoru mühüm məsələləri müzakirə etmək və ya bölmə auditorunun auditin sənədləşdirilməsinin müvafiq hissələrini təhlil etmək üçün bölmə auditoru ilə görüşə bilər.

A84. 45-ci paraqrafa uyğun olaraq, qrup auditorundan tələb olunur ki, qrup auditorunun gəldiyi nəticəyə aid olan məsələlər barədə məlumat versin. A146-cı paraqrafda izah edildiyi kimi, bölmə auditorunun işinin nəticələrinin forma və məzmununa bölmə auditorundan yerinə yetirməsi tələb olunan audit işinin xüsusiyyəti və həcmi təsir göstərir.

A85. Məlumat mübadiləsinin formasından asılı olmayaraq, bu və digər BAS-ların sənədləşdirilmə tələbləri şamil olunur.

Məlumat mübadiləsinin müddəti

A86. Məlumat mübadiləsinin müvafiq müddəti tapşırığın şəraitlərindən asılı olaraq dəyişir. Müvafiq şəraitlərə bölmə auditoru tərəfindən görüləcək işin xüsusiyyəti, müddəti və həcmi, habelə bölmə auditoru tərəfindən görülməsi gözlənilən tədbirlər daxil ola bilər. Məsələn, planlaşdırma məsələləri ilə bağlı məlumat mübadiləsi çox vaxt audit tapşırığının əvvəlində aparıla bilər, ilkin qrup auditi üçün isə tapşırığın şərtlərinin razılaşdırılması çərçivəsində aparıla bilər.

Qanun və qaydalara riayətetməmə (İst: Paraq. 25, 29)

A87. 250 saylı (düzəliş edilmiş) BAS-a[68] uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşına qanun və ya qaydalara faktiki və ya ehtimal edilən riayətetməmə halları məlum ola bilər. Belə şəraitdə, qrupun tapşırıq üzrə tərəfdaşının müvafiq etik normalara, qanunlara və ya qaydalara uyğun olaraq məsələni bölmə auditoruna çatdırmaq öhdəliyi ola bilər.[69] Qrupun tapşırıq üzrə tərəfdaşının faktiki və ya ehtimal edilən riayətetməmə barədə məlumat vermək öhdəliyi qanun, qaydalar ilə və ya başqa səbəbə görə auditin aparılması tələb olunan, lakin qrup auditi məqsədilə heç bir audit işinin aparılmadığı müəssisələrin və ya struktur bölmələrin maliyyə hesabatlarının auditorlarına şamil oluna bilər.

**Qrupun, onun mühitinin, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin və qrupun daxili nəzarət sisteminin öyrənilməsi** (İst: Paraq. 30)

A88. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-da [70] auditorun müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi barədə anlayış əldə etmək məsuliyyəti ilə bağlı tələblər və təlimatlar təqdim olunur. Bu BAS-ın 2 saylı Əlavəsində qrupun mühiti kontekstində daxili nəzarət sistemi barədə anlayışın əldə edilməsində məqsədəuyğun ola biləcək, daxili nəzarətlə bağlı məsələlərə dair nümunələr təqdim olunur və 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ın qrup maliyyə hesabatlarının auditinə necə tətbiq ediləcəyi qeyd edilir.

A89. Qrup və onun ətraf mühiti, tətbiq olunan maliyyə hesabatı çərçivəsi və qrupun daxili nəzarət sistemi barədə anlayışı onlarla məlumat mübadiləsi vasitəsilə əldə etmək olar:

- qrup rəhbərliyi, bölmə rəhbərliyi və ya müəssisə daxilində digər müvafiq şəxslər, o cümlədən daxili audit xidmətində olan şəxslər (əgər xidmət mövcuddursa) və qrupun daxili nəzarət sistemi, uçot siyasəti və təcrübəsi, habelə konsolidasiya prosesi haqqında biliyi olan şəxslər;
- bölmə auditorları; yaxud
- qanun və qaydalara uyğun olaraq və ya digər səbəblərə görə qrupun bir hissəsi olan müəssisənin və ya struktur vahidinin maliyyə hesabatlarının auditini aparan auditorlar.

A90. Qrup barədə anlayışın əldə edilməsi, əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi, habelə tərkib riskinin və nəzarət riskinin qiymətləndirilməsi üstünlük verilən audit metodları və ya metodologiyalarından asılı olaraq müxtəlif yollarla həyata keçirilə bilər və müxtəlif yollarla ifadə edilə bilər. Müvafiq olaraq, bölmə auditorları risklərin qiymətləndirilməsi prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsində iştirak etdikdə, qrup auditoruna üstünlük verdiyi yanaşma

---

68 250 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" BAS

69 bax: məsələn, Mühasiblərin Beynəlxalq Etika Standartları Komitəsinin "Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsi" *(*o cümlədən beynəlxalq müstəqillik standartları*)* (IESBA Məcəlləsi), R360.17 və R360.18 paraqrafları

70 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 19–27-ci paraqraflar, A50–A183 paraqrafları

haqqında bölmə auditorları ilə məlumat mübadiləsi aparmaq və ya göstərişlər vermək lazım ola bilər.

*İştirak qrupunda müzakirə* (İst: Paraq. 30)

A91. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[71] uyğun olaraq qrupun tapşırıq üzrə tərəfdaşı və tapşırıq qrupunun digər əsas üzvləri maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tətbiq edilməsini və qrup maliyyə hesabatlarının əhəmiyyətli təhriflərə meylliyini müzakirə etməlidirlər. Müzakirədə iştirak edəcək tapşırıq qrupunun üzvlərinin seçilməsi və müzakirə ediləcək mövzular ilə bağlı qrupun tapşırıq üzrə tərəfdaşının qərarına əhəmiyyətli təhrif riskləri ilə bağlı ilkin gözləntilər və bölmə auditorlarının cəlb ediləcəyinə dair ilkin gözləntilər kimi məsələlər təsir göstərir.

A92. Müzakirə aşağıdakıları etməyə imkan verir:

- bölmələr və onların mühitləri, o cümlədən bölmənin mərkəzləşdirilmiş fəaliyyəti barədə bilikləri paylaşmaq;
- bölmələrin və ya qrupun biznes riskləri, habelə tərkib risk amillərinin əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaların təhriflərə meylliyinə necə təsir göstərə biləcəyi barədə məlumat mübadiləsi aparmaq;
- qrup maliyyə hesabatlarının dələduzluq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərə necə və harada meylli ola biləcəyi barədə fikir mübadiləsi aparmaq. 240 saylı BAS-ın[72] tələblərinə uyğun olaraq, tapşırıq qrupunun müzakirəsində dələduzluğun necə baş verə biləcəyi də daxil olmaqla, müəssisənin maliyyə hesabatlarının dələduzluq səbəbindən əhəmiyyətli təhriflərə necə və harada meylli ola biləcəyinə xüsusi diqqət yetirilməlidir;
- qrup və ya bölmə rəhbərliyinin riayət etdiyi, qeyri-obyektiv ola bilən və ya maliyyə hesabatlarının saxtalaşdırılmasına səbəb ola biləcək qazanc göstəricilərini idarə etmək üçün nəzərdə tutulan siyasətləri müəyyən etmək;
- qrup rəhbərliyinə, bölmə rəhbərliyinə və ya digər şəxslərə dələduzluq etmək üçün stimul və ya təzyiq yarada bilən, dələduzluğun törədilməsinə imkan yarada bilən, yaxud qrup rəhbərliyinə, bölmə rəhbərliyinə və ya digər şəxslərə dələduzluğu məntiqlə əsaslandırmağa imkan verən mədəniyyət və ya mühitin mövcud olmasını bildirən və qrupa təsir edən məlum kənar və daxili amilləri nəzərdən keçirmək;
- qrup və ya bölmə rəhbərliyi tərəfindən nəzarət vasitələrinə diqqət verməmə riskini nəzərdən keçirmək;
- müəyyən edilmiş dələduzluğu, yaxud dələduzluğun mövcudluğunu bildirən məlumatları müzakirə etmək;
- peşəkar inamsızlığın tətbiq edilməsinə mane ola biləcək amillərin olduğu bölmələrə aid əhəmiyyətli təhrif risklərini müəyyən etmək;
- qrup maliyyə hesabatları üçün bölmələrin maliyyə məlumatlarını hazırlamaq məqsədilə vahid uçot siyasətindən istifadə edilib-edilmədiyini və istifadə edilmədiyi halda, uçot siyasətlərindəki fərqlərin necə müəyyən edildiyini və düzəliş edildiyini (maliyyə hesabatlarının tətbiq olunan

[71] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 17-ci paraqraf

[72] 240 saylı BAS, 16-cı paraqraf

çərçivələri ilə tələb edildikdə) nəzərdən keçirmək;

- digər bölmələrin bəzilərinə və ya hamısına daha geniş tətbiq oluna bilən bölmənin maliyyə məlumatlarının əhəmiyyətli təhrif riskləri barədə məlumatı paylaşmaq;
- milli qanun və ya qaydalara riayətetməmə, məsələn, rüşvətvermə və düzgün olmayan transfer qiymətqoyma hallarını bildirən məlumatları paylaşmaq;
- qrup rəhbərliyi, bölmə rəhbərliyi və ya tapşırıq qrupu tərəfindən müəyyən edilmiş və qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına ala biləcək hadisələri və ya şəraitləri müzakirə etmək;
- qrup rəhbərliyi və ya bölmə rəhbərliyi tərəfindən müəyyən edilmiş əlaqəli tərəflərlə münasibətləri və ya əməliyyatları, habelə tapşırıq qrupuna məlum olan hər hansı digər əlaqəli tərəfləri müzakirə etmək.

*Qrup və onun mühiti* (İst: Paraq. 30 (a))

A93. Qrupun təşkilati strukturu və onun biznes modeli barədə anlayışın əldə edilməsi qrup auditoruna aşağıdakı kimi məsələlər barədə anlayış əldə etməyə imkan verə bilər:

- qrupun strukturunun mürəkkəbliyi. Qrup tək müəssisədən daha mürəkkəb ola bilər, çünki qrupun bir neçə törəmə müəssisəsi, bölmələri və ya digər struktur vahidləri, o cümlədən bir neçə məkanda ola bilər. Həmçinin, qrupun hüquqi strukturu, məsələn, vergi məqsədləri üçün əməliyyat strukturundan fərqli ola bilər. Mürəkkəb strukturlarda çox vaxt qudvil, birgə müəssisələrin və ya xüsusi təyinatlı müəssisələrin müvafiq şəkildə uçota alınıb-alınmaması və açıqlamaların lazımi qaydada edilib-edilməməsi kimi əhəmiyyətli təhriflərə meyliliyin artmasına səbəb ola biləcək amillər olur;
- qrupun fəaliyyət göstərdiyi coğrafi mövqelər. Qrupun bir neçə coğrafi mövqedə olması əhəmiyyətli təhriflərə meyliliyin artmasına səbəb ola bilər. Məsələn, müxtəlif coğrafi mövqelərdə dil, mədəniyyət və biznes praktikası fərqli ola bilər;
- qrupun İT mühitinin strukturu və mürəkkəbliyi. Mürəkkəb İT mühitində çox vaxt əhəmiyyətli təhriflərə meyliliyin artmasına səbəb ola biləcək amillər olur. Məsələn, son vaxtlarda satınalmalar və ya birləşmələr səbəbindən inteqrasiya olunmayan çoxsaylı İT sistemlərinə görə qrupun İT mühiti mürəkkəb ola bilər. Buna görə də, İT mühitinin təhlükəsizlik sisteminin mürəkkəbliyi, o cümlədən İT proqramlarının, verilənlər bazalarının və İT mühitinin digər aspektlərinin zəif cəhətləri barədə anlayış əldə etmək xüsusilə vacib ola bilər. Qrup həmçinin İT mühitinin aspektləri üçün bir və ya bir neçə kənar xidmət təminatçısından istifadə edə bilər;
- müvafiq tənzimləyici amillər, o cümlədən tənzimləyici mühit. Müxtəlif qanun və ya qaydalara görə əhəmiyyətli təhriflərə meyliliyin artmasına səbəb ola biləcək amillər təqdim edilə bilər. Qrupun əməliyyatlarına bir çox yurisdiksiyalarda yüksək dərəcədə mürəkkəb qanun və ya qaydalar, yaxud bir çox sahələrdə fəaliyyət göstərən müəssisə və ya struktur vahidlərinə müxtəlif növ qanun və ya qaydalar şamil oluna bilər;
- mülkiyyət hüququ, habelə mülkiyyətçi ilə digər şəxslər və ya müəssisələr, o cümlədən əlaqəli tərəflər arasında münasibətlər. Bir çox yurisdiksiyalarda fəaliyyət göstərən qrupda və yaradılma, satınalma, satılma və ya birgə müəssisə vasitəsilə mülkiyyət hüququnda dəyişikliklər olduqda mülkiyyət hüququ və münasibətlər barədə anlayışın əldə edilməsi daha mürəkkəb ola bilər. Bu amillər əhəmiyyətli təhriflərə meyliliyin artmasına səbəb ola bilər.

A94. Qrupun əməliyyat və ya fəaliyyətlərinin oxşarlıq dərəcəsi barədə anlayışın əldə edilməsi bölmələr arasında əhəmiyyətli təhriflərin oxşar risklərini müəyyən etməyə və müvafiq cavab tədbirləri hazırlamağa kömək edə bilər.

A95. Müəssisələrin və ya struktur vahidlərinin maliyyə nəticələri adətən qrup rəhbərliyi tərəfindən ölçülür və təhlil edilir. Qrup rəhbərliyinə ünvanlanan sorğular nəticəsində aşkar oluna bilər ki, qrupun tərkibindəki müəssisələrin və struktur vahidlərinin maliyyə nəticələrini qiymətləndirmək və tədbirlər görmək üçün qrup rəhbərliyi müəyyən əsas göstəricilərə əsaslanır. Bu cür fəaliyyət göstəriciləri barədə anlayış aşağıdakıları müəyyən etməyə kömək edə bilər:

- əhəmiyyətli təhriflərə meyliliyin artdığı sahələr (məs., müəyyən fəaliyyət göstəricilərinə nail olmaq üçün bölmə rəhbərliyinə təzyiqlər səbəbindən);
- qrupun maliyyə hesabatlılığı prosesi üçün nəzarət vasitələri.

*Qrupun daxili nəzarət sistemi*

Nəzarət vasitələrinin vahidliyinin xüsusiyyəti və dərəcəsi (İst: Paraq. 30(c)(i))

A96. Qrup rəhbərliyi bir neçə müəssisə və ya struktur vahidində ümumi şəkildə fəaliyyət göstərməsi nəzərdə tutulan nəzarət vasitələrini (yəni, ümumi nəzarət vasitələri) hazırlaya bilər. Məsələn, qrup rəhbərliyi eyni İT sistemindən istifadə edərək fəaliyyət göstərən və qrupun tərkibindəki bütün müəssisələr və ya struktur vahidlərində ehtiyatların idarə edilməsi üçün ümumi nəzarət vasitələri hazırlaya bilər. Ümumi nəzarət vasitələri qrupun daxili nəzarət sisteminin hər bir bölməsində mövcud ola bilər və onlar qrup daxilində müxtəlif səviyyələrdə tətbiq edilə bilər (məs., bütövlükdə konsolidə edilmiş qrup səviyyəsində və ya qrup daxilində cəmlənmənin digər səviyyələrində). Ümumi nəzarət vasitələri bilavasitə və ya dolayı ola bilər. Bilavasitə nəzarət vasitələri təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərini azaltmaq üçün kifayət qədər dəqiq olan nəzarət vasitələridir. Dolayı nəzarət vasitələri bilavasitə nəzarət vasitələrini dəstəkləyən nəzarət vasitələridir.[73]

A97. Qrupun daxili nəzarət sisteminin bölmələri barədə anlayışın əldə edilməsinə qrupun tərkibindəki həmin bölmələr daxilində nəzarət vasitələrinin vahidliyi haqqında anlayışın əldə edilməsi daxildir. Qrupdakı nəzarət vasitələrinin vahidliyi barədə anlayışın əldə edilməsi üçün müvafiq ola biləcək mülahizələrə aşağıdakılar daxildir:

- nəzarət vasitəsi mərkəzləşdirilmiş şəkildə hazırlanmışdırmı və bəzi və ya bütün bölmələrdə onun hazırlandığı kimi (yəni dəyişdirilmədən) tətbiq edilməsi tələb olunurmu;
- nəzarət vasitəsi tətbiq edilmişdirmi və müvafiq hallarda, nəzarət vasitəsi tətbiq edildiyi bütün bölmələrdə məsuliyyət və bacarıqları oxşar olan şəxslər tərəfindən nəzarət edilirmi;
- nəzarət vasitəsi İT proqramlarından əldə edilən məlumatları istifadə etdiyi halda, məlumatları yaradan İT proqramları və İT mühitinin digər aspektləri bölmələrdə və ya məkanlarda eynidirmi; yaxud
- nəzarət vasitəsi avtomatlaşdırıldığı halda, o, bölmələrdəki hər bir İT proqramında konfiqurasiya eynidirmi.

A98. Nəzarət vasitəsinin ümumi olub-olmadığını müəyyən etmək üçün çox vaxt mühakimə yürütmək tələb oluna bilər. Məsələn, qrup rəhbərliyi tələb edə bilər ki, bütün müəssisələr və struktur vahidləri

[73] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, A5 paraqrafı

xüsusi İT proqramında yaradılan müştərilərin hesablarının ödəmə müddətinə görə təsnifləşdirməsini hər ay etsinlər. Ödəmə müddəti üzrə hesabatlar müxtəlif İT proqramlarında yaradıldıqda, yaxud müəssisələr və ya struktur vahidlərində İT proqramı fərqli tətbiq edildikdə, nəzarət vasitəsinin ümumi olduğunu müəyyən etmək mümkün olub-olmadığını nəzərdən keçirmək zərurəti yarana bilər. Bunun səbəbi, müxtəlif İT proqramlarının mövcud olması (məs., İT proqramının konfiqurasiyasının bütün bölmələrdə eyni olub-olmaması, habelə müxtəlif İT proqramlarında effektiv ümumi İT nəzarət vasitələrinin olub-olmaması) sayəsində nəzarət vasitəsinin strukturundakı fərqlərdir.

A99. Məlumatların necə işlənib nəzarət edilməsi barədə anlayış əldə etmək üçün qrup daxilində nəzarət vasitələrinin tətbiq edildiyi səviyyəni (məs., bütövlükdə konsolidə edilmiş qrup səviyyəsində və ya qrup daxilində digər cəmlənmə səviyyələri üçün), habelə mərkəzləşmə və vahidlik dərəcəsini nəzərdən keçirmək vacib ola bilər. Bəzi şəraitlərdə, nəzarət vasitələri mərkəzləşdirilmiş şəkildə tətbiq edilərək (yalnız bir müəssisə və ya struktur vahidində tətbiq edilir), digər müəssisələrə və ya struktur vahidlərinə nüfuzedici təsir göstərə bilər (məs., qrup daxilində digər müəssisələr və ya struktur vahidləri adından əməliyyatları emal edən ortaq xidmət mərkəzi). Əməliyyatların və əlaqəli nəzarət vasitələrinin ortaq xidmət mərkəzində emal edilməsi, müəssisə və ya struktur vahidindən asılı olmayaraq, ortaq xidmət mərkəzi tərəfindən emal edilən əməliyyatlar üçün eyni ola bilər (məs., əməliyyatın mənbəyindən asılı olmayaraq, proseslər, risklər və nəzarət vasitələri eyni ola bilər). Belə hallarda, nəzarət vasitələrini müəyyən etmək, onların strukturunu qiymətləndirmək və nəzarət vasitələrinin necə tətbiq edildiyini müəyyən etmək, habelə, müvafiq hallarda, məcmu halında əməliyyat effektivliyini test etmək məqsədəuyğun ola bilər.

Mərkəzləşdirilmiş fəaliyyət (İst. Paraq. 30(c)(i)–(ii))

A100. Qrup rəhbərliyi bəzi fəaliyyət növlərini mərkəzləşdirə bilər, məsələn, maliyyə hesabatlılığı və ya mühasibat uçotu funksiyaları bir neçə müəssisə və ya struktur vahidləri üçün ardıcıl və mərkəzləşdirilmiş qaydada ümumi əməliyyatların xüsusi qrupu və ya digər maliyyə məlumatları üçün yerinə yetirilə bilər (məs., gəlirlə bağlı əməliyyatların başladılması, avtorizasiyası, uçotu, işlənməsi və ya hesabatlarda təqdim edilməsi ortaq xidmət mərkəzində həyata keçirilir).

A101. Mərkəzləşdirilmiş fəaliyyət növlərinin ümumi qrup strukturuna necə uyğunlaşdığı və həyata keçirilən fəaliyyət növlərinin xüsusiyyəti barədə anlayışın əldə edilməsi əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsinə və qiymətləndirilməsinə, habelə bu cür risklərə qarşı lazımi cavab tədbirlərinin görülməsinə kömək edə bilər. Məsələn, ortaq xidmət mərkəzindəki nəzarət vasitələri digər nəzarət vasitələrindən asılı olmadan fəaliyyət göstərə bilər, yaxud maliyyə məlumatlarının əldə edildiyi müəssisə və ya struktur vahidindəki nəzarət vasitələrindən asılı ola bilər (məs., satış əməliyyatları müəssisə və ya struktur vahidində başladıla və avtorizasiya edilə bilər, lakin ortaq xidmət mərkəzində emal oluna bilər).

A102. Qrup auditoru ümumi nəzarət vasitələrinin və ya mərkəzləşdirilmiş fəaliyyət növləri ilə bağlı nəzarət vasitələrinin əməliyyat effektivliyini test etmək üçün bölmə auditorlarını cəlb edə bilər. Belə şəraitdə qrup auditoru ilə bölmə auditorları arasında səmərəli əməkdaşlıq vacibdir, çünki ümumi nəzarət vasitələrinin və ya mərkəzləşdirilmiş fəaliyyət növləri ilə bağlı nəzarət vasitələrinin əməliyyat effektivliyinin test edilməsi nəticəsində əldə edilən audit sübutları yerinə yetiriləcək mahiyyəti üzrə yoxlama prosedurlarının xüsusiyyətini, müddətini və həcmini müəyyən etməyə kömək edir.

Qrup maliyyə hesabatlarının hazırlanmasına kömək edən əhəmiyyətli məsələlər barədə məlumat mübadiləsi (İst: Paraq. 30(c)(iv))

A103. Qrupun tərkibindəki müəssisələr və ya struktur vahidlərinin qanun və qaydaların tələblərinə görə və ya digər səbəblərə görə istifadə etdikləri maliyyə hesabatları çərçivələri qrup maliyyə hesabatları üçün istifadə edilən maliyyə hesabatları çərçivələrindən fərqli ola bilər. Belə şəraitdə, uçot siyasətini və müvafiq olduqda, qrupun tətbiq etdiyi tarixlərdən fərqli olan hesabat dövrünün başaçatma tarixlərini uyğunlaşdırmaq üçün qrup rəhbərliyi tərəfindən tətbiq edilən maliyyə hesabatlılığı prosesləri barədə anlayışın əldə edilməsi qrup auditoruna imkan verir ki, düzəlişlərin, üzləşdirmələrin və yenidən təsnifləşdirmələrin necə edildiyi və istər qrup rəhbərliyi, istərsə də müəssisə və ya struktur vahidi tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilib-keçirilmədiyi barədə anlayış əldə etsin.

Qrup rəhbərliyi tərəfindən müəssisələrə və ya struktur vahidlərinə verilən göstərişlər

A104. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[74] uyğun olaraq, qrup auditoru qrup rəhbərliyinin qrup maliyyə hesabatlarının hazırlanmasını dəstəkləyən mühüm məsələləri necə çatdırdığı barədə anlayış əldə etməlidir. Maliyyə məlumatlarının vahidliyini və müqayisəliliyini təmin etmək üçün qrup rəhbərliyi maliyyə hesabatlılığı prosesləri haqqında təfərrüatları özündə əks etdirən və ya qrupda ümumi siyasətləri olan müəssisələr və ya struktur vahidləri üçün göstərişlər verə bilər (məs., maliyyə hesabatlılığı siyasəti barədə məlumat verə bilər). Qrup rəhbərliyinin göstərişləri barədə anlayışın əldə edilməsi qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsinə və qiymətləndirilməsinə təsir göstərə bilər. Məsələn, qeyri-adekvat göstərişlər əməliyyatların düzgün uçota alınmaması və ya işlənməməsi, yaxud uçot siyasətinin düzgün tətbiq edilməməsi riski səbəbindən təhriflərin mövcudolma ehtimalını artıra bilər.

A105. Qrup auditorunun göstərişlər və ya siyasətlər barədə anlayışı aşağıdakıları ehtiva edə bilər:

- hesabatlılıq paketini doldurmaq üçün göstərişlərin aydınlığı və praktiki baxımdan mümkünlüyü;
- göstərişlər:
    - maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin xüsusiyyətlərini və tətbiq ediləcək uçot siyasətini müvafiq şəkildə təsvir edir;
    - tətbiq olunan maliyyə hesabatlarının çərçivələrinin tələblərinə cavab vermək üçün yetərli olan açıqlamaların hazırlanması üçün lazım olan məlumatları, məsələn, əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlar, habelə seqment haqqında açıqlanan məlumatları əks etdirir;
    - konsolidasiyaya ilə bağlı, məsələn, qrupdaxili əməliyyatlar və reallaşdırılmamış mənfəət, habelə qrupdaxili hesab qalıqları üzrə düzəlişlər etmək üçün lazım olan məlumatları əks etdirir; habelə
    - hesabatvermə cədvəlini daxil edir.

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr* (İst: Paraq. 31–32)

A106. Qrup auditi aparılarkən qrup auditoru 31-ci paraqrafında qeyd edilən məsələlər haqqında, əgər bu məsələlər həmin bölmə auditorlarının işinə aid olarsa, digər bölmə auditorlarına məlumat verə bilər.

[74] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 25(b) paraqrafı

A144-cü paraqraf bölmə auditoru işi yerinə yetirərkən vaxtında bildirilməli ola biləcək digər məsələlərin nümunələrini ehtiva edir.

A107. Əlaqəli tərəflərlə münasibətlərin və əməliyyatların xüsusiyyəti bəzi şəraitlərdə əlaqəli olmayan tərəflərlə aparılan əməliyyatlara nisbətən maliyyə hesabatlarında daha yüksək əhəmiyyətli təhrif risklərinə səbəb ola bilər[75]. Qrup auditində dələduzluğa görə olanlar da daxil olmaqla, əlaqəli tərəflərlə münasibətlərlə bağlı qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif riski aşağıdakı hallarda daha yüksək ola bilər:

- qrupun strukturu mürəkkəb olduqda;
- qrupun informasiya sistemləri inteqrasiya olunmadıqda və buna görə də əlaqəli tərəflərlə münasibətlərin və əməliyyatların müəyyən edilməsində və uçota alınmasında daha az effektiv olduqda; habelə
- müəssisələr ilə struktur vahidləri arasında əlaqəli tərəflərlə çoxlu sayda və ya tez-tez aparılan əməliyyatlar olduqda.

Bu səbəbdən 200 saylı BAS-ın[76] tələblərinə uyğun olaraq, auditin peşəkar inamsızlıqla planlaşdırılması və aparılması bu hallar mövcud olduqda xüsusilə vacibdir.

**Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi** (İst: Paraq. 33)

A108. Qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi təkrarlanan və dinamik prosesdir, xüsusən də bölmənin fəaliyyəti mürəkkəb və ya ixtisaslaşmış olduqda, yaxud bir çox məkanda çoxlu bölmələr olduqda çətin ola bilər. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ın[77] tələblərinə uyğun olaraq, auditor qrup və onun ətraf mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və qrupun daxili nəzarət sistemi barədə anlayışları əsasında mümkün olan əhəmiyyətli təhrif riskləri və qrup maliyyə hesabatlarında əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaların ilkin olaraq müəyyən edilməsi ilə bağlı ilkin gözləntilərini hazırlayır.

A109. Mümkün olan əhəmiyyətli təhrif riskləri ilə bağlı ilkin gözləntilərin formalaşdırılmasında auditorun qrup, o cümlədən onun müəssisələri və ya struktur vahidlərinin fəaliyyəti, habelə onların fəaliyyət göstərdiyi mühit və sahələr barədə anlayışı nəzərə alınır. İlkin gözləntilər əsasında qrup auditoru risklərin qiymətləndirilməsi prosedurlarına bölmə auditorlarını cəlb edə bilər və çox vaxt da cəlb edir, çünki bölmə auditorları bu müəssisələr və ya struktur vahidləri ilə əlaqəli bilavasitə bilik və təcrübəyə malik ola bilərlər. Bu cür məlumatlar fəaliyyət və onunla bağlı risklər barədə anlayışın əldə edilməsi, habelə həmin müəssisələr və ya struktur vahidləri ilə bağlı yarana bilən qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin hansı sahədə yarana biləcəyinə dair anlayışın əldə edilməsi üçün məqsədəuyğun ola bilər.

A110. Təsdiqləmə səviyyəsində müəyyən edilmiş əhəmiyyətli təhrif riskləri üçün qrup auditorundan tərkib riskinin qiymətləndirilməsinə görə məsuliyyət daşıması tələb olunur. Bu cür qiymətləndirmə aşağıdakıların necə və hansı dərəcədə olmasını nəzərə alan təhrifin ehtimal və miqyasının qiymətləndirilməsini əhatə edir:[78]

---

[75] 550 saylı BAS, 2-ci paraqraf

[76] 200 saylı BAS, 15-ci paraqraf

[77] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, A126 paraqrafı

[78] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 31-ci paraqraf

- tərkib risk amilləri müvafiq təsdiqlərin təhrif edilməyə meylliyinə təsir göstərir;
- qrup maliyyə hesabatları səviyyəsində əhəmiyyətli təhrif riskləri təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif riskləri üçün tərkib riskinin qiymətləndirilməsinə təsir göstərir.

A111. Yerinə yetirilmiş risklərin qiymətləndirilməsi prosedurları əsasında qrup auditoru müəyyən edə bilər ki, qrup maliyyə hesabatlarında qiymətləndirilmiş əhəmiyyətli təhrif riski yalnız müəyyən bölmələrin maliyyə məlumatlarına münasibətdə yaranır. Məsələn, hüquqi iddia ilə bağlı əhəmiyyətli təhrif riski yalnız müəyyən yurisdiksiyada fəaliyyət göstərən müəssisə və ya struktur vahidlərində, yaxud əməliyyatları və ya fəaliyyəti oxşar olan müəssisə və ya struktur vahidlərində mövcud ola bilər.

A112. Əlavə 3-də ayrılıqda və ya birlikdə qrup maliyyə hesabatlarının dələduzluq və ya səhv nəticəsində, o cümlədən konsolidasiya prosesi ilə bağlı əhəmiyyətli təhrif risklərini bildirən hadisə və şəraitlərin nümunələri verilir.

*Dələduzluq*

A113. 240 saylı BAS-ın[79] tələblərinə uyğun olaraq, auditor dələduzluq nəticəsində maliyyə hesabatlarında əhəmiyyətli təhriflər riskini müəyyən etməli və qiymətləndirməli, habelə xüsusiyyəti, müddəti və həcminə görə təsdiqləmə səviyyəsində dələduzluq nəticəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri olan əlavə audit prosedurlarını işləyib hazırlamalı və həyata keçirməlidir. Dələduzluq nəticəsində qrup maliyyə hesabatlarında əhəmiyyətli təhriflər riskini müəyyən etmək üçün istifadə edilən məlumatlara aşağıdakılar daxil ola bilər:

- qrup rəhbərliyi tərəfindən qrupun maliyyə hesabatlarının dələduzluq nəticəsində əhəmiyyətli təhrif oluna bilməsi ilə bağlı riskin qiymətləndirilməsi;
- qrup maliyyə hesabatlarında dələduzluq risklərinin, o cümlədən qrup rəhbərliyi tərəfindən müəyyən edilmiş xüsusi dələduzluq risklərinin, yaxud dələduzluq riskinin daha yüksək olduğu hesab qalıqları, əməliyyatların kateqoriyaları və ya məlumatların açıqlanmasının müəyyən edilməsi və onlara qarşı tədbirlərin görülməsi üçün qrup rəhbərliyinin tətbiq etdiyi proses;
- dələduzluq nəticəsində əhəmiyyətli təhrif riskinə meyliliyi daha çox olan konkret bölmələrin mövcudluğu;
- konsolidasiya prosesində dələduzluq riski amillərinin və ya rəhbərliyin qeyri-obyektivliyinin əlamətlərinin olub-olmaması;
- qrupda dələduzluq risklərinin müəyyən edilməsi və onlara qarşı cavab tədbirlərinin görülməsi üçün qrup rəhbərliyinin tətbiq etdiyi prosesin, habelə bu riskləri azaltmaq üçün qrup rəhbərliyinin müəyyən etdiyi nəzarət vasitələrinin monitorinqini qrupun idarəetməyə məsul şəxsləri necə həyata keçirir;
- bölməyə və ya qrupa təsir göstərən faktiki, ehtimal edilən və ya şübhə edilən dələduzluq hallarından xəbərdar olub-olmaması haqqında qrup auditorunun sorğusuna qrupun idarəetməyə məsul şəxslərinin, qrup rəhbərliyinin, daxili audit xidməti daxilində müvafiq şəxslərin (və zəruri hallarda, bölmə rəhbərliyinin, bölmə auditorlarının və digər şəxslərin) cavabları.

---

[79] 240 saylı BAS, 26, 31-ci paraqraflar

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr* (İst: Paraq. 34)

A114. Qrup auditoru risklərin qiymətləndirilməsi prosedurlarının hazırlanmasına və yerinə yetirilməsinə bölmə auditorlarını cəlb etdikdə, 33-cü paraqrafa uyğun olaraq qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün yetərli əsasın olması məqsədilə qrup və onun ətraf mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və qrupun daxili nəzarət sistemi barədə anlayış əldə etmək üçün qrup auditoru məsuliyyət daşıyır.

A115. Riskin qiymətləndirilməsi prosedurlarının yerinə yetirilməsi nəticəsində əldə edilmiş audit sübutları əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün müvafiq əsas təmin etmədikdə, 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[80] uyğun olaraq, belə bir əsas təmin edilməyənə qədər, auditor əlavə risklərin qiymətləndirilməsi prosedurlarını yerinə yetirməlidir.

**Əhəmiyyətlilik**

*Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik* (İst: Paraq. 35(a))

A116. 35-ci(a) paraqrafına uyğun olaraq, qrup auditoru bölünmüş maliyyə məlumatları üzrə audit prosedurlarının yerinə yetirildiyi bölmələrin hər biri üçün bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyi müəyyən etməlidir. Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin səviyyəsi hər bölmə üçün fərqli ola bilər. Həmçinin, ayrı bölmə üçün Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyinin səviyyəsi qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyinin riyazi hesablanması lazım deyil və nəticə etibarı ilə, bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik məbləğlərinin cəmlənməsi qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyindən artıq ola bilər.

A117. Bu BAS-a əsasən audit prosedurlarının yerinə yetirildiyi bölmələr üçün hər bir xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar, komponentlər, bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin müəyyən edilməsini tələb edilmir. Bununla belə əgər qrupun xüsusi şəraitində bir və ya bir neçə xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar mövcud olduqda və onlar üçün qrup maliyyə hesabatları əsasında isitifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara bütövlükdə qrup maliyyə hesabatları üçün əhəmiyyətlilikdən daha az məbləğdə təhriflərin təsir göstərəcəyi ehtimal etdiyi halda, 320 saylı BAS-ın[81] tələblərinə uyğun olaraq, həmin xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalara şamil olunacaq əhəmiyyətlilik səviyyəsi və ya səviyyələri müəyyən edilməlidir. Bu şəraitdə lazım ola bilər ki, qrup auditoru bölmə auditoruna bildirilən məbləğdən aşağı olan bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin həmin xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün uyğun olub-olmadığını nəzərdən keçirsin.[82]

A118. Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin müəyyən edilməsi sadə mexaniki hesablama deyil və peşəkar mühakimənin yürüdülməsini nəzərdə tutur. Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyi təyin edərkən qrup auditorunun nəzərə ala biləcəyi amillərə aşağıdakılar daxildir:

- Maliyyə məlumatlarının bölmələr üzrə bölünmə dərəcəsi (məs., bölmələr üzrə bölünmə dərəcəsi artdıqca, təhriflərin aqreqasiya riskini nəzərə almaq üçün adətən bölmənin audit

[80] 315 saylı (düzəliş edilmiş) BAS, 35-ci paraqraf

[81] 320 saylı BAS, 10-cu paraqraf və A11-A12 paraqrafları

[82] 320 saylı BAS, A13 paraqrafı

prosedurlarının yerinə yetirilməsi üçün daha az əhəmiyyətlilik səviyyəsi təyin edilməlidir). Qrup üçün bölmənin nisbi əhəmiyyətliliyi bölünmə dərəcəsinə təsir edə bilər (məs., bir bölmə qrupun böyük bir hissəsini təşkil edirsə, bölmələr üzrə daha az bölünmə ola bilər).

- Bölmənin maliyyə məlumatlarındakı təhriflərin xüsusiyyəti, tezliyi və miqyası ilə bağlı gözləntilər. Məsələn:
  - bölmənin maliyyə məlumatlarına xas olan risklərin olub-olmaması (məs., sahəyə aid uçot məsələləri, qeyri-adi və ya mürəkkəb əməliyyatlar).
  - əvvəlki auditlərdə bölmələrdə müəyyən edilmiş təhriflərin xüsusiyyəti və həcmi.

A119. Təhriflərin aqreqasiya riskini nəzərə almaq üçün 35(a) paraqrafına uyğun olaraq, bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyindən aşağı olmalıdır. A118 paraqrafında izah edildiyi kimi, bölmələr üzrə bölünmənin dərəcəsi artdıqca, təhriflərin aqreqasiya riskini nəzərə almaq üçün, bir qayda olaraq, bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin məbləği daha az olsa məqsədəuyğun olardı. Bununla belə, bəzi şəraitlərdə, bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin məbləğinə yaxın müəyyən edilə bilər, çünki məsələn, bir bölmə üzrə maliyyə məlumatları qrup maliyyə hesabatlarının əhəmiyyətli hissəsini təşkil etdiyi haldakı kimi, təhriflərin aqreqasiya riski daha az olur. İştirak payı metodu ilə uçota alınan müəssisədə qeyri-nəzarət payı üçün bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyi müəyyən edərkən, qrup auditoru qrupda mülkiyyətçi payını və investisiya obyektinin mənfəət və zərərlərindəki payı nəzərə ala bilər.

A120. Bəzi hallarda qrup auditoru və ya bölmə auditoru tərəfindən əsas məcmu (yəni, bölmələr üzrə bölünməmiş) kimi xüsusi əməliyyat kateqoriyaları və ya hesab qalıqları üçün əlavə audit prosedurları yerinə yetirilə bilər. Belə hallarda, bu prosedurların yerinə yetirilməsi üçün çox vaxt qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik istifadə edilir.

*"Açıq şəkildə əhəmiyyətsiz" son hədd* (İst: Paraq: 35(b))

A121. Qrup auditoruna təhriflər barədə məlumatvermə üçün son hədd qrup maliyyə hesabatları üçün açıq şəkildə əhəmiyyətsiz hesab edilən məbləğə bərabər və ya ondan aşağı müəyyən edilir. 450 saylı BAS-a[83] uyğun olaraq, bu son hədd elə bir məbləğdir ki, ondan aşağı təhriflərin toplanmasına ehtiyac olmur, çünki qrup auditoru bu cür məbləğlərin toplanmasının qrup maliyyə hesabatlarına açıq şəkildə əhəmiyyətli təsir göstərməyəcəyini ehtimal edir.

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik barədə məlumatvermə

(İst: Paraq. 36)

A122. Bəzi hallarda, bölmə auditorunun bölmə və bölmənin maliyyə məlumatlarında mümkün təhrif mənbələri haqqında biliklərini nəzərə almaqla, qrup auditoru tərəfindən bölmə auditorunun bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün müvafiq əhəmiyyətlilik məbləğinin müəyyən edilməsinə cəlb edilməsi məqsədəuyğun ola bilər. Bununla əlaqədar olaraq, qrup auditoru, həmçinin qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik ilə əlaqədar olaraq bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyinin mövcud şəraitdə

[83] 450 saylı BAS, A3 paraqrafı

məqsədəuyğun olub-olmadığını müəyyən etmək üçün əməkdaşlığı dəstəkləmək məqsədilə bölmə auditoruna qrupun audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik barədə məlumat verməyi nəzərdən keçirə bilər.

A123. Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətlilik, ən azı qismən, bölmənin maliyyə məlumatlarındakı təhriflərin xüsusiyyəti, tezliyi və miqyası ilə bağlı gözləntilərə əsaslanır. Buna görə, xüsusən də bölmə auditoru tərəfindən müəyyən edilmiş təhriflərin sayı və miqyası gözləniləndən çox olduğu halda, bölmə auditoru ilə qrup auditoru arasında davamlı məlumat mübadiləsi vacibdir.

**Qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri** (İst: Paraq. 37)

*Əlavə audit prosedurlarının yerinə yetirilməsi*

Əlavə audit prosedurlarının mərkəzləşdirilmiş şəkildə yerinə yetirilməsi

A124. Bir və ya daha çox əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar ilə bağlı əlavə audit prosedurlarının yerinə yetirilməsi nəticəsində əldə ediləcək audit sübutları məcmu halında qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbiri olduğu halda, məsələn, bütün qrupun gəlirlə bağlı əməliyyatları üçün uçot sənədləri mərkəzləşdirilmiş qaydada aparıldıqda (məs., ortaq xidmət mərkəzində), əlavə audit prosedurları mərkəzləşdirilmiş şəkildə hazırlanıb yerinə yetirilə bilər. Auditorun əlavə audit prosedurlarının mərkəzləşdirilmiş şəkildə yerinə yetirilib-yetirilməyəcəyinə dair qərarın verilməsinə aid ola biləcək amillərə aşağıdakılar daxildir. Məsələn:

- maliyyə hesabatlarına aid olan fəaliyyət növlərinin mərkəzləşdirilməsi səviyyəsi;
- nəzarət vasitələrinin vahidliyinin xüsusiyyəti və həcmi;
- qrupun fəaliyyət növlərinin və biznes istiqamətlərinin oxşarlığı.

A125. Qrup auditoru müəyyən edə bilər ki, bir neçə bölmənin maliyyə məlumatları əlavə audit prosedurlarının yerinə yetirilməsi məqsədilə, məsələn, əməliyyatlar eyni xüsusiyyətlərə malik olduğu, əlaqəli əhəmiyyətli təhrif riskləri eyni olduğu və nəzarət vasitələri ardıcıl şəkildə hazırlanıb işlədiyi üçün eynicinsli hesab edildikdə bir əsas məcmu kimi nəzərə alına bilər.

A126. Əlavə audit prosedurları mərkəzləşdirilmiş şəkildə yerinə yetirildikdə də bölmə auditorları iştirak edə bilər. Məsələn, qrupun bir çox ortaq xidmət mərkəzləri olduqda, qrup auditoru həmin ortaq xidmət mərkəzləri üçün əlavə audit prosedurlarının yerinə yetirilməsinə bölmə auditorlarını cəlb edə bilər.

Bölmə səviyyəsində əlavə audit prosedurlarının yerinə yetirilməsi

A127. Digər şəraitdə, bölmənin maliyyə məlumatları ilə əlaqəli olan qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbiri görmək üçün nəzərdə tutulan prosedurlar bölmə səviyyəsində daha effektiv şəkildə yerinə yetirilə bilər. Bu, qrupda aşağıdakılar olduqda başa verə bilər:

- gəlirlərin müxtəlif daxilolma xətləri;
- çoxlu sayda fəaliyyət istiqamətləri;
- çoxsaylı məkanlarda aparılan əməliyyatlar; yaxud
- mərkəzləşdirilməmiş daxili nəzarət sistemləri.

Maliyyə məlumatları ayrılıqda əhəmiyyətsiz, lakin qrup maliyyə hesabatlarına cəmləndikdə əhəmiyyətli

olan bölmələr çoxluğu

A128. Qrup maliyyə məlumatları ayrılıqda əhəmiyyətsiz, lakin qrup maliyyə hesabatlarına cəmləndikdə əhəmiyyətli olan bölmələr çoxluğundan ibarət ola bilər. Qrup maliyyə hesabatlarında əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaların çoxsaylı bölmələr üzrə bölündüyü kimi şəraitlər qrup auditoru üçün əlavə audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsində əlavə çətinliklər yarada bilər.

A129. Bəzi hallarda, bu cür əhəmiyyətli əməliyyat kateqoriyaları, hesablar üzrə qalıqlar və ya açıqlamalar ilə bağlı mərkəzləşdirilmiş qaydada əlavə audit prosedurlarını yerinə yetirməklə yetərli müvafiq audit sübutları əldə etmək mümkün ola bilər (məs., onlar eynicinsli olduqda, nəzarət vasitələri ortaq olduqda və müvafiq məlumatlara çıxış əldə edilə bildikdə). Əlavə audit prosedurları həmçinin 520 saylı BAS-a[84] uyğun olaraq mahiyyəti üzrə analitik prosedurlar da ehtiva edə bilər. Tapşırığın şəraitlərindən asılı olaraq, gözləntiləri işləyib hazırlamaq və mahiyyəti üzrə analitik prosedurlar yerinə yetirilən zaman ehtimal edilən dəyərlər ilə uçota alınmış məbləğlər arasındakı hər hansı fərqin məbləğini müəyyən etmək məqsədilə bölmələrin maliyyə məlumatları müvafiq səviyyələrdə cəmlənə bilər. Bu şəraitdə avtomatlaşdırılmış alətlərin və metodların istifadəsi məqsədəuyğun ola bilər.

A130. Digər hallarda, qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini aradan qaldırmaq üçün seçilmiş bölmələrdə əlavə audit prosedurlarının yerinə yetirilməsi tələb oluna bilər. Audit prosedurlarının yerinə yetirilməli olduğu bölmələr və seçilmiş bölmələrdə yerinə yetiriləcək əlavə audit prosedurlarının xüsusiyyəti, müddəti və həcmi müəyyən edilərkən peşəkar mühakimə yürüdülməlidir. Bu şəraitdə, test üçün seçilmiş bölmələrdə gözlənilməzlik elementinin tətbiqi dələduzluq nəticəsində qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif riskləri ilə bağlı olduqda da məqsədəuyğun ola bilər. (həmçinin bax: A136 paraqrafı).

*Əlavə audit prosedurlarının xüsusiyyəti və həcmi*

A131. Qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbiri görərək, qrup auditoru iş həcmini bölmə üçün uyğun olduğunu müəyyən edə bilər (müvafiq hallarda, bölmə auditorlarının iştirakı ilə):

- bölmənin bütün maliyyə məlumatları ilə bağlı əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi;
- bir və ya daha çox əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üzrə əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi; yaxud
- xüsusi əlavə audit prosedurlarının yerinə yetirilməsi.

A132. Qrup auditoru yerinə yetiriləcək əlavə audit prosedurlarının xüsusiyyəti, müddəti və həcminə görə məsuliyyət daşısa da, bölmə auditorları qrup auditinin bütün mərhələlərində, o cümlədən əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsində iştirak edə bilər və çox vaxt iştirak edirlər.

Bölmənin bütün maliyyə məlumatları ilə bağlı əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi

A133. Qrup auditoru müəyyən edə bilər ki, bölmənin bütün maliyyə məlumatları ilə bağlı əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi uyğun yanaşmadır, o cümlədən aşağıdakı

[84] 520 saylı "Analitik prosedurlar" BAS

hallarda:

- qrup maliyyə hesabatlarında qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbiri görmək üçün bölmənin maliyyə məlumatlarının hamısı və ya əhəmiyyətli hissəsi ilə bağlı audit sübutları əldə edilməlidir;
- bölmədə qrup rəhbərliyi tərəfindən qrupun fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsinin qrup auditoru tərəfindən qiymətləndirilməsinə aid ola bilən hadisələrin və ya şərtlərin mövcud olması səbəbindən qrup maliyyə hesabatlarında nüfuzedici əhəmiyyətli təhrif riski mövcuddur.

Bir və ya daha çox əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üzrə əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi

A134. Qrupun auditoru müəyyən edə bilər ki, bölmənin maliyyə məlumatlarında bir və ya daha çox xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar ilə bağlı əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi qrup maliyyə hesabatlarında əhəmiyyətli təhriflər ilə bağlı qiymətləndirilmiş risklərin aradan qaldırılması üçün uyğun yanaşmadır. Məsələn, bölmədə əməliyyatlar məhdud ola bilər, lakin qrupun torpaq və tikililərinin əhəmiyyətli hissəsi bölmənin ola bilər və ya bölmənin əhəmiyyətli vergi qalıqları ola bilər.

Xüsusi əlavə audit prosedurlarının yerinə yetirilməsi

A135. Qrup auditoru müəyyən edə bilər ki, məsələn, yalnız bir və ya bir neçə müvafiq təsdiqləmə üçün audit sübutlarının əldə edilməsi lazım olduqda, bölmənin maliyyə məlumatları ilə bağlı xüsusi əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsi uyğun yanaşmadır. Məsələn, qrup auditoru xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar mərkəzləşdirilmiş şəkildə test edə bilər və bölmə auditorundan bölmədə xüsusi əlavə audit prosedurlarını (məs., bölmənin yurisdiksiyasında iddiaların və ya məhkəmə çəkişmələrinin, yaxud aktivin mövcudluğunun dəyərləndirilməsi ilə bağlı xüsusi əlavə audit prosedurları) yerinə yetirməsini tələb edə bilər.

*Gözlənilməzlik elementi*

A136. Gözlənilməzlik elementinin yerinə yetiriləcək işin növünə, prosedurların yerinə yetirildiyi müəssisələrə və ya struktur vahidlərinə və qrup auditorunun iştirak dərəcəsinə daxil edilməsi dələduzluq nəticəsində qrup maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola biləcək bölmənin maliyyə məlumatlarında əhəmiyyətli təhrifin müəyyən edilməsi ehtimalını artıra bilər.[85]

*Nəzarət vasitələrinin əməliyyat effektivliyi*

A137. Qrup auditoru istər qrup səviyyəsində, istərsə də bölmələrdə yerinə yetiriləcək mahiyyəti üzrə prosedurların xüsusiyyətini, müddətini və həcmini müəyyən edərkən bütün qrupda fəaliyyət göstərən nəzarət vasitələrinin əməliyyat effektivliyinə etibar edə bilər. 330 saylı BAS-ın[86] tələblərinə uyğun olaraq, auditor həmin nəzarət vasitələrinin əməliyyat effektivliyinə dair yetərli müvafiq audit sübutları əldə etmək üçün nəzarət vasitələrinin testlərini işləyib hazırlamalı və yerinə yetirməlidir. Bölmə auditorları nəzarət vasitələrinin bu cür testlərinin işlənib hazırlanması və yerinə yetirilməsində iştirak edə bilərlər.

---

[85] 240 saylı BAS, 30(c) paraqrafı

[86] 330 saylı BAS, 8-ci paraqraf

A138. Əgər auditorun etibar etmək niyyətində olduğu nəzarət vasitələrində kənarlaşmalar aşkar edilərsə, 330 saylı BAS-ın[87] tələblərinə uyğun olaraq, auditor bu məsələləri və onların mümkün nəticələri barədə anlayış əldə etmək üçün xüsusi sorğular aparmalıdır. Nəzarət vasitələrinin əməliyyat effektivliyinin test edilməsi nəticəsində gözləniləndən daha çox kənarlaşma aşkar edilərsə, qrup auditoru qrupun audit planına yenidən baxmalı ola bilər. Qrup audit planına mümkün düzəlişlər aşağıdakıları ehtiva edə bilər:

- müəyyən bölmələrdə əlavə mahiyyəti üzrə prosedurların yerinə yetirilməsini tələb etmək ;
- effektiv şəkildə işlənib hazırlanan və yerinə yetirilən digər müvafiq nəzarət vasitələrinin əməliyyat effektivliyinin müəyyən edilməsi və test edilməsi;
- əlavə audit prosedurları üçün seçilmiş bölmələrin sayının artırılması.

A139. Nəzarət vasitələrinin effektivliyi mərkəzləşdirilmiş qaydada test edildikdə (məs., ortaq xidmət mərkəzindəki nəzarət vasitələri və ya ümumi nəzarət vasitələrinin test edilməsi) qrup auditoruna, yerinə yetirilmiş audit işi haqqında bölmə auditorlarına məlumat vermək lazım ola bilər. Məsələn, bölmə auditorundan bölmənin bütün maliyyə məlumatları ilə bağlı mahiyyəti üzrə prosedurlar hazırlamaq və yerinə yetirmək, yaxud bir və ya bir neçə əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar ilə bağlı mahiyyəti üzrə prosedurlar hazırlamaq və yerinə yetirmək tələb olunduqda, mahiyyəti üzrə prosedurların xüsusiyyətini, müddətini və həcmini müəyyən etmək üçün bölmə auditoru mərkəzləşdirilmiş qaydada həyata keçirilən nəzarət testi haqqında qrup auditoru ilə müzakirə edə bilər.

*Konsolidasiya prosesi*

Konsolidasiya prosedurları (İst: Paraq. 38)

A140. Konsolidasiya prosesinə, o cümlədən subkonsolidasiya üzrə əlavə audit prosedurları aşağıdakıları ehtiva edə bilər:

- lazımi jurnal yazılışlarının konsolidasiyada əks olunmasının müəyyən edilməsi; habelə
- konsolidasiya prosesinə nəzarət vasitələrinin əməliyyat effektivliyinin qiymətləndirilməsi və hər hansı nəzarət vasitəsinin effektiv olduğu müəyyən edildikdə, müvafiq cavab tədbirinin görülməsi.

Konsolidasiya düzəlişləri və yenidən təsnifləşdirmələri (İst: Paraq. 38(b))

A141. Konsolidasiya prosesində tələb oluna bilər ki, qrup maliyyə hesabatlarında təqdim edilmiş, adi İT proqramlarından keçməyən və digər maliyyə məlumatlarına tətbiq olunan nəzarət vasitələri ilə əhatə olunmayan məbləğlərə düzəlişlər edilsin və onlar yenidən təsnifləşdirilsin. Qrup auditoru tərəfindən düzəlişlərin və yenidən təsnifləşdirmələrin məqsədəuyğunluğu, tamlığı və dəqiqliyinin qiymətləndirilməsinə aşağıdakılar daxil ola bilər:

- əhəmiyyətli düzəlişlərin müvafiq hadisələri və əməliyyatları lazımi qaydada əks etdirib-etdirməməsini müəyyən etmək;
- maliyyə məlumatları qrup maliyyə hesabatlarına daxil edilmiş müəssisə və ya struktur vahidlərinin müvafiq şəkildə daxil edilib-edilmədiyini müəyyən etmək;

[87] 330 saylı BAS, 17-ci paraqraf

- əhəmiyyətli düzəlişlər qrup rəhbərliyi və müvafiq hallarda bölmə rəhbərliyi tərəfindən düzgün hesablanıb, emal edilib və icazə verilib-verilmədiyini müəyyən etmək;
- əhəmiyyətli düzəlişlərin düzgün əsaslandırıldığını və yetərli sənədləşdirmə ilə təmin edildiyini müəyyən etmək; habelə
- qrupdaxili əməliyyatların, reallaşdırılmamış mənfəətin və qrupdaxili hesab qalıqlarının üzləşdirilməsini və yenidən hesablanmasını qiymətləndirmək.

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr* (İst: Paraq. 42–43)

A142. Qrup auditoru əlavə audit prosedurlarının işlənib hazırlanmasına və ya yerinə yetirilməsinə bölmə auditorlarını cəlb etdikdə, bölmə auditoru müəyyən edə bilər ki, auditorun ekspertinin işindən istifadə edilməsi məqsədəuyğundur və bu barədə qrup auditoruna məlumat verə bilər. Belə şəraitdə, bölmə auditoru tərəfindən əlavə audit prosedurlarının işlənib hazırlanması və yerinə yetirilməsinin məqsədəuyğun olub-olmaması müəyyən edilərkən, qrup auditoru bölmə auditoru ilə, məsələn, aşağıdakıları müzakirə edə bilər:

- auditorun ekspertinin işinin xüsusiyyəti, həcmi və məqsədləri;
- bölmə auditoru tərəfindən auditor ekspertinin işinin qrup auditorunun məqsədlərinə müvafiqliyinin qiymətləndirilməsi.

A143. Qrup auditorunun iştirakının müvafiq səviyyəsi qrupun şərait və strukturundan və digər amillərdən, məsələn, qrup auditorunun subkonsolidasiyalar da daxil olmaqla konsolidasiya prosesi üzrə prosedurları yerinə yetirən bölmə auditorları ilə əvvəlki iş təcrübəsi, habelə qrupun audit tapşırığının şəraitləri (məs., müəssisənin və ya struktur vahidinin maliyyə məlumatları qrup maliyyə hesabatlarına tətbiq edilənlə eyni uçot siyasətinə uyğun olaraq hazırlanmadıqda) kimi digər amillərdən asılı ola bilər.

**Bölmə auditorunun məlumat mübadiləsinin və onun yerinə yetirdiyi işin müvafiqliyinin qiymətləndirilməsi**

*Qrup auditorunun qrup auditi ilə bağlı nəticəsinə aid olan məsələlər haqqında məlumat mübadiləsi*

(İst: Paraq. 45)

A144. Baxmayaraq ki, 45-ci paraqrafa uyğun olaraq bildirilməsi tələb olan məsələlər qrup auditorunun qrup auditi ilə bağlı gəldiyi nəticəyə aid olsa da, müəyyən məsələlər bölmə auditoru prosedurları yerinə yetirən zaman bildirilə bilər. 32 və 50-ci paraqraflarda qeyd edilən məsələlərə əlavə olaraq, bu cür məsələlərə aşağıdakılar daxil ola bilər. Məsələn:

- müvafiq etik normaların, o cümlədən müstəqilliyə dair müddəaların aşkar edilmiş pozuntuları haqqında məlumatlar;
- qanun və ya qaydalara riayət edilməməsi hallarına dair məlumatlar;
- dələduzluq riskləri də daxil olmaqla, yeni yaranan vacib əhəmiyyətli təhrif riskləri;
- qrup maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilən, bölmə rəhbərliyi və ya işçilərinin iştirak etdikləri faktiki və ya ehtimal edilən dələduzluq və qeyri-qanuni hərəkətlər; yaxud
- əhəmiyyətli və qeyri-adi əməliyyatlar.

*Bölmənin maliyyə məlumatlarında təhriflər haqqında məlumatvermə* (İst: Paraq. 45(e))

A145. Bölmələrdəki aradan qaldırılan və aradan qaldırılmayan təhriflər haqqında məlumatlılıq, 45(g)

paraqrafına uyğun olaraq çatışmazlıqlar barədə məlumatvermə ilə birlikdə nəzərə alındıqda, qrup auditorunu daxili nəzarətdə mümkün nüfuzedici çatışmazlıqlar barədə xəbərdar edə bilər. Bundan əlavə, müəyyən edilmiş təhriflərin (aradan qaldırılan və aradan qaldırılmayan) gözləniləndən çox olması təhriflərin aşkar etməmə riskinin daha yüksək olmasının əlaməti ola bilər ki, bu da qrup auditorunun müəyyən bölmələrdə əlavə audit prosedurlarını yerinə yetirilməli olduğu qənaətinə gəlməsinə səbəb ola bilər.

*Bölmə auditorunun ümumi nəticələri və ya qənaətləri* (İst: Paraq. 45(k))

A146. Bölmə auditorunun işinin nəticələrinin forması və məzmununa auditorunun yerinə yetirməsi tələb olunan audit işinin xüsusiyyəti və həcmi təsir edir. Qrup auditorunun şirkətinin siyasət və ya prosedurları qrup auditinin məqsədləri üçün yerinə yetirilən audit işi üzrə bölmə auditorunun ümumi nəticəsinin formasını və ya müəyyən ifadələrini əks etdirə bilər. Bəzi hallarda yerli qanun və ya qaydalarda bölmə auditoru tərəfindən təqdim ediləcək nəticənin forması (məs., rəy) müəyyən edilə bilər.

*Bölmə auditoru ilə məlumat mübadiləsinin qrup auditorunun məqsədləri üçün uyğun olub-olmamasının qiymətləndirilməsi* (İst: Paraq. 46(b))

A147. Bölmə auditorunun verdiyi məlumatların qrup auditorunun məqsədləri üçün uyğun olmadığı qrup auditoru tərəfindən müəyyən edildiyi halda, qrup auditoru aşağıdakıları nəzərdən keçirə bilər. Məsələn:

- bölmə auditorundan əlavə məlumatlar əldə edilə bilərmi (məs., əlavə müzakirələr və ya görüşlər vasitəsilə);
- 47-ci paraqrafa uyğun olaraq bölmə auditorunun auditi sənədləşdirməsini təhlil etmək lazımdırmı;
- 48-ci paraqrafa uyğun olaraq əlavə audit prosedurlarının yerinə yetirilməsi tələb oluna bilərmi; yaxud
- bölmə auditorunun səriştəsi və bacarıqları ilə bağlı hər hansı narahatlıq mövcuddurmu.

*Bölmə auditorunun əlavə audit sənədləşdirməsinin təhlil edilməsi* (İst: Paraq. 47)

A148. A75 paraqrafında qrup auditoru üçün qrup auditinin faktlarına və şəraitlərinə və digər məsələlərə (məs., qrup maliyyə hesabatlarında qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri) əsaslanaraq bölmə auditoruna rəhbərlik və nəzarətin xüsusiyyətini, müddətini və həcmini uyğunlaşdırmaq, habelə onların işini təhlil etmək üçün təlimat təqdim olunur. 47(c) paraqrafa uyğun olaraq qrup auditorunun mülahizəsinə, onun bölmə auditorunun işində davamlı iştirakına aid olan aşağıdakı məsələlər də təsir edə bilər:

- bu BAS-ın 45-ci paraqrafına uyğun olanlar da daxil olmaqla, bölmə auditorunun verdiyi məlumatlar; habelə
- qrup auditi aparılarkən qrup auditoru tərəfindən (məs., 34, 42 və 43-cü paraqrafların tələblərini yerinə yetirmək üçün) və ya 220 saylı BAS-ın (düzəliş edilmiş) 31-ci paraqrafına uyğun olaraq, qrupun tapşırıq üzrə tərəfdaşı tərəfindən bölmə auditorunun auditi sənədləşdirməsinin təhlil edilməsi.

A149. Bu şəraitdə bölmə auditorunun əlavə audit sənədləşdirməsinin təhlil edilməsinin zəruri olub-olmaması və nə dərəcədə zəruri olduğuna dair qrup auditorunun qərarlarına təsir edə biləcək digər

amillərə aşağıdakılar daxildir:

- bölmə auditorunun risklərin qiymətləndirilməsi prosedurlarında və qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsində və qiymətləndirilməsində iştirak dərəcəsi;
- qrup maliyyə hesabatları üçün əhəmiyyətli olan məsələlərlə bağlı bölmə auditoru tərəfindən yürüdülən əhəmiyyətli mühakimələr, habelə onun nəticələri və qənaətləri;
- təcrübəsi daha az olan şəxslərin işini təhlil etməyə görə məsul olan bölmə auditorunu təqdim edən təcrübəsi daha çox olan tapşırıq qrupunun üzvlərinin səriştəsi və bacarıqları; habelə
- bölmə auditoru ilə qrup auditoruna şamil olunan auditin sənədləşdirilməsinin təhlili üçün siyasət və prosedurların eyni olub-olmaması.

**Sonrakı hadisələr** (İst: Paraq. 49–50)

A150. Qrup auditoru aşağıdakıları edə bilər:

- bölmələrin maliyyə məlumatlarının təqdim olunduğu tarixlərlə qrup maliyyə hesabatları üzrə auditor hesabatının təqdim olunduğu tarix arasında baş verən hadisələri müəyyən etməkdə qrup auditoruna kömək etmək üçün bölmə auditorundan sonrakı hadisələrlə bağlı prosedurları yerinə yetirməsini tələb etmək;
- bölmə auditoru tərəfindən sonrakı hadisələr barədə məlumatvermənin tarixi ilə qrup maliyyə hesabatları üzrə auditor hesabatının tarixi arasındakı dövrü əhatə etməsi nəzərdə tutulan prosedurları yerinə yetirmək.

**Əldə edilmiş audit sübutlarının yetərliliyinin və müvafiqliyinin qiymətləndirilməsi**

*Audit sübutlarının yetərliliyi və müvafiqliyi* (İst: Paraq. 51)

A151. Qrup maliyyə hesabatlarının auditi kumulyativ və təkrarlanan prosesdir. Qrup auditoru planlaşdırılmış audit prosedurlarını yerinə yetirərkən, əldə edilmiş audit sübutları qrup auditorunun digər planlaşdırılmış audit prosedurlarının xüsusiyyəti, müddəti və ya həcmini dəyişməsinə səbəb ola bilər, çünki qrup auditorunun diqqətini riskin qiymətləndirilməsinin əsaslandığı məlumatlardan əhəmiyyətli dərəcədə fərqlənən məlumatlar cəlb edə bilər. Məsələn:

- bölmədə müəyyən edilmiş təhriflərin digər bölmələrlə əlaqəli nəzərdən keçirilməsi lazım ola bilər; yaxud
- qrup auditoru mühitdəki dəyişikliklər (məs., müharibə, vətəndaş iğtişaşları və ya epidemiya) səbəbindən bölmədəki məlumatlara və ya əməkdaşlara çıxış məhdudiyyətlərindən xəbərdar ola bilər.

Belə şəraitdə qrup auditoru əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar və əlaqəli təsdiqləmələrin hamısı və ya bəziləri üçün qiymətləndirilmiş risklərin yenidən nəzərdən keçirilməsi əsasında planlaşdırılmış audit prosedurlarını yenidən qiymətləndirməli ola bilər.

A152. 51-ci paraqrafa əsasən tələb olunan qiymətləndirmə qrup maliyyə hesabatlarında qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə qarşı cavab tədbirləri görmək üçün işlənib hazırlanmış qrupun ümumi audit strategiyasının və qrupun audit planının uyğun olaraq qalıb-qalmadığını müəyyən etməkdə qrup auditoruna kömək edir. 330 saylı BAS-a[88] uyğun olaraq auditorun, qiymətləndirilmiş

[88] 330 saylı BAS, 18-ci paraqraf

əhəmiyyətli təhrif risklərindən asılı olmayaraq, xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaların hər biri üçün mahiyyəti üzrə prosedurları işləyib hazırlaması və yerinə yetirməsi tələbi də qrup maliyyə hesabatları kontekstində bu qiymətləndirmənin məqsədləri üçün məqsədəuyğun ola bilər.

A153. Əldə edilmiş audit sübutlarının yetərliliyini və müvafiqliyini qiymətləndirərkən qrup auditoru tapşırıq qrupunun peşəkar inamsızlığı necə tətbiq etməsini nəzərdən keçirə bilər. Məsələn, qrup auditoru nəzərdən keçirə bilər ki, A17 paraqrafında təsvir olunduğu kimi məsələlər tapşırıq qrupunun aşağıdakı lazımsız hərəkətlərinə səbəb olmuşdurmu:

- əldə etmək daha asan olan audit sübutlarını müvafiqliyini və etibarlılığını nəzərə almadan əldə etmək;
- bu şəraitdə lazım olduğundan daha az nüfuzedici olan sübutlar əldə etmək; yaxud
- təsdiqedici sübutların əldə edilməsinə və ya ziddiyyətli sübutların istisna edilməsinə yönəlmiş qərəzli şəkildə audit prosedurlarını işləyib hazırlamaq və yerinə yetirmək.

A154. 220 saylı (düzəliş edilmiş) BAS-ın[89] tələblərinə uyğun olaraq, tapşırıq üzrə tərəfdaş auditor hesabatının tarixindən gec olmayaraq auditin sənədləşdirilməsinin təhlili və tapşırıq qrupu ilə müzakirə aparmaqla müəyyən etməlidir ki, əldə edilmiş nəticələri əsaslandırmaq və auditor hesabatının dərc edilməsi üçün yetərli müvafiq audit sübutları əldə edilmişdir. Qrup auditorunun bölmə auditorları tərəfindən yerinə yetirilən işdən əldə edilmiş audit sübutlarını qiymətləndirməsi üçün uyğun ola biləcək məlumatlar qrup auditinin fakt və şəraitlərindən asılıdır və aşağıdakıları ehtiva edə bilər:

- 45-ci paraqrafın tələblərinə uyğun olaraq bölmə auditorlarından əldə edilən məlumatlar, o cümlədən qrup auditinin məqsədləri üçün yerinə yetirilən iş üzrə bölmə auditorlarının ümumi nəticələri və ya qənaətləri;
- qrup auditi zamanı bölmə auditorlarından əldə edilən digər məlumatlar, o cümlədən 32-ci paraqrafa uyğun olaraq tələb olunan məlumatlar; habelə
- qrup auditoru tərəfindən bölmə auditorlarına rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsi, o cümlədən müvafiq hallarda, 47-ci paraqrafa uyğun olaraq qrup auditoru tərəfindən bölmə auditorunun əlavə audit sənədləşdirməsinin təhlil edilməsi.

A155. Bəzi hallarda yerinə yetirilən işi və onun nəticələrini təsvir edən ümumi icmal qeydi özlüyündə qrup auditoruna əsas verə bilər ki, bölmə auditoru tərəfindən yerinə yetirilmiş işin və əldə edilmiş audit sübutlarının qrup auditinin məqsədləri üçün yetərli olduğu qənaətinə gəlsin. Bu, məsələn, qrup auditoru tərəfindən müəyyən edilmiş və bildirilmiş konkret əlavə audit prosedurlarını yerinə yetirmək bölmə auditorundan tələb edildikdə baş verə bilər.

*Qrup auditorunun rəyinə təsirin qiymətləndirilməsi* (İst: Paraq. 52)

A156. Qrup tapşırığı üzrə tərəfdaşın qiymətləndirməsi bölmə auditorları tərəfindən bildirilmiş aradan qaldırılan və aradan qaldırılmayan təhriflərin digər bölmələrə təsir göstərə bilən, sistemlə bağlı problemin (məs., ümumi uçot siyasətinin və ya ümumi nəzarətin şamil olunduğu əməliyyatlara aid) mövcud olmasını bildirib-bildirmədiyinin nəzərdən keçirilməsini əhatə edə bilər.

---

[89] 220 saylı (düzəliş edilmiş) BAS, 32-ci paraqraf

**Auditor hesabatı** (İst: Paraq. 53)

A157. Bölmə auditorları qrup auditinin məqsədləri üçün bölmələrin maliyyə məlumatlarına dair işləri yerinə yetirə bilsələr də və bu qisimdə özlərinin ümumi nəticələri və ya qənaətlərinə görə məsuliyyət daşısalar da, qrupun audit rəyinə görə məsuliyyəti qrupun tapşırıq üzrə tərəfdaşı və ya qrupun tapşırıq üzrə tərəfdaşının şirkəti daşıyır.

A158. Qrup auditorunun bir və ya bir neçə bölmənin maliyyə məlumatları ilə bağlı yetərli müvafiq audit sübutu əldə edə bilməməsi nəticəsində qrup üzrə fərqli auditor rəyi təqdim edildikdə, qrup maliyyə hesabatları üzrə auditor hesabatının “Şərti rəy üçün əsaslar” və “Rəydən imtina üçün əsaslar” bölməsində bunun səbəbləri təsvir edilir.[90] Bəzi hallarda, məsələn, bölmə auditoru bölmənin maliyyə hesabatlarına dair tələb olunan işi bölmə rəhbərliyinin nəzarətindən kənar şəraitlər səbəbindən yerinə yetirə və ya tamamlaya bilmədikdə, fərqli rəy təqdim edilməsinin səbəblərini müvafiq şəkildə təsvir etmək üçün bölmə auditoruna istinad etmək lazım ola bilər.

**Qrupun rəhbərliyi və idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi**

*Qrupun rəhbərliyi ilə məlumat mübadiləsi* (İst: Paraq. 54–56)

A159. Qrupun tərkibindəki müəssisələrin və struktur vahidlərinin sayına və xüsusiyyətinə görə qrup auditi mürəkkəb ola bilər. Əlavə olaraq, A7 paraqrafında izah edildiyi kimi, qrup auditoru müəyyən edə bilər ki, qrup auditinin planlaşdırılması və aparılması məqsədilə müəyyən müəssisələr və ya struktur vahidləri birlikdə bölmə kimi nəzərə alına bilər. Buna görə də, işlərin planlaşdırılmış həcmi və müddəti barədə ümumi məlumatların qrup rəhbərliyi ilə müzakirə edilməsi bölmələrdə, o cümlədən bölmə auditorları cəlb edildikdə, yerinə yetirilən işlərin uzlaşdırılmasına və bölmə rəhbərliyinin müəyyən edilməsinə kömək edə bilər. (bax: A24 paraqrafı).

A160. 240 saylı BAS-da[91] dələduzluq haqqında rəhbərliyə, rəhbərlik dələduzluqda iştirak etdikdə isə idarəetməyə məsul şəxslərə məlumat mübadiləsi ilə bağlı tələblər və təlimatlar təqdim olunur.

A161. Qrup rəhbərliyinin bəzi əhəmiyyətli həssas məlumatları məxfi saxlaması lazım ola bilər. Bölmə rəhbərliyinin xəbəri olmadığı və bölmənin maliyyə hesabatları üçün əhəmiyyətli ola biləcək məsələlərin nümunələrinə aşağıdakılar daxildir:

- mümkün məhkəmə çəkişmələri;
- dövriyyədə olan mal-material aktivlərinin özgəninkiləşdirilməsi planları;
- sonrakı hadisələr;
- vacib hüquqi razılaşmalar.

A162. Qrup rəhbərliyi qrup daxilindəki müəssisələrdə və ya struktur vahidlərində qanun və ya qaydalara faktiki və ya ehtimal edilən riayət etməmə barədə qrup auditoruna xəbər verə bilər. A87 paraqrafında bu şəraitdə qrup tapşırığı üzrə tərəfdaş üçün təlimat təqdim olunur.

*Qrupun idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi* (İst: Paraq. 57)

A163. Qrup auditoru tərəfindən qrupun idarəetməyə məsul şəxslərinə bildirilən məsələlərə, bölmə auditorları tərəfindən qrup auditorunun diqqətinə çatdırılmış və qrup auditorunun fikrincə qrupun idarəetməyə məsul şəxslərin məsuliyyətləri baxımından əhəmiyyətli olan məsələlər daxil ola bilər.

---

[90] 705 saylı (düzəliş edilmiş) BAS, 20-ci və 24-cü paraqraflar

[91] 240 saylı BAS, 41–43-cü paraqraflar

Qrupun idarəetməyə məsul şəxsləri ilə məlumat mübadiləsi qrup auditi zamanı müxtəlif vaxtlarda baş verə bilər. Məsələn, 57(a) paraqrafında qeyd edilən məsələ, qrup auditoru bölmələrin maliyyə məlumatları ilə bağlı yerinə yetiriləcək işi müəyyən etdikdən sonra bildirilə bilər. Digər tərəfdən, 57(b) paraqrafında qeyd edilən məsələ auditin sonunda bildirilə bilər və 57(c)-(d) paraqraflarında qeyd edilən məsələlər baş verdikdə bildirilə bilər.

A164. 260 saylı (düzəliş edilmiş) BAS-ın[92] tələblərinə uyğun olaraq, auditor auditin planlaşdırılmış həcmi və müddəti haqqında idarəetməyə məsul şəxslərə ümumi məlumat verməlidir. Qrup auditi aparıldıqda bu cür məlumatlar idarəetməyə məsul şəxslərə kömək edir ki, qrup auditorunun audit işinin yerinə yetiriləcəyi bölmələri, o cümlədən qrupun tərkibindəki müəyyən müəssisələrin və ya struktur vahidlərinin birlikdə bir bölmə kimi nəzərə alınacağını və bölmə auditorlarının planlaşdırılmış iştirakını necə müəyyən etdiyi barədə anlayış əldə etsin. Bu cür məlumat mübadiləsi həm də qrup və onun mühiti (bax: 30-cu paraqraf) və əgər varsa, idarəetməyə məsul şəxslərin qrup auditorundan əlavə prosedurların həyata keçirilməsini tələb edə biləcəyi sahələr haqqında qarşılıqlı anlaşmaya və müzakirələrə imkan yaratmağa kömək edir.

*Daxili nəzarətdə aşkar edilmiş çatışmazlıqlar barədə məlumat mübadiləsi* (İst: Paraq. 58)

A165. Qrup auditoru yerinə yetirilən audit işinin əsasında bir və ya bir neçə aşkar edilmiş çatışmazlıqların ayrı-ayrılıqda və ya birlikdə əhəmiyyətli çatışmazlıqlar təşkil edib-etmədiyini müəyyən etməyə görə məsuliyyət daşıyır.[93] Qrup auditoru bölmədə aşkar edilmiş çatışmazlıq və ya çatışmazlıqların birləşməsinin daxili nəzarətdə əhəmiyyətli çatışmazlıq olub-olmaması barədə bölmə auditorundan məlumat tələb edə bilər.

**Sənədləşdirilmə** (İst: Paraq. 59)

A166. Digər BAS-larda həmin digər BAS-ların xüsusi şəraitlərində 230 saylı BAS-ın tətbiq edilməsini aydınlaşdırmaq üçün nəzərdə tutulmuş xüsusi sənədləşdirilmə tələbləri əhatə edilir. 230 saylı BAS-a Əlavədə xüsusi sənədləşdirilmə tələbləri və təlimatları əhatə edən digər BAS-lar sadalanır.

A167. Qrup auditi üçün auditin sənədləşdirilməsi qrup auditorunun rəyini əsaslandırmaq üçün yetərli müvafiq audit sübutlarının əldə edilib-edilməməsinin 51-ci paraqrafa uyğun olaraq auditor tərəfindən qiymətləndirilməsini təsdiqləyir. Həmçinin bax: A154 paraqrafı.

A168. Qrup auditi üçün auditin sənədləşdirilməsinə aşağıdakılar daxildir:

- qrup auditorunun faylında olan sənədləşdirilmə; habelə
- qrup auditinin məqsədləri üçün bölmə auditorları tərəfindən yerinə yetirilən işə aid olan bölmə auditorunun fayllarındakı ayrıca sənədləşdirilmə (yəni, bölmə auditorunun audit sənədləşdirməsi).

A169. Qrup auditi üçün auditin sənədləşdirilməsinin son formalaşdırılması və saxlanılması 1 saylı BKİS-ə uyğun olaraq qrup auditorunun şirkətinin siyasət və ya prosedurlarına uyğun həyat keçirilir.[94] Qrup auditoru qrup auditi məqsədləri üçün yerinə yetirdikləri işlərin sənədləşdirilməsini formalaşdırılması və saxlanılması ilə bağlı bölmə auditorlarına xüsusi göstərişlər verə bilər.

---

[92] 260 saylı (düzəliş edilmiş) BAS, 15-ci paraqraf

[93] 265 saylı BAS, 8-ci paraqraf

[94] 1 saylı BKİS, 31(f) və A83–A85 paraqrafları

*Qrup auditoru tərəfindən bölmələrin müəyyən edilməsi üçün əsas* (İst: Paraq: 59(b))

A170. Qrup auditoru tərəfindən bölmələrin müəyyən edilməsi üçün əsas müxtəlif yollarla, o cümlədən, məsələn, bu BAS-ın 22, 33 və 57(a) paraqraflarının tələblərinin yerinə yetirilməsi ilə bağlı sənədlərlə sənədləşdirilə bilər.

*Qrup auditoru tərəfindən bölmə auditorlarının səriştə və bacarıqlarının müəyyən edilməsi üçün əsaslar* (İst: Paraq: 59(d))

A171. 1 saylı BKİS-də[95] tapşırıq qrupu üzvlərinin səriştə və bacarıqları ilə bağlı şirkətin siyasət və ya prosedurlarında əks etdirilə biləcək məsələlər üzrə təlimat təqdim olunur. Bu cür siyasət və ya prosedurlarda tapşırıq qrupunun, o cümlədən bölmə auditorlarının səriştə və bacarıqlarının müəyyən edilməsinin sənədləşdirilməsi üsulu təsvir edilə və ya sənələşdirilmə üsulu ilə bağlı təlimat verilə bilər. Məsələn, 24-cü paraqrafa uyğun olaraq bölmə auditorundan əldə edilən təsdiqləmə, bölmə auditorunun müvafiq sahə üzrə təcrübəsi haqqında məlumatı ehtiva edə bilər. Qrup auditoru həmçinin bölmə auditorunun tapşırılmış audit prosedurlarını yerinə yetirmək üçün yetərli vaxtının olduğunu təsdiq etməyi xahiş edə bilər.

*Bölmə auditorlarına rəhbərlik və nəzarət etmənin və onların işinin təhlilinin sənədləşdirilməsi* (İst: Paraq. 59(f))

A172. A75 paraqrafında təsvir olunduğu kimi, qrup auditində rəhbərlik, nəzarət etməyə və təhlilə yanaşma tapşırığın faktlarına və şəraitlərinə əsaslanaraq qrup auditoru tərəfindən uyğunlaşdırılır və bir qayda olaraq, qrup auditorunun şirkətinin siyasət və prosedurlarını yerinə yetirməsi ilə qrup auditinə xas olan cavab tədbirlərinin görülməsini əhatə edir. Bu cür siyasət və ya prosedurlarda həmçinin qrup auditoru tərəfindən tapşırıq qrupuna rəhbərlik və nəzarət edilməsi və onların işinin təhlil edilməsinin sənədləşdirilməsi təsvir edilə və ya bu cür sənədləşdirilməyə dair təlimat verilə bilər.

A173. 300 saylı BAS-ın[96] tələblərinə uyğun olaraq, auditor tapşırıq qrupunun üzvlərinə planlaşdırılan rəhbərlik və nəzarət edilmənin, habelə onların işinin təhlilinin xüsusiyyəti, müddəti və həcmini əhatə edən audit planını işləyib hazırlamalıdır. Bölmə auditorları işə cəlb olunduqda, bu cür təsvirlərin həcmi çox vaxt bölmədən asılı olaraq dəyişir, belə ki, bölmə auditorlarına rəhbərlik və nəzarət edilmənin, habelə onların işinin təhlilinin planlaşdırılmış xüsusiyyəti, müddəti və həcminə, habelə onların işinə A51 paraqrafında təsvir olunan məsələlər təsir göstərə bilər.

A174. Bölmə auditorlarına rəhbərlik və nəzarət etmənin, habelə onların işinin təhlilinin qrup auditoru tərəfindən sənədləşdirilməsi aşağıdakıları ehtiva edə bilər. Məsələn:

- bölmə auditorları ilə zəruri məlumat mübadiləsi, o cümlədən təqdim edilmiş təlimatlar və bu BAS-ın tələblərində nəzərdə tutulan digər təsdiqlər;
- bölmə auditorlarının obyektlərinə səfərlərin, iclaslarda iştirak edənlərin və müzakirə olunan məsələlərin xüsusiyyətinin seçilməsinin əsaslandırılması;
- bölmə auditorları və ya bölmənin rəhbərliyi ilə görüşlərdə müzakirə olunan məsələlər;
- təhlil məqsədi ilə bölmə auditorunun audit sənədləşdirməsinin qrup auditoru tərəfindən

[95] 1 saylı BKİS, A96 paraqrafı

[96] 300 saylı BAS, 9-cu paraqraf

seçilməsinin əsaslandırılması;

- bölmə auditorlarının işində iştirakın planlaşdırılmış xüsusiyyətində və həcmində dəyişikliklər və bunun səbəbləri (məs., ilkin olaraq gözləniləndən daha mürəkkəb və ya subyektiv olan audit sahələrində daha təcrübəli tapşırıq qrupu üzvlərinin təyin edilməsi).

A175. 47-ci paraqrafın tələblərinə uyğun olaraq, qrup auditoru bölmə auditorunun əlavə audit sənədləşdirilməsinin təhlil edilməsinin zəruri olub-olmadığını və nə dərəcədə zəruri olduğunu müəyyən etməlidir. A148-A149 paraqraflarında qrup auditoru üçün bu qərarın qəbul edilməsinə dair təlimat təqdim olunur.

A176. Bölmə auditorunun audit sənədləşdirilməsinin qrup auditorunun audit faylında təkrarlanmasına adətən ehtiyac olmur. Bununla belə, qrup auditoru qərar verə bilər ki, bölmə auditorundan gələn məlumatlardakı konkret məsələnin, o cümlədən bu BAS-a uyğun olaraq bildirilməsi tələb olunan məsələlərin təsvirinə əlavə etmək üçün bölmə auditorunun müəyyən sənədləşdirmənin nüsxələri ümumiləşdirilsin, dublikatı hazırlansın və ya surətləri qrup auditorunun audit faylında saxlansın. Bölmə auditorunun bu cür sənədləşdirməsinin nümunələrinə aşağıdakılar daxil ola bilər:

- bölmə auditorunun yürütdüyü əhəmiyyətli mühakimələrin siyahısı və ya xülasəsi, habelə onlara dair əldə edilən və qrup auditinə aid olan qənaətlər;
- qrupun idarəetməyə məsul şəxslərinə bildirməli ola bilən məsələlər; yaxud
- qrup maliyyə hesabatlarına dair auditor hesabatında bildiriləcək əsas audit məsələləri kimi müəyyən edilə bilən məsələlər.

A177. Qanun və ya qaydalarla tələb olunduqda, məsələn, bölmə auditorunun yerinə yetirdiyi işlə bağlı sənədləşdirilməni təhlil etmək məqsədilə tənzimləyici orqanın sorğusuna cavab vermək üçün bölmə auditorunun müəyyən sənədləşdirməsinin qrup auditorunun audit faylına daxil edilməsi tələb oluna bilər.

A178. Şirkətin keyfiyyətin idarə edilməsi sisteminə uyğun olaraq şirkət tərəfindən müəyyən edilmiş siyasət və ya prosedurlar, yaxud şirkət və ya şəbəkə tərəfindən təmin edilən resurslar, qrup auditoruna bölmə auditorların rəhbərlik və nəzarət etməni, habelə onların işinin təhlil edilməsini sənədləşdirməkdə kömək edə bilər. Məsələn, qrup auditoru ilə bölmə auditorları arasında məlumat mübadiləsini asanlaşdırmaq üçün elektron audit alətindən istifadə oluna bilər. Elektron audit aləti, həmçinin auditin sənədləşdirilməsi, o cümlədən müşahidəçi-ekspert (müşahidəçi-ekspertlər) və onların təhlilinin tarixi (tarixləri) və həcmi haqqında məlumatvermə üçün istifadə edilə bilər.

*Bölmə auditorunun audit sənədləşdirməsinə çıxış məhdudlaşdırıldıqda əlavə mülahizələr* (İst: Paraq. 59)

A179. Qrup auditi üçün auditin sənədləşdirilməsi müəyyən şəraitdə bəzi əlavə çətinliklər və ya problemlər yarada bilər. Bu, məsələn, qanun və ya qaydalarla bölmə auditorunun öz yurisdiksiyasından kənarda sənədləri təqdim etməsi məhdudlaşdırıldıqda, yaxud müharibə, vətəndaş iğtişaşları və ya epidemiya nəticəsində müvafiq bölmə auditorunun audit sənədlərinə çıxışı məhdudlaşdırıldıqda baş verə bilər.

A180. Qrup auditoru aşağıdakı addımları atmaqla bu cür məhdudiyyətləri aradan qaldıra bilər. Məsələn:

- bölmə auditorunun audit sənədləşdirməsini təhlil etmək üçün bölmə auditorunun olduğu yerə baş çəkmək və ya bölmə auditorunun yerləşdiyi yerdən fərqli yerdə bölmə auditoru ilə görüşmək;
- qanun və ya qaydalarla qadağan edilmədikdə, texnologiyadan istifadə etməklə müvafiq audit

sənədləşdirməsini məsafədən təhlil etmək;

- bölmə auditorundan müvafiq məlumatları özündə əks etdirən memorandum hazırlamağı və təqdim etməyi tələb etmək və zəruri hallarda memorandumun məzmununu müzakirə etmək üçün bölmə auditoru ilə müzakirələr aparmaq; yaxud
- bölmə auditoru ilə yerinə yetirilmiş prosedurları, əldə edilmiş sübutları və bölmə auditorunun gəldiyi nəticələri müzakirə etmək.

Qrup auditinin faktlarından və şəraitlərindən asılı olaraq yuxarıda təsvir edilən tədbirlərdən birinin və ya bir neçəsinin məhdudiyyətləri aradan qaldırmaq üçün yetərli olub-olmamasını müəyyən etmək üçün peşəkar mühakimə yürüdülməlidir.

A181. Bölmə auditorunun audit sənədləşdirməsinə çıxış məhdudlaşdırıldıqda, buna baxmayaraq, qrup auditorunun sənədləri BAS-ların tələblərinə, o cümlədən qrup auditoru tərəfindən bölmə auditorlarına rəhbərlik və nəzarət etməsinin, o cümlədən onların işinin təhlil edilməsinin xüsusiyyəti, müddəti və həcminə dair sənədlərlə bağlı tələblərə cavab verməlidir. A148-A149 paraqraflarında təqdim olunan təlimatlar bu şəraitdə qrup auditoru tərəfindən bölmə auditorunun audit sənədləşdirilməsinin təhlil edilməsinin həcmini müəyyən etməkdə məqsədəuyğun ola bilər. A176 və A177 paraqraflarında bölmə auditorunun müəyyən audit sənədləşdirməsinin qrup auditorunun audit faylına daxil edilə biləcəyi hallara dair nümunələr təqdim olunur.

A182. Qrup auditoru bölmə auditorunun audit sənədləşdirməsinə çıxış məhdudiyyətlərini aradan qaldırmaq iqtidarında olmadığı halda, lazım ola bilər ki, qrup auditoru qrup maliyyə hesabatları üzrə rəyə dəyişikliyin edilməsini tələb edə biləcək əhatə dairəsinin məhdudiyyətinin olub-olmadığını nəzərdən keçirsin. Bax: A45 paraqrafı.

**Əlavə 1**

(İst: Paraq. A42)

## Qrup auditoru qrup üzrə auditor rəyini əsaslandırmaq üçün yetərli müvafiq audit sübutları əldə edə bilmədiyi halda müstəqil auditor hesabatının nümunəsi

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin konsolidə edilmiş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit törəmə müəssisələri olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**
- **Konsolidə edilmiş maliyyə hesabatları müəssisənin rəhbərliyi tərəfindən MHBS-yə (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) (ümumi təyinatlı çərçivəyə) uyğun hazırlanmışdır.**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən konsolidə edilmiş maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir.**
- **Qrup auditoru iştirak payı metodu ilə uçota alınan (60 milyon ABŞ dolları məbləğində cəmi aktivləri əks etdirən maliyyə vəziyyəti haqqında hesabatda 15 milyon ABŞ dolları tanınmışdır) bölməyə dair yetərli müvafiq audit sübutları əldə edə bilmir, çünki qrup auditorunun bölmənin mühasibat uçotu, rəhbərliyi və ya auditoruna çıxışı olmamışdır.**
- **Qrup auditoru bölmənin 31 dekabr 20X1-ci il tarixinə olan, auditi aparılmış maliyyə hesabatları, o cümlədən müvafiq auditor hesabatı ilə tanış olmuş, habelə qrup rəhbərliyində olan bölməyə dair müvafiq maliyyə məlumatlarını təhlil etmişdir.**
- **Qrupun tapşırıq üzrə tərəfdaşının fikrincə, yetərli müvafiq audit sübutlarının əldə edilə bilməməsinin qrup maliyyə hesabatlarına təsiri əhəmiyyətlidir, lakin nüfuzedici deyildir.[1]**
- **İESBA Məcəlləsi auditə şamil olunan bütün müvafiq etika normalarını əhatə edir.**
- **Əldə edilmiş audit sübutlarına əsasən, auditor belə qənaətə gəlmişdir ki, 570 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq müəssisənin fəaliyyətinin fasiləsizliyini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqədar əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a[2] uyğun məlumat vermək auditordan tələb olunmur nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmişdir və konsolidə edilmiş maliyyə hesabatlarına dair şərti müsbət rəy digər məlumatlara da təsir edir.**
- **Konsolidə edilmiş maliyyə hesabatlarına nəzarətə görə məsul şəxslər ilə konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsul şəxslər fərqlidir.**

[1] Qrupun tapşırıq üzrə tərəfdaşının fikrincə, yetərli müvafiq audit sübutlarının əldə edilə bilməməsinin qrup maliyyə hesabatlarına təsiri əhəmiyyətli və nüfuzedicidirsə, qrupun tapşırıq üzrə tərəfdaşı 705 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq rəy verməkdən imtina edir.

[2] 701 saylı “Müstəqil auditor hesabatında əsas audit məsələləri haqqında məlumatvermə” BAS.

- **Konsolidə edilmiş maliyyə hesabatlarının auditindən əlavə auditorun yerli qanunla tələb edilən digər hesabatvermə məsuliyyətləri var.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat[3]

### Şərti müsbət rəy

Biz ABC Şirkətinin və onun törəmə müəssisələrinin (Qrupun) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair konsolidə edilmiş hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında konsolidə edilmiş hesabat, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat, habelə konsolidə edilmiş maliyyə hesabatlarına dair qeydlər, o cümlədən əhəmiyyətli uçot siyasətinin xülasəsindən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, hesabatımızın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində təsvir edilən məsələnin mümkün nəticələri istisna olmaqla, müşayiət edən konsolidə edilmiş maliyyə hesabatları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsasən, 31 dekabr 20X1-ci il tarixinə şirkətin konsolidə edilmiş maliyyə vəziyyətini, habelə onun konsolidə edilmiş maliyyə nəticələrini və həmin tarixdə başa çatan il üçün konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

### Şərti müsbət rəy üçün əsaslar

İl ərzində əldə edilmiş və iştirak payı metodu ilə uçota alınmış xarici asılı müəssisə olan XYZ şirkətinə ABC şirkətinin investisiyaları 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatlarında 15 milyon ABŞ dolları həcmində əks etdirilmiş və XYZ-nin xalis gəlirində ABC-nin payı həmin tarixdə başa çatan il üzrə məcmu gəlir haqqında konsolidə edilmiş hesabata 1 milyon ABŞ dolları həcmində daxil edilmişdir. XYZ-nin maliyyə məlumatları, rəhbərliyi və auditorları ilə əlaqə saxlamağa icazə verilmədiyinə görə, biz 31 dekabr 20X1-ci il tarixində ABC-nin investisiyasının XYZ-də balans dəyəri və il ərzində XYZ-nin xalis gəlirində ABC-in payı haqqında yetərli müvafiq audit sübutu əldə edə bilmədik. Nəticədə, bu məbləğlərə hər hansı düzəlişin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

Biz auditimizi beynəlxalq audit standartlarına (BAS-lara) uyğun apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinə (İESBA Məcəlləsinə) (o cümlədən beynəlxalq müstəqillik standartlarına) uyğun olaraq Qrupdan asılı deyilik və biz etika ilə bağlı digər məsuliyyətlərimizi bu İIESBA Məcəlləsinin tələblərinə uyğun yerinə yetirdik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

---

[3] "Digər qanunvericilik və normativ tələblərə dair hesabat" adlı ikinci bölmə olmadıqda "Konsolidə edilmiş maliyyə hesabatlarına dair hesabat" bölməsinə ehtiyac yoxdur.

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

[*720 saylı (düzəliş edilmiş) BAS-da*[4] *əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə – bax: 720 saylı (düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 6). Nümunə 6-dakı "Digər məlumatlar" bölməsinin sonuncu paraqrafı elə uyğunlaşdırılmalıdır ki, şərti müsbət rəyin verilməsi ilə nəticələnən, digər məlumatlara da təsir edən xüsusi məsələ də təsvir edilsin.*]

**Konsolidə edilmiş maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[5]

[*700 saylı (düzəliş edilmiş) BAS-a*[6] *uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 2.*]

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

[*700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 2. Yalnız listinq subyekti olan müəssisələrin auditi üçün tətbiq edilən son iki paraqraf daxil edilməməlidir.*]

**Digər qanun və qaydaların tələbləri üzrə hesabat**

[*700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 2.*]

[*Konkret yurisdiksiyanın tələblərindən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza*]

[*Auditorun ünvanı*]

[*Tarix*]

---

4 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyəti" BAS

5 Auditor hesabatlarının bu nümunələrində "rəhbərlik" və "idarəetməyə məsul şəxslər" terminlərini müəyyən yurisdiksiyada hüquqi çərçivənin kontekstinə uyğun olan başqa bir terminlə əvəz etmək tələb oluna bilər.

6 700 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" BAS.

## Əlavə 2

(İst: Paraq. A85)

# Qrupun daxili nəzarət sisteminin öyrənilməsi

1. Bu əlavədə qrupun mühiti kontekstində daxili nəzarət sistemini öyrənmək üçün məqsədəuyğun ola biləcək daxili nəzarətlə bağlı məsələlərə dair nümunələr, eləcə də həmçinin 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ın[103] qrupun maliyyə hesabatlarının auditinə necə tətbiq ediləcəyinə dair məlumatlar təqdim olunur. Nümunələr hər qrup auditi tapşırığına uyğun olmaya bilər və nümunələrin siyahısı tam olmaya bilər.

**Nəzarət mühiti**

2. Qrup auditorunun nəzarət mühiti haqqında anlayışı aşağıdakı kimi məsələləri əhatə edə bilər:

    - qrupda idarəetmə və rəhbərlik funksiyalarının strukturu və qrup rəhbərliyinin nəzarət üzrə məsuliyyətləri, o cümlədən qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin rəhbərliyinə səlahiyyət və məsuliyyətin verilməsinin təşkili;
    - qrupun daxili nəzarət sisteminə idarəetməyə məsul şəxslər tərəfindən nəzarətin strukturu və təşkil edilməsi;
    - qrupda etik və davranış standartları barədə məlumatlar necə çatdırılır və tətbiq edilməsi praktikada necə təmin edilir (məs., davranış qaydaları və dələduzluğun qarşısının alınması üzrə proqramları kimi qrup daxilində proqramlar).
    - qrupda, siyasət və prosedurların, o cümlədən maliyyə hesabatların tərtib edilməsi prosedurları üzrə təlimatların ardıcıllığı.

**Qrupun riskləri qiymətləndirmə prosesi**

3. Qrup auditorunun qrupun riskləri qiymətləndirmə prosesi haqqında anlayışına qrup maliyyə hesabatlarında əhəmiyyətli təhriflər ilə nəticələn bilən qrup rəhbərliyinin riski qiymətləndirmə prosesi, yəni biznes risklərinin, o cümlədən dələduzluq riskinin müəyyən edilməsi, təhlili və idarə edilməsi prosesi kimi məsələlər daxil ola bilər. Bu, həmçinin qrupun riski qiymətləndirmə prosesinin nə qədər mürəkkəb olduğunu və müəssisələrin və struktur bölmələrinin bu prosesdə iştirakını də əhatə edə bilər.

**Qrupun daxili nəzarət sisteminin monitorinqi prosesi**

4. Qrupun daxili nəzarət sisteminin monitorinqi prosesi haqqında qrup auditorunun anlayışı nəzarət vasitələrinin monitorinqi, o cümlədən qrupda nəzarət vasitələrinin monitorinqinin necə həyata keçirilməsi və müvafiq olduqda, qrupda daxili audit funksiyasının fəaliyyəti, o cümlədən qrupun tərkibindəki müəssisələrdə və ya struktur bölmələrdə nəzarət vasitələrinin monitorinqi ilə bağlı onun xüsusiyyəti, məsuliyyətləri və fəaliyyəti kimi məsələləri əhatə edə bilər. 610 saylı (2013-cü ildə düzəliş edilmiş) BAS-ın[104] tələblərinə uyğun olaraq, auditor daxili audit funksiyasının təşkilati statusunun və müvafiq siyasət və prosedurlarının daxili auditorların obyektivliyini, daxili audit funksiyasının səriştəlilik səviyyəsini və daxili audit funksiyasının sistemli və intizamlı yanaşma tətbiq

[103] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, Əlavə 3

[104] 610 saylı (2013-cü ildə düzəliş edilmiş) "Daxili auditorların işindən istifadə edilməsi" BAS, 15-ci paraqraf

edib-etmədiyini, o cümlədən keyfiyyətə nəzarəti nə dərəcədə təmin etdiyini qiymətləndirməlidir.

**İnformasiya sistemi və məlumat mübadiləsi**

5. Qrup auditorunun qrupun informasiya sistemi və məlumat mübadiləsi haqqında anlayışı aşağıdakı məsələləri əhatə edə bilər. Məsələn:

- qrupun İT mühitinin mərkəzləşmə və İT proqramları, İT prosesləri və İT infrastrukturunun ümumilik dərəcəsi;
- qrup rəhbərliyi tərəfindən qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin əməliyyatlarının və maliyyə nəticələrinin, o cümlədən qrup rəhbərliyinə büdcələrin icrasına nəzarət etməyə və müvafiq tədbirlər görməyə imkan verən müntəzəm hesabatvermə prosedurlarının monitorinqi;
- qrup səviyyəsində qrupdaxili əməliyyatların və reallaşdırılmamış mənfəətin, habelə qrupdaxili hesab qalıqlarının monitorinqi, nəzarəti, uzlaşdırılması və yenidən hesablanması;
- qrupun tərkibindəki müəssisələrdən və ya struktur vahidlərindən əldə edilən maliyyə məlumatlarının vaxtı-vaxtlılığının monitorinqi, habelə dəqiqliyinin və tamlığının qiymətləndirilməsi prosesi..

*Konsolidasiya prosesi*

6. Qrup auditorunun konsolidasiya prosesi haqqında anlayışı aşağıdakı məsələləri əhatə edə bilər. Məsələn:

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri ilə bağlı məsələlər:

- qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin rəhbərliyi maliyyə hesabatlarının tətbiq olunan çərçivələri ilə nə dərəcədə tanışdır;
- qrupun tərkibindəki müəssisələrin və ya struktur bölmələrin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq müəyyən edilməsi və uçotu prosesi;
- maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq, seqmentlər üzrə hesabatvermə məqsədi üçün hesabat verilməsi nəzərdə tutulan seqmentlərin müəyyən edilməsi prosesi;
- maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hesabat vermək üçün əlaqəli tərəflərlə münasibətlərin və əlaqəli tərəflərin əməliyyatlarının müəyyən edilməsi prosesi;
- qrup maliyyə hesabatlarına tətbiq edilmiş uçot siyasəti, əvvəlki maliyyə ili ilə müqayisədə uçot siyasətində olan dəyişikliklər və maliyyə hesabatlarının tətbiq olunan çərçivələri daxilində yeni və ya düzəliş edilmiş standartlardan irəli gələn dəyişikliklər;
- maliyyə ilinin sonu qrupun maliyyə ilinin sonu ilə üst-üstə düşməyən qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin uçotu prosedurları.

Konsolidasiya prosesi ilə bağlı məsələlər:

- qrupun tərkibindəki müəssisələr və ya struktur vahidlərinin istifadə etdikləri uçot siyasətinin öyrənilməsi və müvafiq hallarda qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarını qrup maliyyə hesabatları üçün hazırlamaq məqsədilə vahid uçot siyasətindən istifadə edilməsini, habelə mühasibat uçotu siyasətindəki fərqlərin müəyyən

edilməsinin və maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından tələb olunduqda düzəliş edilməsinin qrup rəhbərliyi tərəfindən təmin edilməsi prosesi. Vahid uçot siyasəti maliyyə hesabatlarının tətbiq olunan çərçivələri əsasında qrup tərəfindən qəbul edilmiş və qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin oxşar əməliyyatlar haqqında ardıcıl hesabat vermək üçün istifadə etdiyi xüsusi prinsiplər, əsaslar, konvensiyalar, qaydalar və təcrübələrdir. Bu siyasət, bir qayda olaraq, maliyyə hesabatlarının təqdim edilməsi prosedurları üzrə təlimatda və qrup rəhbərliyi tərəfindən təqdim edilən hesabatlar paketində təsvir olunur;

- konsolidasiya məqsədilə qrupun tərkibindəki müəssisələr və ya struktur vahidlərinin maliyyə hesabatlarını tam, dəqiq və vaxtında verilməsinin qrup rəhbərliyini tərəfindən təmin edilməsi prosesi;
- qrupun tərkibindəki xarici müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarının qrupun maliyyə hesabatlarının valyutasına çevrilməsi prosesi;
- qrupun İT mühitinin konsolidasiya üçün necə təşkil edildiyi və konsolidasiya prosesində məlumat axınını müəyyən edən siyasət, o cümlədən istifadə edilən İT proqramları;
- sonrakı hadisələr haqqında qrup rəhbərliyinin məlumat əldə etməsi prosesi.

Konsolidasiya düzəlişləri və yenidən təsnifləşdirmələr ilə bağlı məsələlər:

- konsolidasiya düzəlişlərinin uçota alınması prosesi, o cümlədən müvafiq jurnal yazılışlarının hazırlanması, təsdiqlənməsi və emal edilməsi, habelə konsolidasiya üçün cavabdeh olan işçi heyətinin təcrübəsi;
- maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə əsasən tələb olunan konsolidasiya düzəlişləri;
- konsolidasiyaya düzəlişlərə səbəb olan hadisələr və əməliyyatların iqtisadi baxımdan əsaslandırılması;
- qrupun tərkibindəki müəssisələr və ya struktur vahidləri arasında əməliyyatların dövriliyi, xüsusiyyəti və həcmi;
- qrupdaxili əməliyyatların və reallaşdırılmamış mənfəətin, habelə qrupdaxili hesab qalıqlarının monitorinqi, nəzarəti, üzləşdirilməsi və yenidən hesablanması prosedurları;
- maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq, əldə edilmiş aktiv və öhdəliklərin ədalətli dəyərini müəyyən etmək üçün görülən tədbirlər, qudvilin amortizasiyası və müvafiq olduqda, onun qiymətdən düşmə predmetinə görə yoxlanılması;
- qrupun tərkibindəki müəssisə və ya struktur vahidlərinə dəymiş zərər ilə bağlı nəzarət və ya minoritar səhm paketinə sahib olan şəxslərlə razılaşmalar (məsələn, minoritar səhm paketi sahiblərinin bu zərərləri ödəmək öhdəliyi).

**Nəzarət tədbirləri**

7. Qrup auditoru tərəfindən bölmənin nəzarət tədbirlərinin öyrənilməsi aşağıdakı məsələləri əhatə edə bilər. Məsələn:

- qrupun bütövlükdə və ya bir hissəsi üçün məlumat emalı üzrə nəzarət vasitələrinin və ümumi İT nəzarət vasitələrinin ümumiliyi;

- qrupun maliyyə hesabatlarında təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhrif riskləri ilə bağlı tədbir görən qrupun bütövlükdə və ya bir hissəsi üçün nəzarət vasitələrinin işlənib hazırlanmasının ümumilik dərəcəsi;
- qrupun bütövlükdə və ya bir hissəsi üçün ümumi işlənib hazırlanmış nəzarət vasitələrinin ardıcıl olaraq tətbiq edilmə dərəcəsi.

**Əlavə 3**

(İst: Paraq. A110)

## Qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini yarada biləcək hadisə və ya şərtlərin nümunələri

Aşağıda dələduzluq və ya səhv nəticəsində, o cümlədən konsolidasiya prosesi ilə bağlı qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini yarda biləcək hadisələrin (o cümlədən əməliyyatların) və şərtlərin nümunələri verilmişdir. Tərkib riski amili üzrə təqdim olunan nümunələrdə müxtəlif hadisə və şərtlər əhatə edilir; bununla belə, göstərilən hadisələr və şərtlər hər bir qrup audit tapşırığına uyğun olmaya bilər və nümunələrin siyahısı tam bununla məhdudlaşmır. Hadisələr və şərtlər bu şəraitdə ən böyük təsir göstərə biləcək tərkib riski amilləri üzrə təsnif edilmişdir. Vacib olan odur ki, tərkib risklərinin amilləri arasındakı qarşılıqlı əlaqəyə görə, tərkib risklərinin digər amilləri nümunədəki hadisələr və şərtlərə də müxtəlif dərəcədə təsir göstərə bilər. Həmçinin bax: 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, Əlavə 2.

| **Tərkib riski amili** | **Qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini yarada biləcək hadisə və ya şərtlərin nümunələri:** |
|---|---|
| Mürəkkəblik | • Qrupun tərkibindəki müəssisə və ya struktur vahidlərinin bir neçəsində uçota alınan mürəkkəb əməliyyatların mövcud olması;<br>• qrupun tərkibindəki müəssisələr və ya struktur vahidləri tərəfindən qrup maliyyə hesabatlarına tətbiq edilən uçot siyasətindən fərqli uçot siyasətinin tətbiqi edilməsi;<br>• qrupun tərkibindəki müəssisələr və ya struktur vahidləri tərəfindən istifadə edilən mürəkkəb prosesləri əhatə edən uçot qiymətləndirmələri və ya açıqlamalar, məsələn, mürəkkəb maliyyə alətlərinin uçotu;<br>• bir çox yurisdiksiyalarda yüksək dərəcədə mürəkkəb tənzimləyici normaların şamil olunduğu əməliyyatlar, yaxud qrupun tərkibində bir çox tənzimləmə növlərinin şamil olunduğu bir çox sahələrdə fəaliyyət göstərən müəssisələrin və ya struktur vahidlərinin olması. |
| Subyektivlik | • Aşağıdakılara dair mühakimələrin yürüdülməsi: qrupun tərkibindəki hansı müəssisələrin və ya struktur vahidlərin maliyyə məlumatları maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq qrup maliyyə hesabatlarına daxil edilməlidir, məsələn, maliyyə məlumatlarının daxil edilməsi tələb olunan hər hansı xüsusi təyinatlı müəssisələr və ya qeyri-kommersiya müəssisələri mövcuddurmu. Qrupun tərkibindəki müəssisələr və ya struktur vahidləri tərəfindən maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələblərinin düzgün tətbiqi ilə bağlı mühakimələr. |

| **Tərkib riski amili** | **Qrup maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini yarada biləcək hadisə və ya şərtlərin nümunələri:** |
|---|---|
| Dəyişiklik | • Tez-tez baş verən satınalmalar, satış və ya yenidən təşkil olunmalar. |
| Qeyri-müəyyənlik | • Qrupun tərkibindəki xarici yurisdiksiyalarda fəaliyyət göstərən, ticarət və fiskal siyasət kimi sahələrə dövlətin gözlənilməz müdaxiləsi, habelə valyuta və dividendlərin hərəkəti üzrə məhdudiyyətlərin tətbiq edilməsi, valyuta məzənnələrində dalğalanmalar kimi amillərin təsirinə məruz qala bilən müəssisələr və ya struktur vahidləri. |
| Tərkib riskinə təsir etmələrinə aid hissədə rəhbərliyin qərəzliliyi və ya dələduzluğa aid digər risk amilləri ilə bağlı təhriflərə meyllilik | • Əlaqəli tərəflərlə qeyri-adi münasibət və əməliyyatlar;<br>• qrupun tərkibində əməliyyatların vaxtını manipulyasiya etmək üçün istifadə oluna bilən, maliyyə ilinin başa çatma tarixi fərqli olan müəssisələr və ya struktur vahidləri;<br>• icazə verilməmiş və ya natamam konsolidasiya düzəlişlərinin daha əvvəl baş verməsi halları;<br>• qrup daxilində aqressiv vergi planlaşdırması və ya güzəştli vergitutma rejimi zonalarındakı müəssisələrdə iri məbləğdə pul əməliyyatları;<br>• əvvəlki dövrlər üzrə konsolidasiya zamanı balanslaşdırılmayan və ya üzləşdirilməyən qrupdaxili hesab qalıqlarının mövcud olması;<br>• qrup daxilində, xüsusən də əhəmiyyətli və ya yüksək dələduzluq riski olan yerlərdə fəaliyyət göstərən yeni yaradılmış müəssisələrə və ya struktur vahidlərinə böyük məbləğdə və ya qeyri-adi pul köçürmələri |

Qrupun xüsusiyyəti və mürəkkəbliyi nəzərə alınmaqla, nəzarət mühitinin, qrupun riskləri qiymətləndirmə prosesinin və ya qrupun daxili nəzarət sisteminə nəzarət etmə prosesinin qrupun şəraitinə uyğun olmadığını və qrupun daxili nəzarət sisteminin digər komponentləri üçün müvafiq zəmin yaratmadığını bildirən əlamətlərə aşağıdakılar daxildir:

- zəif korporativ idarəetmə strukturları, o cümlədən şəffaf olmayan qərar qəbuletmə prosesləri;
- qrupun maliyyə hesabatları prosesi üzrə nəzarət vasitələrinin mövcud olmaması və ya qeyri-effektiv olması, o cümlədən qrupun tərkibindəki müəssisələrin və ya struktur vahidlərinin əməliyyatlarının və maliyyə nəticələrinin monitorinqi üzrə qrup rəhbərliyinin qeyri-münasib məlumatlandırılması.

# TƏKLİF EDİLƏN 600 SAYLI (DÜZƏLİŞ EDİLMİŞ) BAS-dan İRƏLİ GƏLƏN DİGƏR STANDARTLARA TƏKLİF EDİLƏN MÜVAFİQ VƏ MƏNTİQLİ DÜZƏLİŞLƏR

**Qeyd:** Aşağıda təqdim olunanlar 600 saylı (düzəliş edilmiş) BAS-ın təsdiqlənməsi nəticəsində digər beynəlxalq standartlara edilən müvafiq düzəlişlərdir. Bu düzəlişlər 600 saylı (düzəliş edilmiş) BAS ilə eyni vaxtda qüvvəyə minəcək və beynəlxalq standartların düzəliş edilmiş ən son təsdiq edilmiş versiyalarında qeyd edilən dəyişikliklər kimi göstərilmişdir. Bu düzəlişlərdəki son qeyd nömrələri düzəliş edilmiş beynəlxalq standartlara uyğun gəlmir və həmin beynəlxalq standartlara istinad edilməlidir.

## 1 saylı BKİS – MALİYYƏ HESABATLARININ AUDİTİNİ VƏ YA TƏHLİLİNİ, YAXUD DİGƏR TƏSDİQLƏMƏ VƏ YA ƏLAQƏLİ XİDMƏTLƏR ÜZRƏ TAPŞIRIQLARI YERİNƏ YETİRƏN ŞİRKƏTLƏR ÜÇÜN KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ

…

**Praktik tətbiq və digər izahedici materiallar** …

*Resurslar (İst: Paraq. 32)*

…

İnsan resursları

*…*

Hər tapşırıq üçün təyin edilmiş tapşırıq qrupu üzvləri (İst: Paraq. 32(d))

…

A96. 220 saylı (düzəliş edilmiş) BAS-da[105] tapşırıq qrupunun üzvlərinin və tapşırıq qrupuna daxil olmayan, birbaşa yardım göstərən hər hansı auditorun kənar ekspertlərinin və daxili auditorlarının birlikdə müvafiq səriştəliliyə və bacarıqlara, o cümlədən yetərli vaxta malik olduğunu müəyyən etmək üçün tapşırıq üzrə tərəfdaşın məsuliyyəti əks etdirilir. 600 saylı (düzəliş edilmiş) BAS[106], qrup maliyyə hesabatlarının auditi ilə əlaqədar 220 saylı (düzəliş edilmiş) BAS-ın necə tətbiq ediləcəyinə dair anlayışı genişləndirir. Tapşırıq üçün təyin edilmiş tapşırıq qrupu üzvlərinin səriştəliliyi və bacarıqları ilə bağlı şirkət tərəfindən hazırlanan və həyata keçirilən cavab tədbirləri aşağıdakıları əhatə edən siyasət və ya prosedurları ehtiva edə bilər:

- Tapşırıq üzrə tərəfdaşın əldə edə biləcəyi məlumat və tapşırıq üçün təyin edilmiş tapşırıq qrupu üzvlərinin, o cümlədən şirkətin şəbəkəsi, digər şəbəkə şirkətləri və ya xidmət təminatçısı tərəfindən təyin edilmiş şəxslərin tapşırığı yerinə yetirmək üçün səriştəliliyə və bacarıqlara malik olduğunu müəyyən etmək üçün nəzərdən keçirilməli amillər.
- Tapşırıq qrupu üzvlərinin, xüsusən də şirkətin şəbəkəsi, digər şəbəkə şirkətləri və ya xidmət təminatçısı tərəfindən müəyyən edilmiş səriştəlilik və bacarıqlarla bağlı narahatlıqlar necə aradan qaldırıla bilər.

[105] 220 saylı (düzəliş edilmiş) BAS, 26-cı paraqraf

[106] 600 saylı (düzəliş edilmiş) *"Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)"* BAS, 26~~19~~-cı paraqraf

…

*Məlumat və məlumatvermə (İst: Paraq. 33)*

…

Şirkət daxilində məlumatvermə (İst: Paraq. 33(b), 33(c))

A112. Şirkət daxilində məlumatverməni asanlaşdırmaq üçün məlumatvermə kanalları yaratmaqla şirkət ilə və bir biri ilə məlumat mübadiləsi aparmaq üçün heyətin və tapşırıq qruplarının məsuliyyətini tanıya və gücləndirilə bilər.

*Şirkət, heyət və tapşırıq qrupları arasında məlumatvermə nümunələri*

- Şirkət heyətə və tapşırıq qruplarına şirkətin cavab tədbirlərinin həyata keçirilməsinə görə məsuliyyət haqqında məlumat verir.
- Şirkət keyfiyyət idarəetmə sistemindəki dəyişikliklər haqqında, dəyişikliklərin onların məsuliyyətlərinə uyğun olduğu dərəcədə məlumat verir, habelə heyətə və tapşırıq qruplarına öz məsuliyyətlərinə uyğun olaraq operativ və müvafiq tədbirlər görməyə imkan verir.
- Şirkət qəbul və davamlılıq prosesində əldə edilən və tapşırıqların planlaşdırılması və yerinə yetirilməsi zamanı tapşırıq qrupları üçün müvafiq olan məlumatları çatdırır.
- Tapşırıq qrupları şirkətə aşağıdakılar haqqında məlumat verir:
  - Sifarişçini və ya xüsusi tapşırığı qəbul etməzdən və ya davam etdirməzdən əvvəl şirkətin sifarişçidən və ya xüsusi tapşırıqdan imtina etməsinə səbəb ola biləcək tapşırıq yerinə yetirilən zaman əldə edilən sifarişçi olması.
  - Bəzi hallarda şirkətin keyfiyyət idarəetmə sistemində çatışmazlığı göstərə bilən şirkətin cavab tədbirlərinin həyata keçirilməsi (məsələn, tapşırıqlara heyətin təyin edilməsi proseslərinə dair şirkətin narahatlıqları).
- Tapşırıq qrupları məlumatları tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə və ya məsləhət verən şəxslərə çatdırır.
- Qrupun ~~tapşırıq heyətləri~~ auditoru tapşırıq səviyyəsində keyfiyyətin idarə edilməsi ilə bağlı məsələlər də daxil olmaqla, şirkətin siyasət və ya prosedurlarına uyğun olaraq məsələləri bölmə auditorlarına çatdırır.
- Müstəqillik tələblərinə riayət etmənin icrasına görə məsuliyyət həvalə edilən şəxs (şəxslər) müstəqillik tələblərindəki dəyişikliklər və belə dəyişiklikləri əks etdirən şirkətin siyasət və ya prosedurları haqqında müvafiq heyətə və tapşırıq qruplarına məlumat verirlər.

…

## 2 saylı BKİS – TAPŞIRIĞIN KEYFİYYƏTİNİN TƏHLİLİ

…

**Praktik tətbiq və digər izahedici materiallar**

…

*Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi (İst: Paraq. 24–27)*

…

Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert tərəfindən yerinə yetirilən prosedurlar (İst: Paraq. 25–27)

…

Qrup auditinə xas olan mülahizələr

A32. Qrup maliyyə hesabatlarının auditi üçün tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi qrupun ölçüsündən və mürəkkəbliyindən asılı olaraq, qrup auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi ekspert kimi təyin edilmiş şəxs üçün əlavə mülahizələri əhatə edə bilər. 21(a) paraqrafına uyğun olaraq şirkətin siyasət və ya prosedurlarında tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi üçün ümumi məsuliyyəti öz üzərinə götürməsini tələb etməlidir. Bunu edərkən, daha böyük və mürəkkəb qrup auditi üçün, qrup tapşırığının keyfiyyəti üzrə müşahidəçi-ekspertin əhəmiyyətli məsələləri və əhəmiyyətli mühakimələri qrup ~~tapşırığının heyəti~~ auditoru olmayan tapşırıq qrupunun əsas üzvləri ilə (məs., bölmə~~nin maliyyə məlumatları ilə bağlı audit prosedurlarının yerinə yetirilməsi üçün məsuliyyət daşıyanlar~~auditoru) müzakirə etməsi lazım ola bilər. Bu şəraitdə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə 20-ci paraqrafa uyğun olaraq köməkçi şəxslər kömək edə bilər. Qrup auditi üçün tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert köməkçilərdən istifadə etdikdə A22 paraqrafında verilən tövsiyələr faydalı ola bilər.

…

## 220 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS – MALİYYƏ HESABATLARI AUDİTİNİN KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİ

**…**

**Praktik tətbiq və digər izahedici materiallar**

*Bu BAS-ın əhatə dairəsi (İst: Paraq. 1)*

A1. Bu BAS maliyyə hesabatlarının bütün auditlərinə, o cümlədən qrup maliyyə hesabatlarının auditinə şamil olunur. 600 saylı (düzəliş edilmiş) BAS-da[107] qrup maliyyə hesabatlarının auditinə və bölmə auditorları cəlb edildiyi zaman tətbiq olunan xüsusi mülahizələr əks etdirilir. Zəruri hallarda şəraitlərə uyğunlaşdırılmış 600 saylı (düzəliş edilmiş) BAS tapşırıq qrupuna başqa şirkətdən olan şəxslər daxil edildikdə də maliyyə hesabatlarının auditində faydalı ola bilər. Məsələn, 600 saylı (düzəliş edilmiş) BAS belə bir şəxsi inventarizasiyada iştirak etmək, əsas vəsaitləri yoxlamaq və ya məsafədə yerləşən ortaq xidmət mərkəzində audit prosedurlarını yerinə yetirmək üçün cəlb edərkən faydalı ola bilər.

…

*Anlayışlar*

Tapşırıq qrupu (İst: Paraq. 12(d))

---

[107] 600 saylı (düzəliş edilmiş) *"Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)"* BAS

…

A21A. Birgə auditorlar auditi apardıqda, tapşırıq üzrə birgə tərəfdaşlar və onların tapşırıq qrupları BAS-ların məqsədləri üçün kollektiv şəkildə “tapşırıq üzrə tərəfdaş” və “tapşırıq qrupu”nu təşkil edirlər. Bununla belə, bu BAS birgə auditorlar arasındakı münasibətlərə və ya birgə auditorun birinin digər birgə auditorun işi ilə əlaqədar yerinə yetirdiyi işə aid deyil.

…

Tapşırıq qrupunun üzvləri tərəfindən şirkətin siyasət və ya prosedurlarının tətbiq edilməsi
(İst: Paraq. 9, 12(d), 17)

…

A24. Xüsusən, şirkətin siyasət və ya prosedurları ilə şirkətdən və ya tapşırıq üzrə tərəfdaşdan tələb olunan siyasət və ya prosedurlar başqa şirkətdən olan şəxs ilə əlaqəli aşağıdakılar barədə anlayış əldə edərkən heyətə tətbiq edilənlərdən fərqli ola bilər:

- Audit tapşırığını yerinə yetirmək üçün müvafiq səriştə və bacarıqlara malik olub-olmaması. Məsələn, şirkətin işə götürmə və təlim prosesləri belə şəxsə şamil olunmur və buna görə də şirkətin siyasət və ya prosedurlarında qeyd oluna bilər ki, bu digər şirkətdən və ya lisenziyalaşdırma və ya qeydiyyat orqanından məlumatların əldə edilməsi kimi digər tədbirlər vasitəsilə müəyyən edilə bilər. 600 saylı (düzəliş edilmiş) BAS-ın 26-cı~~19-cu~~ və A59-A64~~A38~~ paraqraflarında bölmə auditorlarının səriştə və bacarıqları haqqında anlayışın əldə edilməsinə dair təlimatlar verilir.
- Qrup audit tapşırığına uyğun olan etik normalar barədə anlayışın olub-olmaması. Məsələn, müvafiq etik normalara dair şirkətin siyasət və ya prosedurları ilə bağlı şirkətin təlimi həmin şəxsə şamil olunmur. Şirkətin siyasət və ya prosedurlarında qeyd oluna bilər ki, bu anlayış fərdi şəxslərə audit tapşırığına şamil olunan müvafiq etik normaların müddəalarını ehtiva edən məlumat, kitabçalar və ya təlimatların təqdim edilməsi kimi digər tədbirlər vasitəsilə əldə edilir.
- Müstəqilliyini təsdiq edib-etməyəcəyi. Məsələn, heyətə daxil olmayan şəxslər birbaşa şirkətin müstəqillik sistemlərində müstəqillik bəyannamələrini doldura bilmirlər. Şirkətin siyasətləri və ya prosedurlarında qeyd oluna bilər ki, bu cür şəxslər audit tapşırığı ilə bağlı öz müstəqilliklərinə dair sübutları digər yollarla, məsələn, yazılı təsdiqləmə ilə təqdim edə bilərlər.

A25. Şirkətin siyasət və ya prosedurları ilə müəyyən şəraitlərdə xüsusi tədbirlərin görülməsi tələb edildikdə (məsələn, konkret məsələ ilə bağlı məsləhətləşmələr), şirkətin müvafiq siyasət və ya prosedurlarının heyətə daxil olmayan şəxslərə çatdırılması zəruri ola bilər. Bu halda, müvafiq vəziyyət yarandıqda belə şəxslər tapşırıq üzrə tərəfdaşı xəbərdar edə bilər və bu, tapşırıq üzrə tərəfdaşa şirkətin siyasət və ya prosedurlarına riayət etməyə imkan verəcəkdir. Məsələn, qrup audit tapşırığında, əgər bölmə auditoru bölmənin maliyyə məlumatları üzrə audit prosedurlarını yerinə yetirirsə və qrup maliyyə hesabatlarına aid olan və qrup auditorunun siyasət və ya prosedurlarına uyğun olaraq məsləhətləşməyi tələb edən çətin və ya mübahisəli məsələ müəyyən edərsə[108], bölmə auditoru bu məsələ ilə bağlı qrup~~un~~ auditorunu ~~tapşırıq üzrə heyətini~~ xəbərdar edə bilər.

[108] Bax: 35-ci paraqraf.

…

*Müstəqilliklə əlaqəli olanlar da daxil olmaqla, müvafiq etik normalar (İst: Paraq. 16–21)*

Müvafiq etik normalar (İst: Paraq. 1, 16–21)

A38. 200saylı BAS-a[109] uyğun olaraq auditordan müstəqilliyə aid olanlar da daxil olmaqla, maliyyə hesabatlarının audit tapşırıqları ilə bağlı müvafiq etik normalara riayət etməsi tələb olunur. Müvafiq etik normalar tapşırığın xüsusiyyətindən və şərtlərindən asılı olaraq dəyişə bilər. Məsələn, müstəqilliklə bağlı müəyyən normalar yalnız listinq subyekti olan müəssisələrin auditi aparılarkən tətbiq oluna bilər. 600 saylı (düzəliş edilmiş) BAS-da bölmə auditorları ilə müvafiq etik normalar haqqında məlumatvermə ilə bağlı bu BAS-da əks etdirilənlərdən əlavə normalar və təlimatlar əhatə edilir.

…

*Sifarişçi və audit tapşırıqlarının qəbulu və davamlılığı (İst: Paraq. 22–24)*

…

A53. Qəbul və davamlılıq zamanı əldə edilmiş məlumatlar tapşırıq üzrə tərəfdaşa bu BAS-ın tələblərinə riayət etməkdə və müvafiq tədbirlər planları haqqında əsaslandırılmış qərarlar qəbul etməkdə kömək edə bilər. Belə məlumatlar aşağıdakıları ehtiva edə bilər:

- Müəssisənin ölçüsü, mürəkkəbliyi və xüsusiyyəti, o cümlədən qrup auditi olub-olmaması, fəaliyyət göstərdiyi sahə və maliyyə hesabatlarının tətbiq olunan çərçivələri haqqında məlumatlar;
- Müəssisənin hesabatvermə cədvəli, məsələn, aralıq və yekun mərhələlərində;
- Qrup auditləri ilə əlaqədar olaraq, ana müəssisə ilə onun müəssisələri və struktur vahidləri arasında nəzarət əlaqələrinin xüsusiyyəti; habelə
- Əvvəlki audit tapşırığından sonra müəssisədə və ya müəssisənin fəaliyyət göstərdiyi sahədə tələb olunan resursların xüsusiyyətinə, habelə tapşırıq qrupuna rəhbərlik, nəzarət etmək və onun işini təhlil etmək tərzinə təsir göstərə biləcək dəyişikliklərin olub-olmaması.

A54. Qəbul və davamlılıq zamanı əldə edilən məlumatlar digər BAS-ların, eləcə də bu BAS-ın tələblərinə riayət edilməsi ilə də əlaqəli ola bilər, məsələn, aşağıdakılara nəzərən:

- 210 saylı BAS-ın[110] tələblərinə əsasən audit tapşırığının şərtləri haqqında anlayışın müəyyən edilməsi;
- 315 saylı (2019-cu ildə düzəliş edilmişdir) BAS-a və 240 saylı BAS-a[111] uyğun olaraq səhv və ya fırıldaqçılıq nəticəsində əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi;
- 600 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq qrup maliyyə hesabatlarının auditi zamanı qrup~~,~~ ~~onun bölmələri~~ və onu~~ları~~n mühit~~lər~~i haqqında anlayışın əldə edilməsi və bölmə auditorlarının işinə rəhbərlik, nəzarət və onun təhlil edilməsi;

[109] 200 saylı BAS, 14-cü paraqraf və A16–A19 paraqrafları

[110] 210 saylı *"Audit tapşırığı şərtlərinin razılaşdırılması"* BAS, 9-cu paraqraf

[111] 240 saylı *"Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti"* BAS

- 620 saylı BAS-a uyğun olaraq auditorun ekspertinin cəlb edilib-edilməyəcəyinin və onun necə cəlb ediləcəyənin müəyyən edilməsi; habelə
- 260 saylı (düzəliş edilmiş) BAS-a[112] və 265 saylı BAS-a[113] uyğun olaraq müəssisənin idarəetmə strukturu.

…

*Tapşırıq üçün resurslar (İst: Paraq. 25–28)*

…

A60. Audit tapşırığı üçün resurslar ilk növbədə şirkət tərəfindən ayrılır və ya təmin edilir, bununla belə tapşırıq qrupunun audit tapşırığı üçün resursları bilavasitə əldə etdiyi hallar ola bilər. Məsələn, bu, bölmə auditorundan qanun, qaydalar ilə və ya başqa səbəbdən bölmənin maliyyə hesabatlarına dair auditor rəyi bildirmək tələb olunduğu və bölmə auditorunun qrup~~un~~ auditorunun ~~tapşırıq heyəti~~ adından audit prosedurlarını yerinə yetirmək üçün bölmə rəhbərliyi tərəfindən təyin edildiyi hallar ola bilər.

…

Resursların yetərli və ya müvafiq olmaması (İst: Paraq. 27)

…

~~A76. Qrup maliyyə hesabatlarının auditində, bölmə auditoru tərəfindən bölmədə yerinə yetirilən işlə bağlı resurslar yetərli və ya müvafiq olmadıqda, tapşırıq üzrə tərəfdaş yetərli və müvafiq resursları təmin etmək üçün bu məsələni bölmə auditoru, rəhbərlik və ya şirkət ilə müzakirə edə bilər.~~

…

*Tapşırığın yerinə yetirilməsi* …

Rəhbərlik, nəzarət və təhlil (İst: Paraq. 30)

…

Tapşırıq üzrə tərəfdaşın təhlili (İst: Paraq. 30–34)

…

A92. Tapşırıq üzrə tərəfdaş tapşırıq qrupu tərəfindən əhəmiyyətli mühakimələr yürüdülən sahələrin müəyyən edilməsi üçün peşəkar mühakimə yürüdür. Şirkətin siyasət və ya prosedurları adətən əhəmiyyətli mühakimələrin olması gözlənilən müvafiq məsələləri müəyyən edə bilər. Audit tapşırığı ilə bağlı əhəmiyyətli mühakimələrə tapşırığın başlanması və icrası üçün ümumi audit strategiyası və planı, habelə tapşırıq qrupunun əldə etdiyi ümumi nəticələr ilə bağlı məsələlər daxil ola bilər, məsələn:

- Tapşırığın planlaşdırılması ilə bağlı məsələlər, məsələn, əhəmiyyətliliyin müəyyən edilməsi

---

[112] 260 saylı (düzəliş edilmiş) *"İdarəetməyə məsul şəxslərlə əlaqə"* BAS

[113] 265 saylı *"Daxili nəzarətlə bağlı çatışmazlıqların idarəetməyə məsul şəxslərə və rəhbərliyə bildirilməsi"* BAS

- ilə bağlı məsələlər.

- Tapşırıq qrupunun tərkibi, o cümlədən:
    - İxtisaslaşdırılmış mühasibat uçotu və ya audit sahəsində təcrübəsi olan heyət;
    - Xidmətlər mərkəzlərinin heyətinin istifadə edilməsi.
- Auditorun ekspertinin cəlb edilməsi barədə qərar, o cümlədən kənar ekspertin cəlb edilməsi haqqında qərar.
- Qəbul və davamlılıq zamanı əldə edilən məlumatların və bu məlumatlara təklif edilən cavab tədbirlərinin tapşırıq qrupu tərəfindən yoxlanılması.
- Tapşırıq qrupu tərəfindən risklərin qiymətləndirilməsi, o cümlədən tərkib riskləri amillərinin nəzərdən keçirilməsi və tərkib riskinin qiymətləndirilməsi üçün tapşırıq qrupu tərəfindən əhəmiyyətli mühakimənin yürüdülməsi tələb edilən vəziyyətlər.
- Tapşırıq qrupu tərəfindən əlaqəli tərəflərlə əlaqələr, əməliyyatlar və açıqlamaların nəzərdən keçirilməsi.
- Tapşırıq qrupu tərəfindən tapşırığın əhəmiyyətli sahələri üzrə həyata keçirilən prosedurların nəticələri, məsələn, müəyyən uçot qiymətləndirmələri, uçot siyasətləri və ya fəaliyyətin fasiləsizliyi ehtimalları ilə bağlı nəticələr.
- Tapşırıq qrupu tərəfindən ekspertlərin yerinə yetirdikləri işin və ondan əldə edilən nəticələrin qiymətləndirilməsi.
- Qrup auditlərində:
    - Təklif olunan qrup auditinin ümumi strategiyası və qrup auditinin planı;
    - Bölmə auditorlarının cəlb edilməsinə dair, o cümlədən onlara necə rəhbərlik və nəzarət edilməsi, habelə onların işinin necə təhlil edilməsi ilə bağlı qərar~~, o cümlədən, məsələn, bölmənin maliyyə məlumatlarının əhəmiyyətli təhrif riskinin yüksək qiymətləndirildiyi sahələr olduqda~~; habelə
    - Bölmə auditorları tərəfindən yerinə yetirilən işin və ondan əldə edilən nəticələrin qiymətləndirilməsi.
- Ümumi audit strategiyasına və audit planına təsir edən məsələlər necə həll edilmişdir.
- Tapşırıq zamanı müəyyən edilən təshih edilmiş və təshih edilməmiş təhriflərin əhəmiyyəti və xüsusiyyəti.
- Təklif olunan auditor rəyi və auditor hesabatında bildiriləcək məsələlər, məsələn, əsas audit məsələləri və ya "Fəaliyyətin fasiləsizliyi ehtimalı ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik" paraqrafı.

…

## 230 saylı BAS – AUDİTİN SƏNƏDLƏŞDİRİLMƏSİ

…

### Əlavə

(İst: Paraq. 1)

*Digər BAS-larda auditin sənədləşdirilməsinə dair xüsusi tələblər*

Bu Əlavədə digər BAS-ların sənədləşdirilməyə dair xüsusi tələbləri əks etdirən Paraqrafları müəyyən edilir. Bu siyahı BAS-lardakı tələbləri, müvafiq Praktik tövsiyələri və digər izahedici materialların öyrənilməsi zərurətini əvəz etmir.

- 210 saylı “Audit tapşırığı şərtlərinin razılaşdırılması” BAS, 10-12-ci paraqraflar
- 220 saylı (düzəliş edilmiş) “Maliyyə hesabatları auditinin keyfiyyətinə nəzarət” BAS, 41-ci paraqraf
- 240 saylı “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” BAS, 45–48-ci paraqraflar
- 250 saylı (düzəliş edilmiş) “Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması” BAS, 29-cu paraqraf
- 260 saylı (düzəliş edilmiş) “İdarəetməyə məsul şəxslərlə əlaqə” BAS, 23-cü paraqraf
- 300 saylı “Maliyyə hesabatlarının auditinin planlaşdırılması” BAS, 12-ci paraqraf
- 315 saylı (2019-cu ildə düzəliş edilmiş) “Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi” BAS, 38-ci paraqraf
- 320 saylı “Auditin planlaşdırılmasında və həyata keçirilməsinə əhəmiyyətlilik” BAS, 14-cü paraqraf
- 330 saylı “Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri” BAS, 28–30-cu paraqraflar
- 450 saylı “Audit zamanı müəyyən edilmiş təhriflərin dəyərləndirilməsi” BAS, 15-ci paraqraf
- 540 saylı (düzəliş edilmiş) “Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” BAS, 39-cu paraqraf
- 550 saylı “Əlaqəli tərəflər” BAS, 28-ci paraqraf
- 600 saylı <u>(düzəliş edilmiş)</u> “Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)” BAS, <u>59-cu</u>~~570~~ paraqraf
- 610 saylı (2013-cü ildə düzəliş edilmiş) “Daxili auditorların işindən istifadə edilməsi” BAS, 36–37-ci paraqraflar
- 720 saylı (düzəliş edilmiş) “Digər məlumatlar üzrə auditorun məsuliyyəti” BAS, 25-ci paraqraf

…

# 240 saylı BAS – "MALİYYƏ HESABATLARININ AUDİTİ ZAMANI DƏLƏDUZLUQLA BAĞLI AUDİTORUN MƏSULİYYƏTİ"

…

**Praktik tətbiq və digər izahedici materiallar**

…

*Dələduzluğun qarşısının alınması və aşkar edilməsinə görə məsuliyyət*

Auditorun məsuliyyətləri (İst: Paraq. 9)

A6. Qanun, qaydalar və ya müvafiq etik normalar ilə auditordan əlavə prosedurların yerinə yetirməsi və əlavə tədbirlər görməsi tələb edilə bilər. Məsələn, Mühasiblərin Beynəlxalq Etika Standartları Komitəsinin nəşr etdiyi "Peşəkar mühasiblərin etika məcəlləsi" (o cümlədən beynəlxalq müstəqillik standartları) (IESBA Məcəlləsi) üzrə auditordan qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə hallarına cavab vermək və əlavə tədbirin görülməsinin zəruriliyini müəyyən etmək üçün tədbir görməyi tələb olunur. Belə tədbirlərə qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə ~~qrup~~ tapşırıq qrupu daxilindəki ~~digər~~ auditorlar~~a, o cümlədən qrup tapşırıq üzrə tərəfdaşa, bölmə auditorlarına~~ və ya qrup maliyyə hesabatlarının auditi istisna olmaqla digər məqsədlər üçün qrupun tərkibindəki müəssisələrdə və ya struktur vahidlərində ~~bölmələrində~~ iş görən digər auditorlar~~a~~ arasında məlumatvermə daxil ola bilər.[114]

…

# 250 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS – MALİYYƏ HESABATLARININ AUDİTİ ZAMANI QANUN VƏ QAYDALARIN NƏZƏRƏ ALINMASI

…

***Praktik tətbiq və digər izahedici materiallar***

*Qanun və qaydalara riayətetmə üzrə məsuliyyət (İst: Paraq. 3–9)*

*…*

Auditorun məsuliyyəti

…

Qanun, qaydalar və ya müvafiq etik normalar ilə müəyyən edilmiş əlavə məsuliyyətlər (İst: Paraq. 9)

A8. Qanun, qaydalar və ya müvafiq etik normalar ilə auditordan əlavə prosedurların yerinə yetirməsi və əlavə tədbirlərin görülməsi tələb edilə bilər. Məsələn, Mühasiblərin Beynəlxalq Etika Standartları Komitəsinin nəşr etdiyi "Peşəkar mühasiblərin etika məcəlləsi (o cümlədən beynəlxalq müstəqillik standartları" (IESBA Məcəlləsi) üzrə auditordan qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə hallarına cavab vermək və əlavə tədbirin görülməsinin zəruriliyini müəyyən etmək üçün tədbir görməyi tələb olunur. Belə tədbirlərə qanun və qaydaların tələblərinə

114 Bax: məsələn, IESBA Məcəlləsinin R360.16–360.18 A1 paraqrafları.

aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə ~~qrup~~ tapşırıq qrupu daxilindəki digər auditorlara~~, o cümlədən qrup tapşırıq üzrə tərəfdaşa, bölmə auditorlarına~~ və ya qrup maliyyə hesabatlarının auditi istisna olmaqla digər məqsədlər üçün qrupun tərkibindəki müəssisələrdə və ya struktur vahidlərində ~~bölmələrində~~ iş görən digər auditorlara məlumatvermə daxil ola bilər.[115]

…

## 260 saylı (DUZƏLİŞ EDİLMİŞ) – İDARƏETMƏYƏ MƏSUL ŞƏXSLƏRLƏ ƏLAQƏ

…

***Praktik tətbiq və digər izahedici materiallar***

*İdarəetməyə məsul şəxslər (İst: Paraq. 11)*

….

A4. 600 saylı (düzəliş edilmiş) BAS qrup auditorlarının qrupun idarəetməyə məsul şəxslərinə çatdırmalı olduğu xüsusi məsələləri əks etdirir.[116] Bildirilən məsələlərə qrup auditorunun fikrincə qrupun idarəetməyə məsul şəxslərinin məsuliyyətləri üçün əhəmiyyətli olan və bölmə auditorları tərəfindən qrup auditorunun diqqətinə çatdırılan məsələlər daxil ola bilər. Bölmə auditorları həmçinin məsələlər barədə bölmənin idarəetməyə məsul şəxslərinə məlumat verə bilərlər.[117] Bu hallarda, bölmə auditorunun əlaqə saxlamalı olduğu müvafiq şəxs(lər)in kimliyi tapşırıq şəraitlərindən və çatdırılmalı məsələdən asılıdır. Bəzi hallarda bir sıra ~~bölmələr~~ müəssisələr və ya struktur vahidləri eyni daxili nəzarət sistemi çərçivəsində eyni mühasibat uçotu metodlarından istifadə edə bilərlər. Həmin ~~bölmələrin~~ müəssisələrin və ya struktur vahidlərinin idarəetməyə məsul şəxsləri eyni olduğu zaman (ümumi direktorlar şurası) bu bölmələrlə eyni vaxtda əlaqə saxlamaq təkrarçılıqdan yayınmağa imkan verir.

…

## Əlavə 1

(İst: Paraq. 3)

### 1 saylı BKİS-də və digər BAS-larda idarəetməyə məsul şəxslərlə əlaqə barədə istinad edilən xüsusi tələblər

Bu əlavə 1 saylı BKİS-in[118] və digər BAS-ların xüsusi məsələlərin idarəetməyə məsul şəxslərə xəbər verilməsini tələb edən paraqrafları müəyyən edir. Bu siyahı BAS-lardakı tələbləri, müvafiq tətbiqi və izahedici materialları öyrənmək zərurətini aradan qaldırmır.

- 1 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditini və təhlilini, yaxud digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" BKİS, 34(e) paraqrafı

---

115 Bax: məsələn, IESBA Məcəlləsinin R360.16–360.18 A1 paraqrafları.

116 600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS, 57-ci~~49~~ paraqraf

117 600 (düzəliş edilmiş) BAS, 45(i) paraqrafı

118 1 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditini və təhlilini, yaxud digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" BKİS

- 240 saylı “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” BAS, 22-ci, 39(c)(i) və 41–43-cü paraqraflar
- 250 saylı (düzəliş edilmiş) “Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması” BAS, 15, 20 və 23–25-ci paraqraflar
- 265 saylı “Daxili nəzarətlə bağlı çatışmazlıqların idarəetməyə məsul şəxslərə və rəhbərliyə bildirilməsi” BAS, 9-cu paraqraf
- 450 saylı “Audit zamanı müəyyən edilmiş təhriflərin qiymətləndirilməsi” BAS, 12-13-cü paraqraflar
- 505 saylı “Kənar mənbədən təsdiqləmələr” BAS, 9-cu paraqraf
- 510 saylı “İlk audit tapşırıqları - ilkin qalıqlar” BAS, 7-ci paraqraf
- 540 saylı (düzəliş edilmiş) “Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” BAS, 38-ci paraqraf
- 550 saylı “Əlaqəli tərəflər” BAS, 27-ci paraqraf
- 560 saylı “Sonrakı hadisələr” BAS, 7(b)-(c), 10(a), 13(b), 14(a) və 17-ci paraqraflar
- 570 saylı (düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS, 25-ci paraqraf
- 600 saylı (düzəliş edilmiş) “Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)” BAS –57-ci~~49~~ paraqraf
- 610 saylı (2013-cü ildə düzəliş edilmiş) “Daxili auditorların işindən istifadə edilməsi” BAS, 20 və 31-ci paraqraflar
- 700 saylı (düzəliş edilmiş) “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi” BAS, 46-cı paraqraf
- 701 saylı “Müstəqil auditor hesabatında əsas audit məsələləri haqqında məlumatvermə” BAS, 17-ci paraqraf
- 705 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında fərqli rəylər” BAS, 12, 14, 23 və 30-cu paraqraflar
- 706 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı” BAS, 12-ci paraqraf
- 710 saylı “Müqayisəli məlumatlar: müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları” BAS, 18-ci paraqraf
- 720 saylı (düzəliş edilmiş) “Digər məlumatlar üzrə auditorun məsuliyyəti” BAS, 17-19-cu paraqraflar

…

## 300 saylı BAS – MALİYYƏ HESABATLARININ AUDİTİNİN PLANLAŞDIRILMASI

…

**Tələblər**

…

*Fəaliyyətlərin planlaşdırılması*

…

10A. Tapşırıq üzrə tərəfdaş ümumi audit strategiyasını və audit planını təhlil etməlidir.

…

**Praktik tətbiq və digər izahedici materiallar**

…

*Fəaliyyətlərin planlaşdırılması*

Ümumi audit strategiyası (İst: Paraq. 7–8)

A8. Ümumi audit strategiyasının qurulması prosesi, auditorun riski qiymətləndirmə prosedurlarının tamamlanması şərtilə, aşağıdakı məsələlərin müəyyən edilməsinə yardım edir:

- Xüsusi audit sahələri üzrə tətbiq ediləsi resurslar, məsələn, yüksək riskli sahələr üçün müvafiq təcrübəli qrup üzvlərindən istifadə edilməsi və ya mürəkkəb məsələlərin həllindən ötrü ekspertlərin cəlb olunması;
- Xüsusi audit sahələri üzrə ayrılmış resursların miqdarı, məsələn, əhəmiyyətli ərazi bölmələrində ehtiyatların inventarizasiyasında müşahidəsinə cəlb olunmuş qrup üzvlərinin sayı, qrup auditləri halında bölmə auditorlarına rəhbərlik və nəzarət etmənin xüsusiyyəti və dərəcəsi, habelə onların ~~digər auditorların~~ işinin təhlil edilməsi~~dərəcəsi~~, yaxud yüksək riskli sahələrə ayrılası saathesabı audit büdcəsi;
- Bu resursların istifadə edilməsi üçün zaman seçimi, məsələn, aralıq audit mərhələsində, yoxsa, hesabat dövrünün sonuna yaxın tarixlərdə; habelə
- Bu resursların necə idarə edilməsi və nəzarətdə saxlanması, məsələn, tapşırıq qrupu üzvlərinin təlimatlandırılmasının və hesabatlarının dinlənilməsinin nə zaman keçirilməsi, bilavasitə rəhbər tərəfindən audit tapşırığı üzrə tərəfdaşların təhlillərinin necə təşkil edilməsi (sahədə və ya sahədən kənarda), audit tapşırığının keyfiyyətinə nəzarəti tamamlamaq zərurətinin olub-olmaması).

…

## Əlavə

(İst: Paraq. 7–8, A8–A11)

**Ümumi audit strategiyasının müəyyən edilməsinə dair mülahizələr**

Bu Əlavə auditorun ümumi audit strategiyası müəyyənləşdirərkən nəzərə ala biləcəyi məsələlərə dair nümunələri əks etdirir. Bu məsələlərin çoxu, həmçinin, ətraflı audit planına da təsir edir. Təqdim edilən nümunələr əksər tapşırıqlara tətbiq oluna bilən problemlərin geniş spektrini əhatə edir. Aşağıda istinad edilmiş məsələlərin bəziləri digər BAS-larda nəzərdən keçirilə bildiyi halda, məsələlərin hamısı bütün audit tapşırıqları üçün aktual deyildir, bu siyahını da tamamlanmış hesab etmək düzgün deyildir.

*Tapşırığın xüsusiyyətləri*

…

- Auditin gözlənilən ~~əhatə dairəsi~~ həcmi, o cümlədən qrup auditinin məqsədləri üçün auditin aparılacağı nəzərdə tutulan ~~əhatə ediləsi~~ bölmələrin ~~sayı və olduğu yer,~~ habelə bölmə auditorlarının iştirak etmə həcmi.

- Ana müəssisə və onun ~~bölmələri~~ müəssisələri və ya struktur bölmələri arasında mövcud olan və qrupun birləşməsi qaydasını müəyyən edən nəzarət münasibətlərinin xüsusiyyəti
- ~~Bölmələrin digər auditorlar tərəfindən audit edilməsinin həcmi.~~
- Audit ediləsi biznes seqmentlərinin xüsusiyyəti, o cümlədən xüsusi biliklərə tələbat.
- Hesabatlılıqda istifadə olunmalı valyuta, o cümlədən audit edilmiş maliyyə məlumatının bir valyutadan digərinə çevrilməsi.
- ~~Konsolidə olunmuş hesabatların~~ Qrup auditi məqsədilə yerinə yetirilmiş audit~~inə~~ işinə əlavə olaraq, ~~ayrıca maliyyə hesabatlarının məcburi auditinə~~ qanun, normativlərin tələblərinə uyğun olaraq və ya digər səbəblərə görə maliyyə hesabatlarının auditinə olan ehtiyac.

…

*Hesabatlılığın məqsədləri, auditin müddəti və əlaqənin xüsusiyyəti*

…

- Qrup auditi məqsədilə bölmə~~lərin~~ auditorları ilə görülmüş audit işi ilə əlaqəli ~~hesabatlar, onların və bölmələrin auditi~~ məlumat mübadiləsinin nəzərdə tutulan növü və müddətinə dair məlumat mübadiləsi ~~ilə əlaqədar digər informasiyanın hazırlanması müddətlərinin razılaşdırılması~~.
- Tapşırıq qrupunun üzvləri arasında nəzərdə tutulan məlumat mübadiləsinin xüsusiyyəti və müddəti, o cümlədən qrup üzvləri arasında görüşlərin xüsusiyyəti və müddəti, habelə yerinə yetirilmiş audit işinin təhlilinin müddəti.

…

*Əhəmiyyətli amillər, tapşırıq üzrə ilkin fəaliyyətlər və digər tapşırıqlardan əldə edilmiş biliklər*

- Əhəmiyyətliliyin 320 saylı BAS-a[119] müvafiq olaraq müəyyən edilməsi və zəruri hallarda:
  - ~~Bölmələr~~ Bölmənin audit prosedurlarının yerinə yetirilməsi üçün əhəmiyyətliliyin və bunun bölmənin auditorlarına xəbər verilməsinin 600 saylı (düzəliş edilmiş) BAS-a[120] müvafiq olaraq müəyyən edilməsi.
  - ~~Əhəmiyyətli bölmələrin və~~ Əhəmiyyət kəsb edə biləcək əməliyyatların ~~əhəmiyyətli~~ kateqoriyalarının, hesab qalıqlarının və açıqlamaları~~nın~~a dair ilkin ~~müəyyən edilməsi~~gözləntilər.

…

## 315 saylı (2019-CU İLDƏ DÜZƏLİŞ EDİLMİŞ) BAS – ƏHƏMİYYƏTLİ TƏHRİF RİSKLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

…

**Praktik tətbiq və digər izahedici materiallar**

…

*Riski qiymətləndirmə prosedurları və əlaqəli fəaliyyətlər (İst: Paraq. 13–18)*

---

[119] 320 saylı "Auditin planlaşdırılmasında və həyata keçirilməsinə əhəmiyyətlilik" BAS

[120] 600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS, ~~21–23 və 40(c)~~35–36-cı paraqraflar

A11. Müəyyən edilməli və qiymətləndirilməli olan əhəmiyyətli təhrif risklərinə həm dələduzluq, həm də səhv nəticəsində yaranan risklər daxildir və hər ikisi bu BAS-da əhatə olunur. Bununla belə, dələduzluğun əhəmiyyətliliyi o dərəcədədir ki, 240 saylı BAS-a[121], dələduzluq nəticəsində yaranan əhəmiyyətli təhrif risklərini müəyyən etmək və qiymətləndirmək məqsədilə istifadə olunmuş məlumatların əldə edilməsi üçün nəzərdə tutulmuş riski qiymətləndirmə prosedurları və əlaqəli fəaliyyətlərlə bağlı əlavə tələblər və təlimatlar daxil edilmişdir. Bundan əlavə, aşağıdakı BAS-larda xüsusi məsələlər və ya vəziyyətlərlə bağlı əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üzrə əlavə tələblər və təlimatlar təqdim olunur:

- 540 saylı (düzəliş edilmiş) BAS[122] - uçot qiymətləndirmələri üzrə;
- 550 saylı BAS - əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlar üzrə;
- 570 saylı (düzəliş edilmiş) BAS[123] - fəaliyyətin fasiləsizliyi üzrə; habelə
- 600 saylı (düzəliş edilmiş) BAS[124] - qrup maliyyə hesabatları üzrə

…

Tapşırıq qrupunda müzakirələr (İst: Paraq. 17–18)

…

Uyğunlaşdırılma

…

A45. Tapşırıq böyük tapşırıq qrupu tərəfindən yerinə yetirildikdə, məsələn, qrupun maliyyə hesabatlarının auditi üçün, müzakirənin bütün üzvlərin iştirakı ilə aparılması (məsələn, audit müxtəlif yerlərdə aparıldıqda) həmişə zəruri və praktiki baxımdan lazım olmaya bilər, nə də tapşırıq qrupunun bütün üzvlərinin müzakirə zamanı əldə edilmiş bütün qərarlar barədə məlumatlandırılması lazım olmaya bilər. Tapşırıq üzrə tərəfdaş, məsələləri tapşırıq qrupunun əsas üzvləri ilə, o cümlədən müvafiq hesab edildiyi təqdirdə, xüsusi bacarıq və biliyə malik olan və bölmələrdə~~in~~ ~~auditində~~ yerinə yetiriləcək işə cavabdeh olan şəxslərlə müzakirə edə bilər, eyni zamanda, tapşırıq qrupunda zəruri hesab edilən məlumatvermənin həcmini nəzərə almaqla, digər şəxslərlə müzakirəni həvalə edə bilər. Tapşırıq üzrə tərəfdaş ilə razılaşdırılmış məlumatvermə planı məqsədəuyğun ola bilər.

…

*Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi (İst: Paraq. 28–37)*

…

Təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsi

…

Əhəmiyyətli risklər (İst: Paraq. 32)

---

[121] 240 saylı BAS, 12-27-ci paraqraflar

[122] 540 saylı (düzəliş edilmiş) “Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” BAS

[123] 570 saylı (düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS

[124] 600 saylı (düzəliş edilmiş) “Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)” BAS

Əhəmiyyətli risklərin müəyyən edilməsinin səbəbi və auditə təsiri

